www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 11 iyul 2014-cü il Cümə № 176 (5885)  Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda təyyarə qəzaya uğradı

yazısı səh.2-də

**Gündəm**

### "2 milyonluq inqilab" söhbəti yenidən qızışdı



Eynulla Fətullayev ABŞ Milli Demokratiya İnstitutunun rəhbərinin dediklərinə cavab verdi: "Aleks Qriqoryevsin arxasında böyük qüvvələr dayanır, o qüvvələr Azərbaycanı qarışdırmaqda maraqlıdırlar"

yazısı səh.4-də

### İlham Əliyev nazirlərin müşavirəsini keçirdi

yazısı səh.2-də

### Rəsul Quliyev Fətullah Gülənlə işbirliyi xəbərindən danışdı

yazısı səh.9-da

### İraq türkmənlərinə kömək başlayıb

Türkmənlərə dəstək üçün könüllü döyüşçülər, yardım karvanları bölgəyə yol alıb...

yazısı səh.7-də

### Ramil Usubovdan yeni təyinatlar

yazısı səh.2-də

### Daha bir NİDA-çı əfv ərizəsi yazdı

Şahin Novruzlu: "Söz verirəm ki, həyatımı dövlətimizin layiqli vətəndaşı kimi yaşayacağam"

yazısı səh.4-də

### Silinən gəmilərlə bağlı açıqlama verildi

yazısı səh.10-da

### Müxalifət ABŞ-ın yeni səfirindən nə gözləyir?

yazısı səh.8-də

### Prezident diplomatik korpusda dəyişiklik etdi

Britaniyadakı səfirin yerinə Tahir Tağızadə göndərildi

yazısı səh.7-də

### Azərbaycanın siyasi səhnəsində qorxulu marginallaşma

yazısı səh.8-də

### Ramazan ayının 13-cü günü

İftar 21.28. İmsaq (azan) 4.51 (QMİ-nin cədvəli)

13-cü günün duası: "İlahi, məni bu gün çirkin əməl və pis işlərdən pak et! Belə bir gündə qarşımıza çıxan hər bir asan və ya çətin işə qarşı səbir və dözüm ver! Məni təqvalı və yaxşı insanlarla yoldaşlıq etməyə müvəffəq et! Ey, yoxsulların Gözünün İşığı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Azərbaycan böyük güclərin "nifaq alması"na çevrilir

# BAKI GEOSİYASİ YOL AYRICINDA - TƏHLİL

Fransa prezidentinin İlham Əliyevlə Serj Sərkisyanı Parisdə görüşdürmək təklifi təkcə Qarabağla bağlı deyil; Amerikanın yeni səfiri konkret mesajlarla gələcək...

yazısı səh.9-da



## Fərhad Qəribov "Debütbank" işindən yayınmaq üçün Türkiyəyə gedib

Deputat 2 milyon 96 min manat büdcə pulunun yeyilməsi istintaqından qaçmağa çalışır

yazısı səh.3-də



### Prezident Rəsulzadənin nəvəsini Almaniyaya müalicəyə göndərdi

yazısı səh.2-də



Abbas Abbasov

### Kreml azərbaycanlı "ağır artilleriya"nı işə saldı

yazısı səh.6-da



Zahid Qaralov

### Baş prokurorun əmisindən "Yeni Müsavat"a ilginc açıqlamalar

yazısı səh.5-də

**11 iyul 2014**



# İlham Əliyev nazirlərin müşavirəsini keçirdi

**İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

Modern.az saytı Prezidentin saytına istinadən xəbər verir ki, dövlət başçısı iclası giriş nitqi ilə açıb.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov çıxış ediblər.

Prezident İlham Əliyev iclasda yekun nitqi söyləyib.

«Trend»in məlumatına görə, iclasda çıxış edən səhiyyə naziri Oqtay Şirəliyev bildirib ki, əgər ötən əsrin əvvəlində Azərbaycanda 300-dən bir az artıq həkim çalışırdısa, indi bu rəqəm 32 mini keçib.

**Nazir qeyd edib ki, bu gün səhiyyə sahəsində imkanlar ildən-ilə artır. Amma insanların tələbi də artır:** "Çünki sərhədlər açıqdır, hər bir Azərbaycan vətəndaşının istədiyi ölkəyə səyahət etmək, orada səhiyyə xidmətlərindən xəbərdar olmaq imkanları var. Bu gün insanlar Azərbaycan səhiyyəsini ABŞ, İngiltərə səhiyyəsi ilə müqayisə edirlər və onlarla eyni səviyyədə olmasını istəyirlər. Əlbəttə ki, biz də bunu istəyirik və bunun üçün çalışırıq. İnşallah, bizim səhiyyəmiz onlardan da yüksək səviyyədə olacaq".

O.Şirəliyev əlavə edib ki, bu gün insanlar öz sağlamlıqlarına qarşı daha diqqətli olublar. Onlar ildə bir və ya bir neçə dəfə tibb müəssisələrinə müraciət edərək müayinədən keçirlər. Nazir bunu müsbət hal kimi qiymətləndirib.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

GƏNCLİYİN ELMİ MƏDƏNİ İNKİŞAFI GEMİ
YOUTH SCIENTIFIC CULTURAL DEVELOPMENT YSCD

## Gəncliyin Elmi-Mədəni İnkişafı Təşkilatı -GEMİ

**Xaricdə Təhsil Proqramı təklif edir**

Əgər siz ingilis dilində danışa bilirsinizsə, dərslərinizdə qiymətləriniz normaldırsa, onda siz GEMİ-nin Xaricdə Təhsil Proqramlarından faydalana bilərsiniz. Proqramlarımız İngilis, Türk və Rus dillərində mövcuddur. Əməkdaşlıq etdiyimiz ölkələr haqda soruşsanız - Almaniya, İsveçrə Avstriya, Norveç, Polşa, Litva ,İtaliya, Macarıstan, Çexiya, Ukrayna və Türkiyəni təklif edə bilərik. Qeyd olunan ölkələrdə əyani, bəzilərində qiyabi təhsil almaq mümkündür. Təhsil ödənşli və ödənişsiz əsaslarladır. **Türkiyə Dövlət Universitetlərində ödənişsiz təhsil imkanı.** Əlaqə yaradaraq peşəkar mutəxəsislərdən faydalanın. Unutmayın Uğurlu Gələcək Uğurlu Seçimdən Başlayır.

GEMİ haminza uğurlar diləyir

**Ünvan: Xəqani 83\85. Hökümət evinin arxası, Lendmarkın yanı.**

Əlaqə telefonları: (012) 493-60-01 (050) 482-51-51

## «QAYA MƏTBUAT YAYIMI» MMC!

*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*

*«Yeni Musavat» qəzetinə–0,40 man*

*və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.*

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur: mobil: (050)-235-23-41


# Prezident Rəsulzadənin nəvəsini Almaniyaya müalicəyə göndərdi

## Rəsulzadənin ailəsi İlham Əliyevə təşəkkür etdi



**Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə əməliyyat olunmaq üçün Almaniyaya göndərilib.**

Prezident Administrasiyasındakı mənbələrdən APA-ya daxil olan məlumata əsasən, o, dövlət hesabına bu ölkənin məşhur "Şarite" hospitalında əməliyyat ediləcək və müalicə alacaq. Onun ağır xəstəlikdən əziyyət çəkdiyi bildirilir.

R. Rəsulzadənin 2013-cü ilin əvvəlində də Bakıda eyni xəstəlikdən əməliyyat və müalicə olunduğu bildirilir.

Rəis Azər oğlu Rəsulzadə Azərbaycan Rəssamlar İttifaqının üzvü, əməkdar rəssamdır. R.Rəsulzadə həmçinin ictimai fəaliyyətlə məşğuldur və Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının prezidentidir.

**"Müalicəmlə bağlı Azərbaycan prezidenti İlham Əliyevə müraciət etmişdim. Dövlət başçısının göstərişi ilə hərtərəfli müayinə və müalicə olunmaq üçün Almaniyaya göndərilmişəm. Prezidentə bu diqqətinə görə təşəkkür edirəm".**

Bunu APA-ya açıqlamasında hazırda Berlində "Şarite" hospitalında müayinədən keçən Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə söyləyib.

R.Rəsulzadə bildirib ki, hələlik ilk müayinələrinə başlanılıb: **"Müayinələrdən sonra əməliyyat edilib-edilməyəcəyim dəqiqləşəcək".**

Rəsulzadə Araşdırmalar Mərkəzi və Rəsulzadə ailəsi prezident İlham Əliyeva təşəkkürlərini bildiriblər.

**Rəsulzadə Araşdırmalar Mərkəzinin rəhbəri Nəsiman Yaqublu musavat.com-a bunları deyib:**

"Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadənin səhhətində ciddi problemlər yaranmışdı. Bununla bağlı Rəsulzadə irsinin araşdırıcısı kimi ailəsinin adından ölkə başçısı İlham Əliyevə müraciət etdik. Müraciətimizi çatdırmaq üçün baş nazirin müavini Elçin Əfəndiyevlə əlaqə saxladım. O, bu işlə şəxsən maraqlandı. Nəhayət, ölkə prezidenti cənab İlham Əliyevin xüsusi tapşırığı ilə Rəis Rəsulzadə Almaniyaya müalicəyə göndərildi. İlk növbədə, Onkologiya İnstitutunda Cəmil həkimin rəhbərliyi ilə ciddi müayinədən keçdi. Artıq Rəis müəllim Almaniyadadır. O, tanınmış məşhur klinikaların birində müalicə olunacaq. Bizim müraciətimizi nəzərə alıb, diqqət ayırdığına görə ölkə başçısı İlham Əliyevə öz adımdan, Rəsulzadə ailəsi adından təşəkkürümü bildirirəm. Bu işdə Elçin Əfəndiyevin də xüsusi əməyi oldu. O, xəbəri eşidən kimi xüsusi diqqət ayırdı. Elçin müəllimə insanpərvərliyinə, ayırdığı diqqətə görə minnətdarlığımızı bildirirəm. Bundan əlavə, Rəis müəllimin səhhəti ilə bağlı millət vəkili Qənirə Paşayeva da ciddi narahat oldu. Hər an bizimlə əlaqə saxladı. Bununla bağlı Nərgiz Paşayeva məlumat verdi. Nərgiz xanım şəxsən özü Rəis müəllimlə maraqlanmaq üçün zəng etdi. Bizim üçün bu həyatda əsas amillərdən biri Rəsulzadənin yeganə yadigarı olan Rəis müəllimin sağlamlığı idi. Buna görə ölkə prezidenti cənab İlham Əliyevə başda olmaqla, maraqlanan, əməyi keçən hər kəsə təşəkkürümüzü bildirirk".

**Cavanşir ABBASLI**

## Sumqayıtdakı "İŞİD bayrağı" ilə bağlı araşdırma aparılır

**Ötən saylarımızdan birində "Sumqayıtda "İŞİD bayrağı" sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda Sumqayıtda İraq-Şam İslam Dövləti (İŞİD) adlanan qruplaşmanın bayraqları müşahidə edildiyi bildirilirdi. Sumqayıtda kimliyi bəlli olmayan şəxslər avtomobillərin arxa şüşələrinə İŞİD-in bayrağına bənzər yazı olan qara pərdə vurub. "Yeni Müsavat" həmin maşınlardan birinin fotosunu da təqdim edib. Həmin maşın qara rəngli, Az 90 BS 081 nömrə nişanlı "Mercedes"dir.**

Maraqlıdır ki, Azərbaycanda avtomobillərə dini şüarlar vurmaq artıq neçə ildir ki, rəsmən qadağan olunub. Belə olan halda, həm də İraqda və Suriyada qanlı müharibənin davam etdiyi bir zamanda İŞİD-in bayrağının hansı məqsədlə Sumqayıtda qaldırılması ciddi suallar doğurur. Məsələyə münasibət bildirən Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev ANS-ə deyib ki, təmsil etdiyi quruma bu haqda məlumat daxil olmayıb: "Bizə naməlum şəxslərin İŞİD-in bayrağı əks olunmuş pərdələrini avtomobillərə taxaraq Sumqayıt şəhərində gəzməsi ilə bağlı məlumat daxil olmayıb".

**K. Əliyev onu da əlavə edib ki, əslində avtomobilə hansısa əlavə vasitə vurmaq qadağandır. Bundan əlavə, avtomobili diqqəti dağıdan vasitələrlə idarə etmək də qanun pozuntusudur:** "Görüntünü məhdudlaşdıran, eləcə də digər yol iştirakçılarının diqqətini yayındıran vasitələri avtomobilə vurmaq olmaz. Əgər belə hal müəyyən olunarsa, həmin şəxs qanun çərçivəsində cəzalanacaq". K.Əliyev iyulun 10-da "Yeni Müsavat"a verdiyi açıqlamada məsələ ilə bağlı müvafiq araşdırma aparıldığını deyib.

Qeyd edək ki, İŞİD-in bayrağı kimi təqdim olunan qara parçanın üzərində yuxarıda "La ilahə illəllah" ("Allahdan başqa Allah yoxdur") yazısı, ortada isə ağ dairəvi fonda ərəbcə "Allahın rəsulu Məhəmməd" (s.ə.s) (və ya "Muhəmmədən Rəsulallah") yazı əks olunub. Məhz ortadakı yazı İslam Peyğəmbərinin (s.ə.s) möhürü hesab olunur. Bu mənada sözügedən avtomobil sahibi pərdəyə İslam Peyğəmbərinin (s.ə.s) möhürünü vurduğunu da iddia edə bilər. Yeri gəlmişkən, Türkiyədə Harun Yəhya kimi tanınan Adnan Oktar da bu möhürdən istifadə edir. Ancaq hazırda bu möhürün elə də geniş yayılmadığı və əsasən İŞİD-in bayrağı kimi tanındığı bildirilir.

**E.MƏMMƏDƏLİYEV**

## "Düşmən mətbuatına istinad etməyə son qoyaq"

### JEM-dən təklif var

**"Hər gün Azərbaycan mətbuatı erməni mətbuatının bir neçə xəbərinə istinad edir. Unuduruq ki, müharibə hələ bitməyib və paralel olaraq informasiya müharibəsi davam edir".**

Bu fikirləri Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu mərkəzin yaydığı bəyanatında səsləndirib. Bəyanatda deyilir ki, işğaldakı torpaqlarımız da düşmənin yaydığı informasiyanın qurbanı oldu: "Rayonlar boşaldılandan 3 gün sonra düşmən ora girdi. Əvvəlcə dezinformasiya yaydılar ki, bəs ermənilər kəndləri yandıra-yandıra gəlir. Bizimkilər də o dezinformasiyanın tirajlanmsında rol oynadılar. Nəticədə torpaqlarımızı itirdik".

**C.Musaoğlu iyulun 10-da erməni mətbuatına istinadən Azərbaycan saytlarında yayılan bir dezinformasiyaya diqqət çəkir:** "Yazırıq ki, "Aysor.am" agentliyi Azərbaycanın diversiya kəşfiyyat qrupunun Kəlbəcər istiqamətində təmas xəttini keçdiyi haqqda məlumat yayıb. Təsəvvür edin ki, bu xəbər düşmən tərəfinin məhsuludu. Deməli, mütləq hansısa məqsədi var. Ola bilsin Ermənistanın daxilinə hesablanmış məqsəddi. Niyə axı biz Ermənistanın daxilində hansısa qrupların oyunlarında alət olmalıyıq? Yaxud düşmən istəyir ki, bizdən sülh əleyhinə olan dövlət obrazı yaratsın. Giya biz partizan müharibəsinə başlamışıq. Onların snayperləri dinc vətəndaşlarımızı öldürür. Biz bu faktın mötəbər beynəlxalq təşkilatlarda tanınmasına çalışırıq. Budur, məlum olur ki, "biz onları öldürürük", hətta "üzərlərinə gizlicə hücuma keçirik". Üçüncüsü, bu dezinformasiya ilə Azərbaycan Müdafiə Nazirliyinin reaksiyasını öyrənirlər.

Azərbaycan Müdafiə Nazirliyi reaksiya verir. Deyir ki, xəbər kökündən yalandı: "Azərbaycan tərəfinin keçirdiyi hərbi təlimlərdən xeyli qorxuya düşüb. Məhz buna görə onlar bu tip informasiyaları daxili auditoriyaya ünvanlayırlar. Bir daha qeyd edirik ki, yayılan bu məlumat təxribat xarakteri daşıyır". Və bizim Müdafi Nazirliyi daha sonar bəyan edir ki, məlum məlumatı erməni rəsmiləri təkzib edib. Absurda baxın, düşmən öz xəbərini təkzib edir, biz isə onu düzgün informasiya kimi yayırıq".

JEM dəyərli mətbuatımızı Azərbaycan dövlətinin birbaşa əleyhinə olan bu tendensiyaya son qoymağa çağırır. Bəyanatda qeyd olunur ki, düşmən mətbuatına istinad etməyə son qoyulsun. JEM bu istiqmətdə daha dəqiq və qəti addımlar atılması üçün hörmətli KİV rəhbərlərini bir araya gəlməyə dəvət edir və yaxın günlərdə konfrans keçirilməsinin vacibliyini diqqətə çatdırır.



## Ramil Usubovdan yeni təyinatlar

### Nazir bu gün kollegiya iclası keçirəcək

**Bakı şəhərində bir neçə polis bölməsinə yeni rəis təyin olunub. APA-nın məlumatına görə, bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.**

Əmrə əsasən Binəqədi Rayon Polis İdarəsinin (RPİ) 5-ci polis bölməsinin rəis müavini, polis mayoru Turavi Paşayev Qaradağ RPİ-nin 38-ci polis bölməsinə rəis təyin edilib.

Nəqliyyatda Baş Polis İdarəsinin əməkdaşı Vahid Əliyev Nərimanov RPİ-nin 18-ci polis bölməsinə, Yasamal RPİ-nin 29-cu polis bölməsinin rəis müavini Murad Hüseynov isə 26-cı bölməyə rəis təyin edilib.

Bundan başqa, Binəqədi RPİ-nin müvəqqəti saxlanma məntəqəsinin rəisi Faiq Həsənov Sabunçu RPİ-nin cinayət axtarış şöbəsinin rəisi təyin olunub.

Qeyd edək ki, bu gün Daxili İşlər Nazirliyində (DİN) geniş kollegiya iclası keçiriləcək. Respublikanın bütün şəhər və rayonları üzrə idarə və bölmə rəisləri nazirliyə toplaşacaq. Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun sədrliyi ilə keçiriləcək kollegiya iclası 2014-cü ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunub. Kollegiyada həmçinin cinayətkarlığa mübarizə, axtarışda olanların tutulması, tədqiqatda olan cinayət işləri ilə bağlı da müzakirələr aparılacaq.

## AZAL-ın təyyarəsi Bakıda qəzaya uğradı

**Xəbər verdiyimiz kimi, iyulun 10-da səhər saatlarında Bakıda iki nəfərlik kiçik təyyarə qəzaya uğrayıb.**

Hadisə Zabrat və Maştağa qəsəbələri arasındakı ərazidə baş verib. Belə ki, kursantların təlim-məşqi zamanı birmotorlu "Cessna" markalı ikinəfərlik təyyarə qəzaya uğrayıb.

Təlim təyyarəsində bir təlimatçı pilot və bir təcrübəçi pilot olub. Heyət təlimata uyğun olaraq boş torpaq sahəsi seçib və təyyarəni endirib.

Azərbaycan Hava Yolları" QSC (AZAL) Maştağa qəsəbəsin yaxınlığında baş verən təyyarə qəzasının səbəbini açıqlayıb.

AZAL-ın mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli APA-ya bildirib ki, Bakıda "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) "Cessna 172 S" birmühərrikli təyyarəsi təlim uçuşları zamanı məcburi eniş edib.

Onun sözlərinə görə, təyyarədə nasazlıq baş verib və mühərrik sıradan çıxıb: "Təlim təyyarəsində iki nəfər - bir təlimatçı pilot və bir təcrübəçi pilot olub. Heyət təlimata uyğun olaraq boş torpaq sahəsi seçib və təyyarəni endirib. Nəticədə xəsarət alan olmayıb".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

**İmişli Rayon İvra Hakimiyyətinin başçısı Vilyam Hacıyev gunxeber.com saytının baş redaktoru Zabil Müqabiloğlunu həbs etdirmək fikrindən daşınmayıb. İcra başçısı baş redaktoru növbəti dəfə xüsusi ittiham qaydasında məhkəməyə verdirib.**

# Media təşkilatlarından baş redaktora dəstək gəldi

## Media Hüququ İnstitutu və Jurnalistlərin Həmkarlar İttifaqı Vilyam Hacıyevin Zabil Müqabiloğlunu həbs etdirmək israrını pislədilər

Baş redaktorun xüsusi ittiham qaydasında məhkəməyə verilməsində bu il aprelin 17-də sözügedən saytda İmişli təhsilindəki qanunsuzluqlarla bağlı dərc olunan yazı əsas götürülüb. Ona görə də İmişli Rayon Təhsil Şöbəsinin müdiri Ramiz Əmirov başçının tapşırığı ilə baş redaktor barəsində xüsusi ittiham qaydasında iddia qaldırıb. Z.Müqabiloğluna Nərimanov Rayon Məhkəməsindən zəng edərək deyilib ki, hazırlıq iclası iyulun 16-da keçiriləcək.

Bundan əvvəl də İmişli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Süleyman Bəşirov V.Hacıyevin göstərişi ilə Nərimanov Rayon Məhkəməsində Z.Müqabiloğlu barəsində xüsusi ittiham qaydasında iddia qaldırmışdı.

Həmin iddiada əsas kimi götürülən məqalənin Nərimanov rayonuna heç bir aidiyyəti olmadığından, həmçinin Z.Müqabiloğlu bu rayonda yaşamadığından və işləmədiyindən, eləcə də iddia qüsurlu tərtib olunduğundan məhkəmə iddianı icraata götürmədi.

Z.Müqabiloğlu deyir ki, İmişli Rayon Təhsil Şöbəsinin müdirinin redaksiyaya göndərdiyi məktub aprelin 22-də saytda dərc olunub.

Bu halda jurnalistin xüsusi ittiham qaydasında məhkəmə verilməsi absurddur. Ümumiyyətlə, qarşı tərəfin mövqeyi çap edilibsə, onun məhkəmə iddiasına baxılmır. Görünür, icra başçısı sadəcə baş redaktorla haqq-hesab çəkmək, onu təzyiq altında saxlamaq niyyətindədir.

***

**Media Hüququ İnstitutunun eksperti Xalid Ağəliyevin** sözlərinə görə, qarşı tərəfin mövqeyi dərc olunduğu halda məhkəməyə müraciət etmək üçün bir məntiq qalmır. MHİ nümayəndəsi bildirir ki, qarşı tərəf barəsində səslənən ittihamlarla bağlı rəy bildirərkən bunu təkzib edə bilərdi:

"Ancaq cavab haqqı tanındığı halda məhkəməyə üz tutmaq əsaslı görünmür. Xüsusi ittiham qaydasında iddia qaldırmaq isə tamamilə yolverilməzdir. Bizim təcrübəmizdə bir neçə belə məhkəmə presedenti olub. Beynəlxalq təcrübədə də jurnalisti xüsusi ittiham qaydasında məhkəməyə vermək, yazılarına görə həbs etmək olmaz. Ölkə başçısı da çıxışlarında qeyd edib ki, jurnalist yazdığına görə həbs olunmur. O halda ümid edirik ki, məhkəmə bu işin baxılmasını icraata yönəltməkdən imtina edəcək".



Xalid Ağəliyev



Müşfiq Ələsgərli

**Jurnalistlərin Həmkarlar İttifaqının (JuHİ) sədri, Mətbuat Şurasının üzvü Müşfiq Ələsgərli** qeyd etdi ki, jurnalist material hazırlayarkən etik kodeksə əməl etməlidir. Bununla belə, M.Ələsgərli gunxeber.com-dakı sözügedən yazı ilə tanış olmadığını vurğuladı. JuHİ sədrinin sözlərinə görə, məhkəmədə iddia qaldırmazdan əvvəl tərəflər danışıb anlaşmalı, yanlışlıq varsa məqalədə düzəliş edilməlidir:

"Ancaq məhkəməyə üz tutmaq xoş hal deyil. Məhkəmədən qabaq tənzimləyici qurum kimi Mətbuat Şurası var ki, məmurlar müraciət edə bilər. Onların tələbi yerinə yetirilməyəndə məhkəməyə müraciət edə bilərlər.

Prezident də dəfələrlə çıxışında qeyd edib ki, diffamasiya hallarına, anlaşmazlığa, yazıya görə jurnalistlər məhkəməyə verilməməlidir. Məmurlar da bilir ki, qeyri-rəsmi şəkildə bu məsələyə moratorium qoyulub. Jurnalistlərin məhkəməyə verilməsi bəyənilən hadisə deyil. Üstəlik də xüsusi ittiham qaydasında heç düzgün deyil".

**Z.Müqabiloğlu isə bildirib ki, V.Hacıyevin onu ardıcıl olaraq bir ayın içərisində iki dəfə xüsusi ittiham qaydasında məhkəməyə verdirməsinin səbəbini anlamır:** "Aramızda heç bir ədavət olmayıb. Sayt ona və rəhbərlik etdiyi rayonun məmurlarına qarşı hər hansı kampaniya aparmayıb. Sadəcə, müxtəlif zamanlarda İmişlidən gələn müəyyən xəbərləri vermişik və bu, ardıcıl xarakter almayıb. İndi məhkəməyə verildiyim yazı ilə bağlı isə qarşı tərəfin mövqeyi dərc olunub və bu barədə də elə məktubu aldığımız gün Ramiz Əmirova məktubla bildirmişik. Mənə çox maraqlıdır ki, Vilyam Hacıyev niyə bu qədər qəzəblidir. Bəlkə ortada nələrsə var və mən bunu bilmirəm. Hər halda, icra başçısının bu cür israrla mənim həbsimə nail olmaq istəməsinin səbəblərini öyrənməyə çalışacağıq".

❑ **E.SALAMOĞLU**

# İqtidarda kimlər oruc tutur?



**Aydın Mirzəzadə:** "Dini qaydaların bir qisminə riayət etsəm də oruc tutmuram"



**Zahid Oruc:** "Mən özüm elə ömürlük Orucam"

**Hazırda mübarək Ramazan ayını yaşayırıq. Son illər Azərbaycanda oruc tutan, ibadətlə məşğul olanların sayı sürətlə artır. Maraqlıdır, Azərbaycanda nazir, deputat və digər səlahiyyətlilərdən kimlər oruc tutur?**

**Sualımızı cavablandıran YAP-çı millət vəkili Aydın Mirzəzadə oruc tutmadığını bildirdi:** "Dini qaydaların bir qisminə riayət etsəm də oruc tutmuram. Bu günədək heç vaxt oruc tutmamışam".

"Qorxmaz müəllimin oruc tutub-tutmadığını bilmirəm"-deyən, "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr departamentinin rəisi Anar Cəbrayıllı özü barədə bunları söylədi:

"2 ay əvvəl əməliyyat olunduğuma görə oruc tuta bilmirəm. Həyatım boyu təxminən 3-4 dəfə oruc tutmuşam. Namaz qılmasam da araq da içmirəm, siqaret də çəkmirəm".

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli** isə bu sualın şəxsi həyatla bağlı olduğunu düşünüb, nazirlə bağlı cavab vermək istəmədiyini bildirdi. Özünün oruc tutub-tutmamasını xəbər aldıqda isə tutduğunu söylədi.

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov** nazir Mikayıl Cabbarovun oruc tutub-tutmaması barədə danışmaq istəmədiyini dedi.

**Millət vəkili Zahid Oruc isə "Mən ömürlük Orucam"-deyə, soyadının bu sualla yaxınlıq təşkil etdiyini söylədi:** "O vaxt namizədliyim ərəfəsində "Dində mübarək oruc, namizəddə Zahid Oruc" - deyə, şüar tərtib edilmişdi. O vaxt istəyən-istəməyən xeyli insan üstümüzə gəlmişdi. Halbuki bu, sırf piar texnoloqlarının işlədiyi üsul idi. İndi bu sualı verdiniz, o zamanlar yadıma düşdü. Ümumən isə oruc tutanlara dəyər verirəm. Çevrəmdə namaz qılan, oruc tutan adamlar mövcuddur. Mən isə sırf işimlə əlaqədar olaraq oruc tutmuram. Özümü gələcək perspektivdə oruc tutmaqdan da kənar görmürəm. Mənə görə həyatını doğru-dürüst yaşayan insanlar elə oruc tutanlara bərabərdir".

❑ **Fərìdə ABDIYEVA**

# "Dünya kuboku"nun sahibi hansı komanda olacaq?

**Braziliyada keçirilən XX dünya çempionatında finalçılar müəyyənləşib. İyulun 13-də Almaniya və Argentina "Dünya kuboku" uğrunda final matçında qarşı-qarşıya gələcəklər.**

Bəs çempion kim olacaq? Bu sualla ölkənin siyasi, ictimai xadimləri və jurnalistlər arasında qısa sorğu keçirdik.

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov:** "Mən elə düşünürəm ki, bu il "Dünya kuboku"nun sahibi Almaniya millisi olacaq. Buna yetərli səbəblər də var. Qalibin kim olacağını müəyyənləşdirmək üçün builki mundialda Almaniya və Argentina millilərinin keçirdikləri oyunların statistikasına baxmaq kifayət edir. Almaniyanın çox güclü heyəti var. Komanda şəklində oyun sərgiləyirlər. Argentina millisi isə keçirdikləri oyunlarda heç də yaxşı təsir bağışlamayıblar. Yarımfinal oyunları da buna sübutdur. Argentina-Hollandiya matçında əsəbləri daha dözümlü olan komanda qalib gəldi. Mən öncədən də proqnoz vermişdim ki, Argentina-Hollandiya oyunu penaltilərə qədər davam edəcək. Elə də oldu. Sadəcə, Hollandiyanın bəxti gətirmədi".

**Ümid Partiyasının sədri İqbal Ağazadə:** "Kimin qalib gələcəyinə proqnoz vermək çox çətindir. Almaniya millisi sürətli hücum, texnikalı oyun göstərir, Argentina isə daha qapalı və əks-hücum oyunu sərgiləyir. Bütün bunlara görə hesab edirəm ki, hər ikisi qalibiyyətə yaxındır".

**Müsavat Partiyasının Divan üzvü Tural Abbaslı:** "Mən bu çempionat başlayandan Almaniya yığmasına azarkeşlik etmişəm. Və məncə, çempion da Almaniya olacaq. Çünki Almaniya çox nizam-intizamlı komandadır və həmçinin güclü məşqçiyə, kifayət qədər təcrübəli oyunçulara sahibdirlər".

**Azadlıq qəzetinin əməkdaşı Ramin Deko:** "Mən Argentinanın qələbəsini arzulayıram. Bu, sırf Messiyə görədir. Çünki bu oyunçunun bütün titulları var, yalnız "Dünya kuboku"ndan başqa. Almaniya güclü rəqibdir. Ancaq düşünürəm ki, Argentina udacaq".

**İdman jurnalisti Elvin Can Turan:** "Statistika, komandaların sərgilədikləri oyun almanları favorit etsə də, Cənubi Amerika futbolunun sehrbazlığını unutmaq olmaz. Argentina seçməsinin heyətində hər an hər şeyi dəyişə biləcək futbolçular yer alır. Lakin alman maşınının bir baş üstün olduğunu mundial ərzində sərgilənən oyunlarda da gördük. Buna baxmayaraq, Argentinanın qələbəsi mənə daha real görünür".

**Gənc yazar Dilqəm Əhməd:** "Finalda Argentinanı dəstəkləyəcəyəm. Amma düşünürəm ki, final oyunu penaltilərə qalacaq və Almaniya qalib gələcək".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlının cavabı isə çox maraqlı oldu:** "Mənim ümumiyyətlə, futboldan zəhləm gedir. Uşaqlar balaca idilər. Həyat yoldaşım televizorda dünya çempionatının hansısa matçını izləyirdi. Əsəbiləşib dedim ki, "ya mən, ya da futbol". O da dedi ki "futbol". O gündən etibarən futbolu sevmirəm. Kim güclüdürsə, qoy o da qalib gəlsin".

❑ **Məhəmməd TÜRKMƏN**

# Fərhad Qəribov "Debütbank" işindən yayınmaq üçün Türkiyəyə gedib

## Deputat 2 milyon 96 min manat büdcə pulunun yeyilməsi istintaqından qaçır

**Deputat Fərhad Qəribovun bankı vasitəsilə dövlətin 2,96 milyon manatı mənimsənilib. Bu haqda Baş Prokurorluq məlumat yayıb. Qurumun mətbuat xidmətinin yaydığı məlumata görə, "Debüt" Kommersiya Bankı ASC-nin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinə dair İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Araşdırma zamanı fonddan daxil olmuş materialda qeyd edilən xüsusatlar təsdiq olunmaqla büdcə vəsaiti hesabına müvəkkil kredit təşkilatı kimi "Debut" Kommersiya Bankı ASC-yə 2006-2008-ci illərdə ayrılmış 2 milyon 961 min 500 manat güzəştli kreditin bankın vəzifəli şəxsləri tərəfindən qulluq mövqeyindən sui-istifadə etməklə ayrı-ayrı hüquqi və fiziki şəxslərdən saxta biznes planları, hesabat sənədləri qəbul etməklə külli miqdarda güzəştli dövlət kreditinin mənimsənilməsində şübhələr üçün əsaslar olduğundan, faktla bağlı Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 195.2 (külli miqdarda ziyan vurmaqla qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanılıb.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.



Fərhad Qəribov

Xatırladaq ki, 2010-cu il dekabrın 2-də Azərbaycan Mərkəzi Bankı "Debüt" Bank ASC-yə bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyanı ləğv edib. "Yeni Müsavat"a daxil olan məlumata görə, məsələ ilə bağlı F.Qəribov da qeyri-rəsmi olaraq dindirilib. O, baş verənlərdən xəbərsiz olduğunu deyib. İstintaqçıların deputatın dediklərinə inanıb-inanmadığı haqda məlumat yoxdur. Amma bu qədər büdcə pulunun deputatın xəbəri olmadan bankından götürülərək "yeyilməsi" inandırıcı görünmür. Belə məlumatlar var ki, həmin vəsait F.Qəribovun xeyir-duası ilə müştəriyə verilib. Ondan buna görə külli miqdarda "şapka" da alınıb. Bu məsələlər qeyri-rəsmi həyata keçirildiyindən istintaq zamanı rəsmiləşdirilməyib. Məsələ ilə bağlı deputatın özünün də fikirlərini öyrənməyə cəhd etdik. Lakin F.Qəribovun telefonu qapalı olduğundan onunla danışa bilmədik. Deputata yaxın mənbədən öyrəndik ki, F.Qəribov bankında baş verən yeyinti ilə bağlı qeyri-rəsmi sorğu-sual olunandan sonra səhhətində problem yaranıb. Bir neçə gün əvvəl isə müalicə olunmaq üçün Türkiyəyə gedib. Qeyd olunur ki, deputatın səhhətində əvvəldən də problemlər olub və zaman-zaman ağırlaşma halları baş verib. Onun xaricə getməsi əlavə sorğu-sualdan yayınmaq istəyi ilə əlaqələndirilir.

**Mövzu ilə bağlı F.Qəribovu da dinləməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014



# Neft qoxulu diplomatiya

**Azər RƏŞİDOĞLU**

**Ağ Ev ABŞ-ın Azərbaycandakı növbəti mümkün səfirinin adını açıqladı - Robert Cekuta. Düzdür, hələ məsələni tam həll olunmuş hesab etmək də olmaz. Belə ki, R.Cekutanın namizədliyini ABŞ Senatının təsdiqləməsi də lazımdır.**

R.Cekuta hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin böyük müavini işləyir. O, əvvəllər ABŞ-ın Əfqanıstan, Yaponiya və Almaniyadakı səfirliklərində müxtəlif vəzifələrdə çalışıb.

Xatırladaq ki, 2012-ci ilin iyunundan ABŞ-ın Azərbaycandakı səfiri olan Robert Morninqstarın səlahiyyət müddəti artıq başa çatır. Onu bu postunda kimin əvəzləyəcəyindən asılı olmayaraq, ehtimal edə bilərik ki, yaxın illər ərzində növbəti bir neft qoxulu diplomat Vaşinqton-Bakı münasibətlərinə cavabdeh olacaq. Yeni səfir Azərbaycan diplomatiyasının birmənalı şəkildə qərbyönümlü siyasi kurs yeritməsinə çalışacaq.

Çünki artıq Bakıya verilən zaman da bitmək üzrədir.

Azərbaycan hakimiyyəti bu ilin sonuna qədər seçimini etmək zorundadır - Avrasiya İttifaqı, yoxsa Avroatlantik məkana inteqrasiya tərəfdarı olduğunu imzası ilə təsdiq etmək məcburiyyətindədir. Şübhə yox ki, istər Vaşinqton, istərsə də Moskva bu seçimə təsir etmək üçün Azərbaycan hakimiyyətinə təzyiqlərini artırırlar.

Kreml təzyiqlərini gizlətmir və tələblərini açıq səsləndirir - MDB məkanı Rusiyanın qarşısında diz çökməlidir. Vaşinqton isə geosiyasi tələblərinə "demokratiya şəkəri" qatır. Odur ki, çoxları belə bir sual üzərində düşünür - Qərbin rəsmi Bakını küncə sıxan addımlarının arxasında nə durur - demokratiya tələbləri, geosiyasət, yoxsa neft maraqları?

Proseslərin təhlili onu deməyə əsas verir ki, Qərb üçün enerjidaşıyıcıları və təhlükəsizlik məsələləri prioritet təşkil edir. Bunlardan sonra insan haqları və demokratiya gəlir. Müşahidələr göstərir ki, Azərbaycanda demokratiyanın boğulmasının başlıca səbəbi böyük enerji layihələrinin ölkə üçün yaratdığı geosiyasi manevr imkanlarıdır. Qərb dövlətlərinin təzyiqini hiss edən Azərbaycan iqtidarı bunu İran və Rusiyanın təsiri ilə tarazlaşdıra bilir.

Üstəlik, Qərb dövlətlərinin özlərinin də Azərbaycana marağında enerji məsələləri xüsusi önəm kəsb edir və onlar bunu gizlətmirlər.

Təbii ki, hakimiyyətin inzibati resurslarını, xüsusən də güc strukturları xalq etirazlarını yatırmağa kifayət edir. Neft gəlirləri artdıqca güc strukturlarının büdcə vəsaitləri çoxalır, bu da onların hakimiyyətə qarşı sədaqətini artırır.

Neft ölkələrinin tarixi göstərir ki, neft gəlirləri bir qayda olaraq mərkəzləşdirilmiş idarəetmə sisteminin daha da sərtləşməsinə gətirib çıxarır.

Neft və demokratik təsisatlar tərs mütənasib olaraq qalırlar. Siyasi təhlilçilərin sözlərinə görə, neftdən asılılıqla avtoritarizmin güclənməsi arasında birbaşa əlaqə mövcuddur.

Bu özünü Yaxın Şərq və Şimali Afrika ölkələrinin timsalında daha bariz nümayiş etdirir ki, onların sırasına Azərbaycanı da aid etmək olar.

Bu gün Qərb geosiyasət, enerjidaşıyıcıları maraqları, anti Rusiya koalisiyasında yer almaq kimi məsələlər barədə Bakı ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirir, bölgədə sabitliyin qorunub saxlanılmasını arzu edir, demokratiya ilə bağlı tələblərini isə birmənalı şəkildə dondurur.

Lakin Qərb üçün Rusiya ilə savaşda rəsmi Bakı gözəl tərəfdaşdır. Elə buna görə də Vaşinqton avtoritar rejimlərin müttəfiqi simasında çıxış edir. Rusiya siyasi elitası özü də anlayır ki, gələcək perspektiv Avropa ilə əməkdaşlıqla bağlıdır.

Məhz buna görə də Rusiya siyasi elitası pullarını Avropa banklarında saxlayır. Rusiya siyasi hakimiyyətinin ən yüksək pilləsində təmsil olunan simaların övladları Avropada təhsil alır, orada biznes fəaliyyəti ilə məşğul olur. Biznes maraqları, təhsilin və səhiyyənin səviyyəsinə, insan kimi yaşamağa görə də Avropa daha təhlükəsizdir.

Bir tərəfdən burada enerji amilinin şübhəsiz rolu var. Hakimiyyət və Qərb bunu gizlətmir.

Qərb üçün dəyərlər və maraqlar mövcuddur. Qərb demokratik dəyərlərin təminatı məsələsini nəzərdə tutanda bunu ilk növbədə öz vətəndaşlarına şamil edir. Azərbaycanda bu dəyərlərin tətbiqi məsələsinə gələndə isə burada maraqlar tərəfi daha üstün gəlir.

Amma eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfi demokratik dəyərlərdən özü imtina edir. Azərbaycandan bir çox layihələrdə tranzit ölkə kimi istifadə olunur. Bu da hakimiyyətə müəyyən dividentlər verməmiş deyil. Lakin uzun müddət demokratiyanı ayaqlamaq mümkün olmayacaq. Yəqin ki, ABŞ-ın yeni səfiri bu istiqamətdə əməli addımlar atmalı olacaq...

# "2 milyonluq inqilab" söhbəti yenidən qızışdı

**ABŞ-ın Milli Demokratiya İnstitutunun Bakı ofisinin keçmiş rəhbəri Aleks Qriqoryevsə qarşı 1 ildən artıqdır ki, səsləndirilən ittihamlar səngimək bilmir. İttihamlarda göstərilir ki, 2013-cü ildə Bakıda keçirilən etiraz aksiyaları birbaşa bu qurumun dəstəyi ilə reallaşdırılıb. Hətta ötən il martın 10-da əsgər ölümləri ilə bağlı keçirilən aksiyanın Aleks Qriqoryevs tərəfindən təşkil olunduğu iddia edilir.**

## Eynulla Fətullayev ABŞ Milli Demokratiya İnstitutunun rəhbərinin dediklərinə cavab verdi: "Aleks Qriqoryevsin arxasında böyük qüvvələr dayanır, o qüvvələr Azərbaycanı qarışdırmaqda maraqlıdırlar"



Eynulla Fətullayev



Aleks Qriqoryevs

Azərbaycan hakimiyyəti ilə yanaşı hüquq müdafiəçisi Eynulla Fətullayev Milli Demokratiya İnstitutuna qarşı səsləndirilən ittihamlarda daha aktiv iştirak edir. O iddia edir ki, bu qurum Azərbaycanda sosial şəbəkələr vasitəsilə mitinqləri reallaşdırmaq üçün 2 milyon dollara yaxın vəsait xərcləyib. Onun sözlərinə görə, Milli Demokratiya İnstitutunun Azərbaycan nümayəndəliyinin rəhbəri olan Aleks Qriqoryevs Gürcüstan, Ukrayna və Moldovada hakimiyyət dəyişikliyi dövründə bu ölkələrdə işləyib.

**İki gün öncə "Turan"a müsahibəsində Aleks Qriqoryevs barəsinə səsləndirilən ittihamların reallığı əks etdirmədiyini bildirib. O, əsas gündəmdə olan 2 milyon dollar vəsait xərclənməsi məsələsi ilə bağlı bunları deyib:** "Bu pulların nəyə xərcləndiyini yoxlamaq da asandır. Bakının mərkəzində ofisin saxlanması, əməkdaşların qonorarları, təlim tədbirlərinin - seminarların və konfransların keçirilməsi. Seminarlar zamanı MDİ təkcə zalın kirayə haqqını deyil, iştirakçıların bütün xərclərini - yol pulu, qidalanma və yaşayış xərclərini də ödəyirdi. Bakı ucuz şəhər deyil. Bir seminar hoteldən asılı olaraq, iyirmi min dollara qədər başa gələ bilərdi".

**Haqqın.az və virtualaz.org saytlarının rəhbəri, hüquq müdafiəçisi Eynulla Fətullayev "Yeni Müsavat"a açıqlamasında Aleks Qriqoryevsin qeyri-səmimi olduğunu bildirib:** "Mən o müsahibəni oxumuşam. Belə qənaətə gəlmişəm ki, Aleks Qriqoryevs qeyri-səmimidir. Onun fikirləri inandırıcı görünmür. O bildirir ki, Azərbaycan cəmiyyəti inqilaba hamilədir. Əslində bildirmək istəyir ki, hakimiyyət müxalifət və vətəndaş cəmiyyəti ilə dialoqa getməsə, ölkədə inqilab baş verəcək. Özü də etiraf edir ki, ABŞ-ın Milli Demokratiya İnstitutunun məqsədi Azərbaycanda güclü, Qərbin maliyyə dəstəyini alan vətəndaş cəmiyyəti formalaşdırmaqdır. Digər tərəfdən, o, gənc siyasi fəalları, facebookdakı aktiv gəncləri maliyyələşdirdiklərini etiraf edib. Aleks Qriqoryevs bir məsələdə haqlıdır. O bildirir ki, əslində bu məsələlərdə mən kiməm? Əlbəttə, Aleks Qriqoryevs hüquqi icraçı idi. Bu institutun arxasında daha böyük qüvvələr var. Həmin qüvvələr də ona tapşırıqlar vermişdi. Aleks də tapşırıqlara uyğun hərəkət edirdi. Bu insan Ukrayna, Gürcüstan və Moldovada "məxməri inqilablar"ın hazırlanmasında birbaşa iştirak edib. Bunu özü də etiraf edib".

**"ABŞ-ın Milli Demokratiya İnstitutunun arxasında böyük qüvvələr durur dedikdə, hansı qüvvələri nəzərdə tutursunuz" sualına E.Fətullayev belə cavab verdi:** "Aleks Qriqoryevs özü etiraf edir ki, balaca adamdır və bu prosesləri həyata keçirəcək gücə malik deyil. Bu fikirlər tamamilə doğrudur. Bu qurumun arxasında xüsusi xidmət orqanları var. Eyni zamanda ABŞ-ın siyasi iradəsi var. Aleks Qriqoryevs də həmin qüvvələri təmsil edir. Biz bunun haqqında yazmışıq. Yazdıqlarımız təkcə Azərbaycanda deyil, digər ölkələrdə də öz əksini tapdı".

**Jurnalist Azərbaycanda sosial şəbəkələr vasitəsilə mitinqləri reallaşdırmaq üçün 2 milyon vəsait xərclənməsi ilə bağlı səsləndirdiyi fikirlərin bir daha doğru olduğunu bildirdi:** "Aleks Qriqoryevsin özü etiraf edirdi ki, mənim şəxsi hesabımdan 2 milyon dollar paylanıb. Bu adam bunu inkar etmir, əksinə, təsdiq edir. O bildirir ki, şəxsi hesabımdan 2 milyon dollar vətəndaş cəmiyyətinə, NİDA vətəndaş hərəkatına və digər fəallara maliyyə dəstəyi edilib".

❑ **Cavanşir ABBASLI**

# Daha bir NİDA-çı əfv ərizəsi yazdı

## Turqut Qəmbər: "Hakimiyyətin məqsədi gəncliyin gözünü qorxutmaqdır"
## İbrahim Novruzov: "İnanın ki, indi məndən tonlarla tər axır..."

**NİDA Vətəndaş Hərəkatının daha bir üzvü əfv müraciəti ilə Azərbaycan prezidenti İlham Əliyevə müraciət edib. Musavat.com-un Penitensiar Xidmətin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, bu, hazırda Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında saxlanılan NİDA Vətəndaş Hərəkatının üzvü Şahin Novruzludur.**



**Şahin Novruzlu: "Şəxsim adına söz verirəm ki, həyatımı dövlətimizin layiqli vətəndaşı kimi yaşayacağam"**

Ş.Novruzlu əfv müraciətində törətdiyi əməldən peşmançılığını ifadə edib: "Möhtərəm cənab Prezident, mən Novruzlu Şahin İbrahim oğlu 1995-ci il 16 sentyabr tarixində anadan olmuşam. Orta məktəbi əla qiymətlərlə bitirmiş və Odlar Yurdu Universitetinin maliyyə-kredit fakültəsində davam etmişəm. Ötən bir il ərzində keçdiyim qısa gənc həyatıma nəzər salmağa imkanlarım çox olmuşdur. Düşünürəm ki, məhkum olmağım həyatımda ən böyük səhvdir. Mən bu səhvi düzəltmək üçün yenidən bir şans verməyi sizdən xahiş edir, daim göstərdiyiniz insanpərvərlik və humanizm prinsiplərinə söykənərək məni əfv etməniz rica edirəm.

Qeyd etmək istəyirəm ki, indiyə qədər heç bir siyasi təşkilatın üzvü olmamışam və bundan sonra heç bir siyasi təşkilatın üzvü olmayacağam.

Möhtərəm cənab Prezident, şəxsim adına söz verirəm ki, həyatımı dövlətimizin layiqli vətəndaşı kimi yaşayacağam".

**Ş.Novruzlunun atası İbrahim Novruzov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu ərizənin mətnindən mətbuat vasitəsilə xəbər tutub:** "İnanın ki, hazırda məndən tonlarla tər axır, tər içindəyəm. Heç bilmirəm sizin hansı sözünüzə necə cavab verim. Bu 1 il 5 ayın hər günündə mən stress içində olmuşam. Tutulduğu gündən stressdəyəm. Bu hadisə də həmin stresslərin ən ağırıdır".

**İ.Novruzov dedi ki, oğlu ona daha öncə əfv ərizəsi yazdırılması ilə bağlı təkliflər edildiyini bildirmişdi:** "Belə başa düşürəm ki, sonradan da qol çəkdiriblər. Şahin uşaqdır. Həbsdə olduğu müddətdə 2-3 nəfər dustaqdan başqa kimi görüb axı? Mənim oğlumun günahı yoxdur. Bunu məhkəməyə gələnlərin hamısı da gördü. Hələ 18 yaşı tamam olmamış bir uşağı günahsız olduğu halda saldılar içəri, onun gəncliyindən yox, uşaqlıq illərindən gedir bu günlər. Nə deyim, özüm də bilmirəm".

**NİDA Vətəndaş Hərəkatı İdarə Heyətinin üzvü Turqut Qəmbər bildirdi ki, Ş.Novruzluya əfv ərizəsini necə yazdırmaları ilə bağlı detallı məlumatları yoxdur. Onun sözlərinə görə, bütün proseslər qapalı rejimdə olan həbsxanada baş verdiyi üçün məlumatlar da qırıq-qırıq daxil olub. Bununla belə, müsahibimiz həbsdəki NİDA üzvlərini hədəf alan bu "əfv yazdırma kampaniyası"nın gülünc olduğunu bildirdi:** "Hakimiyyət həbsdəki NİDA-çılara psixoloji təzyiq edir. Məqsəd isə ümumən gəncliyin gözünü qorxutmaqdır. Bundan sonra daha hansısa bir NİDA üzvünə əfv ərizəsi yazdıra bilərlərmi? Bunu proqnozlaşdırmaq çox çətindir. Biz çalışırıq ki, daim həbsdəki üzvlərimizlə maraqlanaq, ünsiyyət saxlayaq. Sabah (bu gün) saat 3-də də məhkəmələri olacaq. Orda da iştirak edib, bu barədə onlarla danışacağıq".

**T.Qəmbər dedi ki, təşkilatın bu cür əfv ərizələrinin yazılmasına münasibəti birmənalıdır. Müsahibimiz 18 yaşlı gəncin üstünə düşüb, ona dörd divar arasında psixoloji təzyiq göstərərək, əfv ərizəsi yazdırmağa məcbur edən hakimiyyəti qınadıqlarını dedi:** "Hakimiyyətin bu məsələdə səfərbər olması olduqca gülünc hərəkətdir və ikrah doğurur. Bir məqamı da qeyd edim ki, Şahinin ərizəsi ilə Bəxtiyar Quliyevin ərizəsi bir-birindən fərqlidir. Bəxtiyar yazırdı ki, cinayət etmişəm, günahımı boynuma alıb əfv diləyirəm. O, olmayan bir cinayəti boynuna alır, digərlərini də olmayan bir cinayətə ortaq etməyə çalışırdı. Şahinin ərizəsində isə belə məqamlar yoxdur".

Xatırladaq ki, NİDA-nın 7 üzvü həbs edilib. Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində onlar barədə Cinayət Məcəlləsinin 234.1 (qanunsuz olaraq narkotik vasitələri əldə etmə, saxlama və ya satma) və 228.1-ci (qanunsuz olaraq silah, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb. İstintaq dövründə onlara qarşı CM-in 220.1 (zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə) maddəsi ilə əlavə ittiham elan olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Zaur Qurbanlı 8, İlkin Rüstəmzadə 8, Rəşadət Axundov 8, Rəşad Həsənov 7 il 6 ay, Bəxtiyar Quliyev 7, Məmməd Əzizov 7 il 6 ay, Üzeyir Məmmədli 7 il, Şahin Novruzlu 6 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, indiyə qədər NİDA-nın daha iki üzvü-Bəxtiyar Quliyev və Elsevər Mürsəliyev prezident İlham Əliyevə müraciət ediblər.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014

# Baş prokurorun əmisindən "Yeni Müsavat"a ilginc açıqlamalar

## Zahid Qaralov: "Məni müxalifətdən təbrik edən olmadı"

## 91-lərin məşhur üzvündən Rusiyaya ünvanlı ritorik sual: "Dostuqsa, Qarabağın açarını əlində niyə saxlayıbsan?!"

**10 iyulda məşhur 91-lərdən biri, YAP-ın Səbayel rayon təşkilatının sədri Zahid Qaralovun 80 yaşı tamam oldu. Hakim partiyanın Siyasi Şurasının və İdarə Heyətinin üzvü olan Z.Qaralov 1995-2005-ci illərdə Milli Məclisin deputatı kimi də fəaliyyət göstərib. Baş prokuror Zakir Qaralovun əmisi, qocaman YAP-çı ilə söhbətimiz yubiley mövzusundan başlasa da, ölkənin vacib problemlərini də əhatə etdi.**

*Təqdirolunan bu idi ki, Z.Qaralov da ölkədə dialoq atmosferinin mövcudluğunda maraqlı olduğunu dönə-dönə vurğuladı.*

***- Zahid müəllim, yubileyinizlə bağlı keçirilən tədbirdən razı qaldınız, yoxsa hələ davamı olacaq?***

- Yubiley tədbiri partiyamızın rəhbərliyinin göstərişi ilə keçirildi. Mən çox dərin təşəkkür edirəm. Yubiley tədbirini mətbuat da geniş işıqlandırdı.

***- Arzuladığınız mükafatları alıbsınız, yoxsa...***

- Prezidentin 9 iyulda imzaladığı sərəncam belədir: "Azərbaycanda pedaqogika elminin inkişafında xidmətlərinə və səmərəli fəaliyyətinə görə Zahid İbrahim oğlu Qaralov "Şərəf" ordeni ilə təltif olunsun". Mən prezidentə dərin təşəkkürümü bildirmişəm. Həmçinin bu mükafatla bağlı mənə zəng edən hər kəsə bir daha təşəkkür edirəm. Sualınıza gəldikdə, məndə sovet dövründən iki orden var idi. Həmçinin "Şöhrət" ordeni var idi və "Şərəf" ordeni də verildi. Bundan yuxarı da iki orden var: "İstiqlal" Ordeni və "Heydər Əliyev Ordeni".

***- Məşhur "91-lər"dən biri kimi, "Heydər Əliyev Ordeni" almağı arzu edirsiniz?***

- Sizə bir şey deyim. Mən bu günə qədər fəaliyyətimi necə davam etdirmişəmsə, bundan da sonra inşallah, o cür davam etdirəcəyəm. Buna mənim yüz faiz şəraitim var, sağlamlığım yerindədir. O ki qaldı bu zəhmətə görə gələcəkdə hansı orden, medala layiq görüləcəyəm, bu, dövlət başçısının təşəbbüsü, səlahiyyətidir.

***- Ağsaqqal YAP-çılardan biri kimi partiyalararası münasibətləri necə dəyərləndirirsiniz?***

- Müsavatda da çox ağıllı insanlar var, çoxunu tanıyıram. Müsavatdan bizim partiyaya keçənlər də var, onlara da dərin hörmətim var. Ümumən mən partiyalararası dəyişikliklərə heç vaxt pis baxmamışam.

***- Yəni siz transferlərə xəyanət kimi baxmırsınız?***

- Əlbəttə. Buna adi baxmaq lazımdır. Bizdə Müsavatda formalaşmış çox dəyərli alimlər var ki, bu saat fəaliyyətdədir, Milli Məclisdədir, mənim onların hamısına çox böyük, dərin hörmətim var. Bunu heç kəs dana bilməz. Bizdən də gedənlər olub, bəzən yazırlar. O mənada hamımız bir məqsədin həyata keçirilməsinə çalışmalıyıq: Azərbaycanda müstəqilliyin qorunması, ərazi bütövlüyümüzün, xalqın firavanlığının təmin olunması istiqamətində hərə öz gücü daxilində işləməlidir. Mən bunu arzulayıram, bunu istəyirəm.

***- Müxtəlif regionlarda baş verən hadisələrin Azərbaycanda da baş verə biləcəyi barədə xəbərdarlıqlar getdikcə çoxalır. Siz necə, vəziyyətdən narahatsınızmı?***

- Hər ölkənin fəxr edəcəyi müstəqilliyini qoruyacağı

**"Bu saat ölkənin müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması naminə hər şey bir kənara qoyulmalıdır"**

proqramları var, həyata keçirirlər. Azərbaycan da onlardan biridir, bu işlər çox yüksək səviyyədə gedir. Azərbaycan bütün sahələrdə özünün təhlükəsizliyini təmin edir, beynəlxalq müstəvidə layiqli yerini yüksək səviyyədə tutub. Dünya ölkələrinin 160-a qədəri Azərbaycanın indiki siyasətini, inkişaf səviyyəsini yüksək qiymətləndirir, bəyənir. Fikir verin, 23-cü ildir ki, bizim müstəqillik Kiyevdəki kimi dayanıqsız deyil. Çoxları yazır, deyir, arzu edir. Prezidentimiz İlham Əliyev deyir ki, bizi 5 dövlət əhatə edir, bunların 4-ü bizim dostumuz, 1-i düşmənimizdir. Ermənistan və onu müdafiə edən bəzi dövlətlər bizim əleyhimizə nə qədər işləsələr də, bunun faydası yoxdur. Azərbaycanda inkişaf dönməzdir, müstəqilliyimiz pozulmazdır. Mənim də, inandığım çoxlu sayda insanların da əqidəsi belədir.

***- Rusiyanın planlarından çox danışılır. Azərbaycana Şimal təhlükəsi nə dərəcədə ciddidir?***

- O ölkə həmişə tarixən təhlükəli olub. İndi də o ənənə davam edir, buna söz ola bilməz. Amma indiki şəraitdə onlar Azərbaycana diş batıra, bizə təcavüz edə bilməzlər. Bütün dünya Ukraynanın ərazi bütövlüyünü tanıyır, o cümlədən mən. Heç kəs ora müdaxilə etməməlidir. Amma edirlər. Vaxtilə Azərbaycana təcavüz olub da, Qarabağ, 20 faiz torpaq işğal olunub. Bu ərazi necə işğal olunub, hamıya bəllidir.

***- Baş nazirin sabiq birinci müavini Abbas Abbasov isə Putinin Ukrayna siyasətini müdafiə edib və SSRİ ilə bağlı nostalji fikirlərini açıqlayıb. Siz onun dediyini necə qarşıladınız?***

- Mən Abbas müəllimlə yaxın adam olmamışam. İndi hər nə deyir, onu da oxumamışam. Amma əlbəttə, o ölkəyə xüsusi rəğbət bəsləyən də var. Dünən yubiley tədbirindən sonra Moskvadan, Sankt-Peterburqdan mənə ən azı 10 akademik, keçmiş dostlarım təbrik teleqramları göndəriblər.

Yəni mənim həmişə elmi əlaqələrim olub, çox alimlərlə şərikli tədqiqat aparmışam, kitablar buraxmışam. Bu gün də mən onlara dərin hörmət bəsləyirəm. Mən heç vaxt SSRİ-nin təəssübkeşi olmamışam. SSRİ dağılmalı idi. Mənim Rusiya ilə elmi, insani əlaqələrim bu gün də qalır. Amma mən bəzən kəskin yazıram ki, vaxtilə deyirdilər, indi də üstündə durublar ki, Qarabağın açarı Rusiyanın əlindədir. Onu bu gün də deyirlər. İndi mən sual edirəm: dostuqsa, Qarabağın açarını əlində niyə saxlamısan?! Bununla ermənilərin öz evini yıxırsan. Gürcüstanda da ermənilər yaşayır, deyirlər Qarabağdakı və İrəvandakı qohumları pis gündədir. Bu məsələlər qurtarmalıdır, torpaqların işğalına son verilməli, ərazi bütövlüyü bərpa olunmalıdır. Görürsünüzmü Ukrayna məcbur oldu, müharibə yolunu seçdi, başqa çarəsi yox idi. Mən Ukraynanın müstəqilliyinin yüzdə-yüz tərəfdarıyam.

***- Bəs Azərbaycan necə, indiki situasiyada hərb qərarı verməlidirmi?***

- Heç vaxt! (İki dəfə təkrarlayır-E.P.) Bu saat müharibəyə getmək olmaz! Artıq Dağlıq Qarabağ, Dnestryanı, Gürcüstandakı respublikalar dünya probleminə çevrilib. Ermənistan Rusiya ilə hərbi ittifaqdadır, dəfələrlə də deyirlər. Deyirlər dəlidən doğru xəbər. Özünü dəliliyə vuran və son dərəcə qorxulu adam olan Jirinovski açıq deyir ki, ora bizimdir. Mən onun payını göndərmişəm. Təəssüf ki, bizim müxalifət qəzetləri onu rüsvay



**"Müsavatda da çox ağıllı insanlar var, çoxunu tanıyıram"**

eləyəcək fikir söyləməyiblər hələ. Ona görə də deyirəm ki, bu gün məsələnin həlli beynəlxalq səviyyədə gözlənildiyi halda biz müharibəyə əl atsaq, ziyanımıza olar. Prezidentimiz də deyib ki, biz istəyirik dinc yolla həll olunsun, işğalçılar rədd olub getsin, müdafiəçiləri çəkilsinlər. Əks təqdirdə, həqiqətən də güclü ordumuz var. Bizdə olan silah Qafqazda heç bir dövlətdə yoxdur. Bu mənada dərəbəylik deyil ki, gəlib Azərbaycanda bir müharibə qaldırsınlar.

***- Yəqin ki, yubiley hədiyyələri içərisində Zakir müəllimin (baş prokuror-E.P.) də öz hədiyyəsi oldu...***

- Böyük bir gül dəstəsi göndərdi. Vəssalam. Bax, elə bu dəqiqə oturduğum kabinetdə gözümün qarşısındadır. Başqa nə hədiyyə olmalıydı? Bizdə maddi hədiyyələr yoxdur. Çoxlu güllər almışam, lap çoxlu...

***- Yeri gəlmişkən, Borçalıya, Başkeçidin Ormeşən kəndinə gedib-gəlirsinizmi?***

- Mən iyulun 16-da məzuniyyətə çıxacağam. Elə həmin gün də qatarla gedəcəyəm. Nadir hallarda maşınla gedib-gəlirəm, ancaq qatarla gedirəm. Bütün məzuniyyətimi, ən azı 2 ayımı orda keçirəcəyəm. Gözəl bir kənddə, ata yurdumda gözəl bir ev tikdirmişəm, vaxtilə uçurub-dağıtmışdılar. Buzbulaq evin içinə axır, meşəlik, gözəllik.

***- Bəs müxalifət düşərgəsindən necə, təbrik aldınızmı?***

- Xeyr, məni müxalifətdən təbrik edən olmadı. Mənim də düşündüyüm budur ki, niyə olmasın? Təbrik etmirlər, heç olmasa pisliyə danışmasınlar.

***- Reallıq budur ki, belə təbrikləşmə ənənəsi yoxdur bizdə. Məsələn, Müsavat Partiyasının 100 illik yubileyi oldu. Ancaq bildiyimizə görə YAP-dan hansısa təbrik olmadı...***

- Mən bunu izləməmişəm.

***- Məsələn, Türkiyədəki kimi bu ənənəni yaratmaq mümkün deyilmi?***

- Gəlin faiz hesabına keçək. Müsavat ölkənin neçə faizini təşkil edir?

***- YAP deyir 630 min üzvü var...***

- Təkcə bizim rayonda 24 min üzvü var. Mən rayonda axtarmışam, Müsavat Partiyasının bir yerdə özəyi yoxdur. Eləcə də o biri özünü ciddi, radikal müxalifət sayanların...Həmişə dəvət edirəm ki, gəlin birlikdə tədbir keçirək. Deyirlər yoxdur.

***- Zahid müəllim, qərargahları əllərindən alınıbsa, özək, ya təşkilatları hardan tapmaq olar? Hətta qurultay keçirmək istəyən partiyaya bir yer ayrılmırsa...***

- Üzr istəyirəm, gəlin tarixə keçməyək. Biz partiyanı yaradanda niyə həmin Müsavatın özü, başqası qoymadı 300-500 adam öz pulumuzla bir yerə yığışaq? Mən Naxçıvana qışın ortasında niyə uçub gedirdim, səbəbi nə idi? Bunları da yada salmaq lazımdır.

***- Qarşı tərəfin də ötənlərlə bağlı öz arqumentləri var. Amma bəlkə önü düşünüb fərqli münasibətlər sistemini formalaşdırmaq lazımdır, nəinki keçmişi təftiş etmək, elə deyilmi?***

- Mən onu dəfələrlə demişəm, yazmışam. Heydər Əliyevin elmi irsi ilə əlaqədar keçən il iki cildlik kitab buraxmışam. 1000 nüsxə, yüksək səviyyədə-kitablarımı da satışa buraxmıram. Orda çox ciddi təkliflər vermişəm. Yubileylə bağlı təzə çap olunan kitabda da eynilə yazmışam. Bu saat ölkənin müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması naminə hər şey bir kənara qoyulmalıdır. Qurtardı, getdi. Biz hakimiyyət uğrunda mübarizə aparmadıq ki, heç vaxt. Xalqa müxalif olmadıq ki. Nə pislik etdik? Dağılmış dövlətin yerində nizamlı bir dövlət yarandı. Bunu etiraf etmək lazımdır. Niyə xaricilər etiraf edir, bizim 2-3 adamımız etiraf etməyi bacarmır. Münasibətlər yaxşılaşmalıdır. Ömür boyu mənim ağzımdan xalqın əleyhinə olan bir kəlmə çıxmayıb. Mən heç vaxt heç bir partiyanı, onun rəhbərini təhqir etməmişəm. Amma bəzən elə yazırlar ki, guya kimisə təhqir etmişəm. Belə şey olmayıb. O mənada sizin fikrinizlə tamamilə şərikəm ki, qarşılıqlı şəxsi münasibətlər dərinləşməlidir. Xalqımızın naminə, Azərbaycanın çiçəklənməsi naminə.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014



# Yadellilərin dəstəkçiləri

Xalid KAZIMLI

**Suyundandır, duzundandır, bilinmir, amma bu ölkədə dünyanın dörd bir yanında olan dövlət və ittifaqların, hərəkatların, cərəyanların, təşkilatların, qrupların ciddi-ciddi tərəfdarları var.**

Söhbət idmandan, musiqidən getsəydi, anlamaq olardı, deyərdik, zövq məsələsidir, məsələn, Argentina yığmasının, konkret olaraq Messinin oynadığı futbol insanlara xoş gəlir, ona görə də onu uzaqdan-uzağa azarkeşlik edirlər. Eləcə də bu münasibəti musiqi qruplarına, ayrı-ayrı məşhur musiqiçilərə şamil etmək olar.

Fəqət sərhədlərimizdən çox-çox uzaqlarda fəaliyyət göstərən ekstremist birliklərin, terror qruplaşmalarının, ayrı-ayrı dövlətlərin ölkəmizdə yaşayan insanlar tərəfindən kütləvi şəkildə, həm də qızğınlıqla dəstəklənməsi idman azarkeşliyinə, musiqi fanatlığına bənzəməz.

Bunlar heç də səbəbsiz deyil, burada zövq məsələsi rol oynamır, əksinə, bu işdə bir şövq və sövq məsələsi var.

Əgər bir azərbaycanlı okeanın o tayındakı üç qonşu dövlətdən *(Kanada, ABŞ və Meksika)* birini - ABŞ-ı qızğın şəkildə dəstəkləyirsə, bu işdə bir xətt var.

Əlbəttə, bu adi rəğbət də ola bilər. Tutaq ki, adam Amerikaya gedib, gəzib, görüb, bu dövlətin ab-havasından, siyasi quruluşundan, təbiətindən, cəmiyyətindən xoşu gəlib, ona görə də söhbət düşəndə ABŞ-ı tərifləyir. Ancaq bu tərifləmə, öymə, təbliğetmə aşırı xarakter alırsa, adam hər fürsətdə sinəsini qabağa verib ABŞ-ın dostuyla dost, düşməniylə düşmən olursa, bu, artıq adi rəğbətbəsləmə orbitindən çıxma deməkdir. Belə çıxır ki, adam özünü bu dövlətin vətəndaşı, onun icra strukturlarının işçisi sayır.

Deyək ki, ABŞ-ın bir sıra öyməli cəhətləri var *(məsələn, daxili demokratiyası, qanunçuluğa riayəti, insanların dürüstlüyü və s.)* və ona rəğbət bəsləmək mümkündür, bəs Rusiya kimi mürtəce bir ölkəni, qonşularına daima aqressiv münasibət bəsləyən, öz daxilində demokratiya və insan haqlarını boğan, ildə bir neçə dəfə sırf faşizm ovqatına köklənən dövləti necə dəstəkləmək olar?

Normalda belə olmamalıdır. Hər bir ədalətli insan bu ölkədə və onun ətrafında baş verən hadisələri düzgün qiymətləndirib adekvat reaksiya verməlidir. Ancaq tam əksini görürük. Rusiya irticaçı davranışlarını gücləndirdikcə ölkəmizin daxilindəki ruspərəstlər də fəallaşır, ötkəmləşir.

Demək ki, məsələ sadəcə gendən-genə rəğbət məsələsi deyil, ümidini, arzularını Rusiyaya bağlayanlar, ondan mədəd umanlar var.

Cənub qonşumuz İrana münasibətdə də eyni düşüncədə, hərəkətdə olanlar çoxdur. Onların tam əksəriyyəti İranı niyə dəstəklədiklərini, nəyə görə öydüklərini yaxşı bilirlər. Burada tarixi qardaşlığın, ucuz səhiyyə xidmətinin rolu azdır. Məsələ mədəd ummaq məsələsidir.

Hazırda başqa dövlətlərə, təşkilatlara ümid, rəğbət bəsləyənlərin hamısı yalan olub, İraq-Şam İslam Dövləti adlanan terrorçu-ektremist qüvvələrə rəğbət bəsləyənlər gerçək. Onların əlindən artıq İŞİD barədə informasiya yazmaq, məlumat yaymaq mümkün deyil. Mütləq söhbətə müdaxilə edir, etiraz bildirir, İŞİD-i dəstəkləyən şərhlər yazır, hədələyir, söyürlər.

Sanki İŞİD Azərbaycanın hüdudlarında fəaliyyət göstərən siyasi partiyadır və onun minlərlə azərbaycanlı üzvü var, bu partiyaya qarşı bir söz demək insanların heysiyyatıyla oynamaq, haqlarını tapdamaqdır.

Adamlar özlərinə vəzifə düzəldiblər - İŞİD-in təbliğatçısı və sözçüsü olublar. Hər gün bu işlə məşğuldurlar, saytları, qəzetləri izləyir, İŞİD-i Azərbaycan mediasından, hətta Azərbaycan dövlətindən qorumağa çalışırlar.

Tərs kimi, onların işini çətinləşdirən amillər var. İŞİD törətdiyi kütləvi qətliamlarla, kəsdiyi başlarla, müxtəlif zorakılıqlarla dünya mediasını boş qoymur, beynəlxalq ictimaiyyətə öz obrazını daha parlaq şəkildə göstərir. Bir qrup fanatik isə hesab edir ki, belə bir qanlı qruplaşmanı müdafiə etmək mümkündür.

Bütün bu davranışların daha dərin səbəbləri də var. İncələsək, günahın vətən, millət anlayışını ucuzlaşdıran, insanları ordan-burdan, kənardan ümid pəncərəsi axtarmağa vadar edənlərdə olduğunu görəcəyik. Bununla belə, heç bir xüsusat vətən xaini olmağa əsas vermir.

# Kreml azərbaycanlı "ağır artilleriya"nı işə saldı

## Abbas Abbasov SSRİ-nin açıq təbliğinə başladı; Rusiya rəsmilərinin Azərbaycana ardıcıl səfərlərindən sonra sabiq 1-ci müavin hərəkətə keçdi

**Son zamanlar Azərbaycanın baş nazirinin keçmiş 1-ci müavini, "AzerRos" Ağsaqqallar Şurasının sədri Abbas Abbasovun ictimai-siyasi aktivliyi diqqət çəkir. Rusiya Xalqları Assambleyasının toplantısında çıxışı zamanı onun SSRİ-nin xiffətini çəkməsi isə xeyli müzakirələrə səbəb olub.**



Abbas Abbasov

**Ərəstun Oruclu: "O, heç olmasa sadiq olduğunu söylədiyi prezidentinin siyasətinə uyğun mövqedə dayansın"**

"Biz bir dəfə doğma ölkəmizi dağıtmışıq. Çox təəssüf ki, SSRİ adlı evimizi müxtəlif "milli mənzillərə" böldük. Belə unikal bir ölkə bir də ələ düşməyəcək" - deyə, A.Abbasov çıxışında bəyan edib. Sabiq nazir müavini onu da bildirib ki, indi hamımızın məqsədi "doğma Rusiyamızı qorumaq, onu inkişaf etdirməkdir". A.Abbasovun bir neçə gün öncə Putinin Ukrayna siyasətinə bəraət qazandırması da diqqətdən qaçmayıb. Onun fikrincə, Rusiya prezidenti Federasiya Şurasına Ukrayna ərazisində ictimai-siyasi durum normallaşana qədər bu ölkəyə Rusiya qoşunlarının yeridilməsi üçün müraciət etməklə ən doğru qərarı verib: "Bununla da o, bütün dünyaya bəyan etdi ki, Ukraynadakı qeyri-müəyyən durum Rusiya Federasiyasının milli maraqlarına, rusların, həmvətənlərin həyatına təhlükə törətdiyi üçün bu addımı atmağa borcludur". Sabiq dövlət rəsmisi Qərbi Ukraynadakı gərginliyi qızışdırmaqda ittiham edib. Deyib ki, Qərb siyasətçiləri Rusiyanın baş verənlərə bu cür reaksiya verəcəyini, bütün gücü ilə öz maraqlarını müdafiə edəcəyini gözləmirdilər. "Həmvətənlərini, qardaş Ukrayna xalqını millətçilərin basqısından və özbaşınalığından müdafiə edən Rusiyanı heç bir qüvvə dayandıra bilməz" deməklə A.Abbasov faktiki olaraq Kremlin imperiya siyasətini müdafiə edib.

Maraqlısı budur ki, bir müddət taym-aut götürən və Azərbaycan hökumətinə iliq mesajlar göndərən A.Abbasov yenidən ötən ilin yayından kimi sərt mövqeyə keçib. Bu, açıq da olmasa, hər halda, Azərbaycanın rəsmi mövqeyi ilə ziddiyyət təşkil etməsi baxımından fərqlidir. Məsələ burasındadır ki, Bakı hər hansı bloka qoşulmaq niyyətində olmadığını bəyan edib. A.Abbasov isə Azərbaycanın müstəqilliyini də təhdid edən imperiya siyasətinə haqq qazandırır, SSRİ nostalgiyasından bəhs edir.

**Politoloq Ərəstun Oruclu deyir ki, A.Abbasovun mövqeyindən təəccüblənmək lazım deyil:** "Moskvada diaspora fəaliyyəti ilə məşğul olan azərbaycanlıların böyük əksəriyyəti - hamını buna aid etmək istəmirəm - o cümlədən Abbas Abbasovun çevrəsində olanların fəaliyyəti birmənalı olaraq Rusiya siyasətinin tərkib hissəsidir. O cümlədən Rusiyanın Azərbaycan siyasətinin bir hissəsidir. Bu, ən azı dolayı əlamətləri ilə özünü daim büruzə verir. Daim Azərbaycan-Rusiya münasibətləri hansı fazada, hansı formada olursa, həmin dönəmdə bu insanların açıqlamaları məhz o münasibətlərin ruhuna uyğun olur. Bu baxımdan da Abbas Abbasovun son açıqlamaları əslində heç bir təəccüb doğurma bilməz. Çünki onun açıqlamaları ilə Rusiyanın bu gün Azərbaycan siyasətindəki hədəfləri və məqsədləri demək olar ki, yüz faiz üst-üstə düşür".

**Ə.Oruclunun sözlərinə görə, o cümlədən A.Abbasovun "SSRİ adlı ev"lə bağlı açıqlaması bir qədər siyasi dəyərləndirmədən uzaqdır:** "Ən azı ona görə ki, Rusiya hakimiyyəti iddia edir ki, yaratmaq istədiyi Gömrük İttifaqı, Avrasiya Birliyi heç də SSRİ deyil və keçmiş imperiyaya yaxın da deyil. Amma Abbas müəllim SSRİ-dən bəhs etməklə dolayısı ilə iddia edir ki, məsələ bu və ya digər şəkildə SSRİ-nin bərpasından keçir. Belə olan təqdirdə bizim Abbas müəllimə inanmaq üçün daha çox əsasımız var. Çünki həmvətənimizdir. Deməli, Rusiya SSRİ-ni bərpa etmək istəyir". **Politoloq deyir ki, "Azərbaycanın Rusiya ilə bir ittifaqda, yoxsa müstəqil dövlət kimi qalması faydalıdır" sualı qarşısında qalarıqsa, birmənalı olaraq ikincini seçmək lazımdır:** "İnanıram ki, Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti mövcud problemlərə, çətinliklərə, ədalətsizliyə, korrupsiyaya baxmayaraq ikincini seçir. Unutmayaq ki, Azərbaycan müstəqilliyi uğrunda şəhidlər verib, qaçqınlar qazanıb, ərazi itirib, bütün bunlara hörmətlə yanaşmaq lazımdır".

**Maraqlıdır, A.Abbasov son açıqlamaları ilə Putinin Azərbaycana ünvanlı mesajlarını çatdırıb, yoxsa SSRİ ilə bağlı kartları açmaqla hardasa müəyyən səhvlərə yol verib?** Ə.Oruclu: "Sadəcə olaraq, biz təcrübədən görürük ki, bir sıra azərbaycanlılar siyasi hakimiyyətdə yüksək vəzifədə olsalar belə siyasi təcrübədən kənardırlar və zaman-zaman açıqlamalarında ciddi səhvə yol verirlər. Elə Abbas müəllimin özü də vaxtilə "getsinlər korrupsiyanı aradan qaldırsınlar, təhsildəki, səhiyyədəki vəziyyəti düzəltsinlər" məzmunlu bəyanat vermişdi. Bu bəyanatla da ciddi siyasi səhvə yol vermişdi. Çünki Abbas müəllim özü də həmin hakimiyyətdə çox yüksək vəzifəli şəxslərdən biri olmuşdu. O hakimiyyətin fəaliyyətində nələr baş verirdisə, təbii ki, Abbas Abbasovun özü də məsuliyyət daşıyırdı, bunu bilməmiş deyil. Məncə, burada söhbət bəzən məsələnin incəliyinə varmadan bu və ya digər hazırlıqsız bəyanatın verilməsindən gedir. Amma istənilən halda inanmaq istəyirəm ki, müstəqil Azərbaycan dövlətinin yüksək rəsmisi olmuş və bunun sayəsində xeyli uğurlar əldə etmiş bir insan - Abbas Abbasov əsla Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin əleyhinə deyil. Ən azı ona görə ki, bu müstəqillik şəxsən ona həyatda çox böyük dividentlər qazandırıb. Ona görə də inanmıram ki, o, bunun əleyhinə olsun. Amma SSRİ nostaljisi də mənə çatmır. SSRİ adlı dövlətdə, "ev"də biz hər hansı mənzildə yaşamamışıq. Biz öz mənzilimizdə kirayənişin olmuşuq. Güman etmirəm ki, Abbas müəllim bizi növbəti dəfə öz evimizdə kirayənişin olmağa çağırır. Bir də ki, Azərbaycan dövləti, onun müstəqilliyi, suverenliyi uğrunda qurban getmiş on minlərə, bunun əziyyətini çəkən yüz minlərlə insana hörmətlə yanaşmaq lazımdır. Bu fikirlər həmin müstəqil dövlətin uzun illər yüksək rəsmisi olmuş şəxs tərəfindən deyilirsə, çox təəssüf. Əgər Abbas Abbasov vətəndaşların istək və arzularına, Azərbaycan dövlətinin Konstitusiyasına önəm vermirsə, heç olmasa sadiq olduğunu söylədiyi prezidentinin siyasətinə uyğun mövqedə dayansın. İlham Əliyevin bəyanatlarında isə açıq deyilir ki, o, Azərbaycanın nəinki müstəqil dövlət, həm də müstəqil siyasət yürüdən dövlət olmasının tərəfdarıdır, buna çalışır".

**Yeri gəlmişkən, bir neçə gün əvvəl Azərbaycanda da tanınan rusiyalı siyasətçi Aleksandr Fomenkov Dağıstan Respublikasının rəhbəri Ramzan Abdulatipovu A.Abbasovla dostluq münasibətləri saxladığına görə tənqid atəşinə tutmuşdu. "Dostunuzu göstərin, kim olduğunuzu deyim" başlıqlı yazısında Fomenkov bildirmişdi ki, əgər Dağıstan rəhbərinin dostları sırasında Abbas Abbasov kimi intriqant, təxribatçı və burnunu hər yerə soxan bir şəxs varsa, onda onu hansı aqibət gözləyəcəyi bəri başdan bəlli olur. Fomenkov daha sonra vurğulayıb ki, Abbas Abbasov ölkəsi Azərbaycanda da sevilmir. Bu şəxsdən uzaq durmaq lazımdır:** "Əgər Abdulatipov yaxın vaxtlarda Abbasovla dostluğuna son qoymasa, onun "papağı" yerə düşəcək".

Bir neçə ay öncə Söyün Sadıqov, Abbas Abbasov, Rauf Qurbanov, Telman Nurullayevdən sonra Əbdürrəhman Vəzirovun siyasi səhnəyə çıxmasından, Azərbaycanda da müstəqilliyi həzm edə bilməyən, imperiya zamanını hər zaman nostalji ilə xatırlayan insanların hərəkətə keçməsindən "beşinci kolon"un təmsilçiləri gizli və açıq şəkildə Rusiyanın dünyaya meydan oxumasına simpatiyalarını ifadə etməsindən bəhs edən material dərc etmişdik. A.Abbasovun Moskvadan verdiyi açıq mesajlar onu deməyə əsas vermir ki, Azərbaycan daxilindəki ruspərəstlər vahid mərkəzdən idarə olunur və məqsəd Azərbaycanı yenidən Rusiyanın boyunduruğu altına keçirtməkdir. Bu prosesdə Rusiya rəsmilərinin Bakıya davamlı səfərlərindən sonra dinamikanın müşahidə olunması da çox diqqətçəkəndir. Üstəlik, Moskvanın rəsmi Bakıya Gömrük İttifaqı ilə bağlı konkret təkliflər göndərdiyi barədə məlumatlar açıqlanıb. Mümkündür ki, Rusiya Bakıdan istədiyini ala bilmədiyi üçün Moskvadakı Azərbaycan əsilli "ağır artilleriya"nı işə salmağa qərar verib. Hər halda, rəsmi Bakının bu kimi fəaliyyətlərə necə reaksiya verəcəyi maraqlı məsələdir.

❑ Cavid TURAN

# Prezident diplomatik korpusda dəyişiklik etdi

**İlham Əliyevin Azərbaycanın xarici ölkələrdəki diplomatik korpusunun rəhbərləri ilə görüşü bir sıra maraqlı açıqlamalarla yadda qaldı. Sayca 5-ci olan bu görüşdə ölkə başçısı Avropa qurumları ilə əməkdaşlıq, eləcə də Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildirib. Eyni zamanda diplomatik korpusa xaricdə daha ciddi işləməklə bağlı çağırış edib.**

## Britaniyadakı səfirin yerinə Tahir Tağızadə göndərildi



**Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Aqşin Mehdiyev** APA-ya bildirib ki, toplantıda azərbaycanlı diplomatlar qarşısında mühüm və yeni vəzifələr qoyulub. "Qarşıya qoyulan mühüm tapşırıqlardan biri xarici təşkilatlarla iş aparmaq, o cümlədən müxtəlif ölkələrlə ikitərəfli münasibətlərin inkişafına nail olmaq idi" - deyə Mehdiyev bildirib.

**Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov** isə bildirib ki, görüşün nəticəsi olaraq Azərbaycanın yürütdüyü xarici siyasətin hücum xarakteri daşıması, Azərbaycanın maraqlarının müdafiə olunması qarşıdakı il ərzində də diplomatlarımız üçün əsas istiqamətlərdən olacaq.

**Siyasi şərhçi Natiq Miri** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, diplomatların müşavirəsində Azərbaycanın xarici siyasət xətti ilə bağlı hansısa ciddi dəyişikliyin anonsu verilməyib. Ekspertin fikrincə, mövcud xəttin davam etdirilməsi ilə bağlı tapşırıqlar verilib: "Müşavirədən çıxan nəticə budur ki, hakimiyyət balans siyasətini davam etdirəcək. Sadəcə, diplomatlardan daha aktiv fəaliyyət tələb olundu. Çünki indiki şəraitdə dünya gücləri arasında manevr etmək imkanları getdikcə tükənir. Ona görə Azərbaycan səfirliklərinin bu güclərlə işləməsi gərəkdir. Xüsusilə də beynəlxalq qurumlarda son zamanlar Azərbaycanın ciddi tənqid olunmasını nəzərə alanda hakimiyyətin narahatlığını anlamaq mümkündür".

**N.Miri deyir ki, prezidentin çıxışında yalnız Qarabağ münaqişəsi ilə bağlı fərqli kurs müşahidə olunub:** "Ancaq bütöv mənada xarici siyasətdə Qarabağ problemi xaric, elə bir dəyişikliyin olacağını düşünmürəm. Çünki səfirliklərin aktiv fəaliyyəti mahiyyətcə heç nəyi dəyişməyəcək. İndiki halda bizə dünyanı dəyişdirmək deyil, özümüzü dəyişdirmək həm ölkəmizə, həm də xarici siyasətimizə müsbət dəyişikliklər gətirə bilər. Başqa məsələ Qarabağ məsələsidir ki, bu yöndə həmsədr ölkələrdə bir aktivlik hiss olunur. Bu da bizi sevdiklərindən deyil, daha çox regional geosiyasi faktorların gərəyi olaraq ortaya çıxıb. Azərbaycanın son günlər Rusiyaya yönəlik reveranslar etməsi təbii ki, Qərbi narahat etməyə bilməz. ABŞ-ın Ermənistandakı səfirinin son açıqlamasını da güclər arasındakı geosiyasi mübarizənin əlaməti kimi dəyərləndirmək lazımdır. Azərbaycanın Qarabağ problemi ilə bağlı daha çox Rusiya ilə işləməyə üstünlük verməsi hiss olunur. Dəyişiklik əsasən bu yöndə özünü göstərə bilər ki, bunun da yanlış bir siyasət olduğunu düşünürəm. Və bu gerçək az bir zamandan sonra ortaya çıxacaq".

Qeyd edək ki, prezident İlham Əliyevin 9 iyul sərəncamları ilə diplomatik korpusda əvəzlənmələr aparılıb. Fəxrəddin İsa oğlu Qurbanov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, İrlandiya Respublikasında, İslandiya Respublikasında və Danimarka Krallığında fövqəladə və səlahiyyətli səfir vəzifəsindən geri çağırılıb.

Fərid Rauf oğlu Şəfiyev Azərbaycanın Kanadada fövqəladə və səlahiyyətli səfiri və Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən Çex Respublikasında fövqəladə və səlahiyyətli səfir postuna keçirilib.

Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılan Tahir Tofiq oğlu Tağızadə isə Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

❑ KƏNAN

# Lap suda balıq kimi...



**Hüseynbala SƏLİMOV**

**20-ci əsr çox zəngin oldu. Amma əgər soruşsaydılar ki, 20-ci əsrdə nələri önəmli sayırsınız, düşünmədən iki prinsipi yada salardıq. Bunlardan biri insan haqlarının universiallığı, digəri isə insan haqlarının heç bir dövlətin daxili işi olmamasıdır.**

Bunların nəticəsində 20-ci əsrdə insan haqları və demokratiya ilə məşğul olan təşkilatların beynəlxalq şəbəkəsi yarandı. Bu şəbəkə dünyada insan haqlarının monitorinqi ilə məşğul olur, informasiya mübadiləsi aparır, qeyri-demokratik ölkələri qınayır, onları demokratiyanı və insan haqlarını gözləməyə dəvət edir.

Bunları niyə xatırladıq? İ.Əliyevin diplomatik korpusla görüşdə dedikləri ictimaiyyət arasında müzakirələrə səbəb oldu.

Hətta prezidentlə razılaşanlar, lirik siyasi etiraflara qapılanlar da tapıldı. Onların fikrincə, demokratiya məsələləri ikitərəfli və çoxtərəfli görüşlərdə bütün ciddiliyi ilə qaldırılsaydı təbii ki, indi ölkədə fərqli vəziyyət olardı.

Digərləri isə beynəlxalq təşkilatlarla əməkdaşlığı daha çox əlacsızlıqla, ölkənin içində təsir mexanizmlərinin olmaması ilə izah etməyə cəhd göstərdi.

İnsanların məyusluğunu başa düşmək olar. 21 ildir ki, mübarizə gedir, insanlar demokratiyanın qalması və inkişafı üçün əllərindən gələni edirlər. Nəticə isə yoxdur.

Bunu yaxşı başa düşürük. Amma bütün bu narahatlıqlarla dolu etiraflara bir cavab var. İnanın, əgər bu hakimiyyətlə təmaslarda, ikitərəfli və çoxtərəfli görüşlərdə demokratiya və insan haqları məsələləri qaldırılmasaydı, onlara toxunulmasaydı, müxalifətin vəziyyəti müzakirə mövzusu olmasaydı onda nə İ.Əliyev və nə də ki, onun hökumətinin üzvləri təkrar-təkrar həmin məsələlərə qayıtmazdı.

Onları bu haqda danışmağa nə vadar edir? Bəlkə daxildən hansısa bir ictimai sifariş var?

Fikir verin. Heç bir dövlət məmuru yad planetlilərdən və ya ucan boşqablardan danışmır. Niyə? Ona görə ki, hələ ki, bu məsələlər siyasətin predmeti deyil, heç bir beynəlxalq tədbirlərdə onlar qaldırılmır, Azərbaycan hökuməti uçan boşqablara diqqət göstərmədiyinə görə qınanmır.

Ona görə də sadəlövh titulunu qəbul etməyə tələsməyin. Sadəcə, problem nədədir? Beynəlxalq siyasətdə məcburetmə mexanizmləri azdır. Dövlətlərin bir çoxu öhdəlikləri ona görə yerinə yetirir ki, sadəcə, buna öyrəşiblər, onlar fərqli yol bilmirlər, çünki siyasi mədəniyyət onlara belə etməyi diqtə edir.

İradların və öhdəliklərin çoxu sadəcə, tövsiyə xarakteri daşıyır. Təbii ki, belə vəziyyətdən Azərbaycan kimi dövlətlər sui-istifadə edirlər, çünki belə dövlətlərin hakimiyyətləri öyrənib ki, onları nəyəsə məcbur etsinlər, kimsə "yuxarılardan" zəng edib bunları hədələsin.

Siyasi mədəniyyət tamam başqa məsələdir. Burada bir detalı bir daha xatırlatmaq istərdik. İngiltərə kraliçası Avropa İnsan Haqları Məhkəməsində onun ölkəsinə qarşı bir neçə məhkəmə prosesini udan vəkili mükafatlandırmışdı. Kraliça bunu onunla izah etmişdi ki, həmin vəkil onun təbəələrinin hüquqlarını onun öz institutlarından daha yaxşı qoruyur.

Bu, əsrlər ərzində formalaşmış mədəniyyətdir. Təsəvvür edin, hələ Sokratın Afinadan qaçmaq və məhkəmədən yayınmaq imkanı olub. Tələbələri onu qaçırmağa hazır imiş. Amma Sokrat qaçmadı, ləyaqətli vətəndaş kimi məhkəmə qarşısına çıxdı, hətta öz həmvətənlilərinin əlindən zəhəri qəbul etdi.

Ona görə də indi Avropa ölkələrində tamam fərqli siyasi mentalitet bərqərar olub - onları nəyəsə məcbur etməyə ehtiyac yoxdur, sadəcə, iradların ədalətli olub-olmamasına inandırmaq lazımdır.

Dünya dəyişir. Hətta xarici siyasət insan haqlarının və demokratiyanın fövqündə deyil, bəşəri dəyərlər xarici siyasətə də sirayət edir - insanlar öz ölkələrinin kiminlə və necə əməkdaşlıq etməsinin fərqindədir.

Ona görə də azərbaycanlı dövlət xadimlərinin və məmurlarının dedikləri qeyri-səmimilikdən başqa bir şey deyil. Onlar sadəcə, özlərini inandırmağa çalışırlar ki, dünyada heç nə dəyişmir, köhnə qaydalar yaşayır.

Onlar üçün "Hamı bizim kimidir!" -demək daha xoşdur, çünki belə dünyada özlərini daha rahat, necə deyərlər, lap suda balıq kimi hiss edirlər...

Amma inandıra bilmirlər özlərini. Ona görə də təlaş içindədirlər. Bizə isə elə gəlir ki, onlar həqiqəti deyir. Bundan sonra bizə sadəlövh deməyəsən, axı, nə deyəsən?..

# İraq türkmənlərinə kömək başlayıb

## Türkmənlərə dəstək üçün könüllü döyüşçülər, yardım karvanları bölgəyə yol alıb...



**Ötən ay İŞİD silahlılarının İraqın ikinci böyük şəhəri Mosulu ələ keçirməsi bu ölkədə böyük sayda türkmənləri təhlükə altına atıb. Uzun illərdir İraqın şimalında təşkilatlanan və dövlət yaratmağa çalışan kürdlərin diskriminasiya və təzyiqləri altında qalan türkmənlər çox çətinliklə də olsa öz yurd-yuvalarını qoruyub saxlayırdılar.**

İŞİD-in İraqın ərazilərinin bir qismini işğal etməsi ilə türkmənlərin durumu daha da ağırlaşıb. İraq kürdləri və İŞİD arasında qalan türkmənlərin yaşayış məntəqələri kürd peşmərgələri tərəfindən tutulub. Eyni zamanda heç bir dəstəyi olmayan və mərkəzi hökumətin təsirindən uzaq qalan türkmənlərin yaratdıqları kiçik özünümüdafiə qrupları da təcrübəli, uzun illər döyüşlərdən çıxmış İŞİD yaraqlıları ilə döyüşlərdə məğlub olur. Çox təəssüf ki, türkmənlərin bu vəziyyətində Türkiyə hökuməti və eləcə də digər türk respublikaları yardım etmədi.

Ancaq məlum olur ki, hökumətlərin etmədiyini ictimaiyyət etməyə çalışır. Türkiyədə yardım qurumları türkmənlərə yardım kampaniyasına başlayıblar. Məlum olub ki, Türkiyədə bir çox şəxslər türkmənlərə yardıma gediblər. Türkiyə mətbuatı Elazığ vilayətinin Keban qəsəbəsinin Milliyyətçi Hərəkat Partiyasından keçmiş bələdiyyə sədri Ramazan Çelikin 32 yaşlı oğlu Alparslan Çelikin türkmənlərə dəstək üçün İraqa getdiyini yazıb. Mətbuatda A.Çelikin silahla türkmən döyüşçülərlə birlikdə olduğu şəkli yayıb.

Ramazan Çelik isə bildirib ki, oğlu getməmişdən onu bu barədə məlumatlandırıb. Ramazan Çelik lazım gələrsə özünün də İraqa gedib türkmənlərlə birlikdə vuruşmağa hazır olduğunu deyib. Sitat: **"40 ildir türk milləti olaraq bayraq və Turan ideyası ilə yoğrulduq. O mənim oğlumdur və 32 yaşı var. Orda qardaşlarımız dardadır, vətən, bayraq və qardaşlıq üçün ölməyəcəyiksə, nə üçün öləcəyik? Oğlum mənə "ata, mən gedirəm" dedi. Mən də get dedim, şəhid olana qədər savaşacaqsan, lazımdırsa mən də getməyə hazıram".**

Qeyd edək ki, Ramazan Çelikin 3-ü qız, biri oğlan olmaqla 4 övladı var. Türkiyəli millətçinin yeganə oğlunu türkmənlərə köməyə göndərməsi böyük diqqətə səbəb olub. Hazırda Türkiyədən yardım qurumlarının, könüllü insanların İraq türkmənlərinə yardımları davam edir. Türkiyə mediası Kərkükün Leylan qəsəbəsinə sığınan Tuz Xurmatu, Təzə Xurmatı və Bəşir qəsəbələrindən İŞİD hücumundan qaçmış insanlara yardımlar çatdırıldığı haqda məlumat yayıb.

Hələlik rəsmi Ankara İŞİD qruplaşmasının girov saxladığı 40 diplomatına görə İraq türkmənlərinə açıq dəstək verə bilmir. Ancaq bununla belə, Türkiyənin yardım qurumları, sadə insanlar, könüllülər türkmənlərə yardım göstərməyə çalışır. MHP-li bələdiyyə başçısının oğlunun türkmənlərə dəstək üçün getməsi onu göstərir ki, Türkiyədən bir çoxları türkmənləri tək qoymamağa çalışacaq.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014



# Hesab hələlik 6:2

Zamin HACI
zaminhaci@gmail.com

**Britaniya energetika naziri Maykl Fellon müəllimin Bakı səfəri günlərində NİDA Vətəndaş Hərəkatının üzvü Şahin Novruzlunun əfv ərizəsi yazması yerinə düşdü. Energetik ehtiyatlarımız hələlik cənab prezidentin tərəfindədir, istənilən matçı udacaq kimi görünür.**

Ancaq mübarizə də davam edir. NİDA üzvləri həbs ediləndə 8 nəfər idilər, yapistlər 1 il yarıma yaxın müddətdə bunlardan cəmi ikisinə ərizə yazdırıblar və hazırda hesab 6:2 NİDA-nın xeyrinədir. Şahin Novruzlunu həm də hesabı korladığı üçün qınayırıq, ona qədər hesab Almaniya-Braziliya oyunundakı kimi idi.

Hələ başqa hesablar da var. Məsələn, mən dünən “Prezident Rəsulzadənin nəvəsini müalicə üçün Almaniyaya göndərdi” xəbərini oxudum. Bir az gözüm böyümüşdü, elə bildim prezident Məhəmməd Əmin Rəsulzadənin özünü Almaniyaya göndərib. Göndərə bilməzmi? Bizim buna da imkanlarımız var. Dahi rəhbər demişkən, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Binəqədi rayonunun icra başçısı Xaləddin müəllimin “2015-ci il Avropa oyunları münasibətiylə Təmiz Binəqədi ili elan edirik” kampaniyası da bu sıradandır. Xaləddin müəllim demək istəyir ki, bir il Binəqədini yaxşıca silək-süpürək, sonrasına baxarıq. Yaxşı olardı Penisentiar Xidmət (korrektor, özün söhbəti bilirsən) də “2020-ci il bədii gimnastika çempionatı münasibətiylə əfv ərizələri kampaniyası” elan etsin. Biləcərini şampunla yuyandan sonra “Əsgər ölümlərinə son” aksiyası kimin yadına düşər? Əsas şampundur. Bir də bədii gimnastika. Siz gərək detallara fikir verəsiniz. AMİP lideri, Azərbaycanın indiki kökə düşməsində əvəzsiz xidmətlər göstərən Etibar Məmmədovun gəncliyində bədii gimnastika ilə məşğul olduğunu bilirdinizmi?

Vəziyyət ümidsiz deyil, hökumətimiz arada hakimləri pulla satın alıb hətta NİDA üzvü olmayanların da ərizəsini düzəldir. Misal üçün, Elsevər Mürsəliyev adlı gənc məhbusu qazamatda NİDA-ya üzv yazıb elə orda da əfv ərizəsini təşkil etdilər. Ən ağlamalı-gülməlisi isə Mürsəliyevin əfv ərizəsindəki “İndi səhvimi başa düşərək cənab prezident İlham Əliyevin siyasətini dəstəklədiyimi bildirir və siyasi aləmdən çəkilirəm” cümləsi idi. Sanki bu Nelson Mandela, Martin Lüter, nə bilim, Vatslav Havel-filan imiş. Təsəvvür edin, birbaşa siyasi aləmdən çəkilirdi. Eyni zamanda siyasi aləmdən çəkilib prezidentin siyasətini dəstəklədiyini yazmaqla əslində hakimiyyətə sataşmışdı, yəni, “sizinki siyasət deyil, nəsə ayrı şeydir”.

Şahin Novruzlu zindana salınanda 17 yaşı var idi, indi deyəsən 19 olmalıdır. O, ən gənc siyasi məhbuslardan biri kimi tarixə düşmüşdü, deyəsən Azərbaycanın yeni tarixində ondan gənci olmamışdı. (Yeni tarixi ona görə qeyd eləyirəm ki, 37-38-ci illər repressiyasında indiki yapistlərin babaları körpə uşaqları da sürgün edir, öldürürdülər). Elə bu məsum gənc simasına görə “Beynəlxalq Amnistiya”nın NİDA üzvlərinə azadlıq tələb edən kampaniyasının qapaq fotosu məhz Novruzlunun şəkli idi. İndi necə olacaq? Novruzlu da Mürsəliyevin “Azadlıq” qəzetinə yazdığı “Şəklimi siyasi məhbusların şəkilləri siyahısından çıxardın” məktub tipində bir şeyi “Beynəlxalq Amnistiya”ya yazacaqmı? Görəsən bu prokurorlar, hakimlər, penisentiarlar və o cümlədən əfv ərizəsi yazan siyasi məhbuslar Azərbaycana beynəlxalq miqyasda qeyri-ciddi bir dövlət imici qazandırdıqlarının fərqində deyillərmi?

Hakimiyyəti sonda bir daha təbrik edirəm. Nəhəng repressiya aparatı il yarıma bir gəncə qalib gəldi. Bir gəncin də taleyini sındırdınız, böyük uğurdur. Sınıq adamlar bütöv adamların yanında yaşayanda sıxılırlar. Yaltaq ətrafda hamının yaltaq, qorxaq isə qorxaq olmasını istəyər.

# Müxalifət ABŞ-ın yeni səfirindən nə gözləyir?

**Xəbər verildiyi kimi, ABŞ prezidenti Barak Obama avqust ayında səlahiyyət müddəti bitəcək səfir Riçard Morninqstarın yerinə Robert Cekutanın namizədliyini irəli sürüb.**

.Senat təsdiq edərsə, bundan sonra ABŞ-ın Azərbaycandakı növbəti səfiri Robert Cekuta olacaq. Yeni namizədin bioqrafiyasında ilk diqqətçəkən məqam isə onun enerji məsələləri üzrə mütəxəssis olması, neft lobbisinin nümayəndəsi kimi tanınmasıdır. Belə ki, Cekuta hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçinin böyük müavini vəzifəsində çalışır. Bundan başqa, Əfqanıstan, Yaponiya, Almaniyada Amerika diplomatik korpusunda çalışıb. Albaniya, Avstriya, İraq, Cənubi Afrika, Yəməndə ABŞ Ticarət Nümayəndəliyinin Ofisində də işləyib.

Qeyd edək ki, hazırkı səfir Riçard Morninqstar da enerji məsələləri üzrə mütəxəssis olduğu üçün Bakıya göndərilmişdi. Vaşinqtonun Bakıya enerji mütəxəssislərini səfir göndərməsi cəmiyyətdə birmənalı qarşılanmır. Bir çoxlarında belə rəy var ki, ABŞ-ın yenidən “neft qoxulu” şəxsi Azərbaycana səfir göndərməsi enerji məsələsinin yenə də ön planda olacağının, demokratiya və digər prioritetlərin arxa planda yer alacağının göstəricisidir.



**Arif Hacılı:**
“Səfirlər Amerika-Azərbaycan münasibətlərinin nə cür olmasını müəyyən etmək imkanına malik deyillər”



**İqbal Ağazadə:**
“Bu təyinat o deməkdir ki, Azərbaycan regionda əhəmiyyətini saxlayır, enerji sahəsi üzrə üstünlüklərini qoruyur”

Azərbaycanın müxalifət partiyaları isə hesab edir ki, səfirin kimliyi mühüm əhəmiyyət kəsb etmir. Bu barədə danışan **Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı** bildirdi ki, hazırkı səfir Morninqstar enerji sahəsinə aidiyyəti olan şəxs olsa da, onun səfir kimi Azərbaycandakı fəaliyyəti Azərbaycan hakimiyyətini qane etmirdi. Azərbaycan hakimiyyət dairələrinə yaxın şəxslər hətta son zamanlar Morninqstarın burada verdiyi bir çox açıqlamalara öz etirazlarını bildirirdilər. Bu baxımdan Azərbaycana təyin olunacaq yeni səfirin şəxsi keyfiyyətləri, şəxsi düşüncələri ABŞ-Azərbaycan münasibətlərində və ABŞ səfirliyinin Azərbaycandakı fəaliyyətində həlledici rol oynamayacaq: “Amerika oturuşmuş bir dövlətdir və onu diplomatik sahədə təmsil edən vəzifəli şəxslər ABŞ-ın siyasətini həyata keçirirlər. Onlar Amerika dövləti və Azərbaycan dövləti arasında münasibətlərin nə cür olmasını özləri müəyyən etmək imkanına malik deyillər. ABŞ Dövlət Departamenti bu siyasəti nə cür müəyyən edəcəksə, Azərbaycanda fəaliyyət göstərən səfir də həmin istiqamətdə, həmin direktivlər əsasında öz fəaliyyətini quracaq. Bu baxımdan yeni təyin olunacaq səfirin enerji sahəsində çalışmasının Azərbaycan üçün hər hansı bir mənfi nəticələri olacağını düşünmürəm”.

**A.Hacılı onu da söylədi ki, Robert Cekutanın fəaliyyəti haqda əvvəllər məlumatı olmayıb:** “Sadəcə olaraq, onun Azərbaycana səfir təyin olunacağı barədə informasiya yayılandan sonra internet vasitəsilə onun haqqında ətraflı məlumat almışıq. Cənab Cekutanın hansı sahələrdə çalışdığı barədə məlumat əldə etmişəm”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, ABŞ-ın yeni səfirinin də enerji sektoru ilə bağlı olması Azərbaycanın enerji sahəsində mühüm partnyor olduğunun göstəricisidir:** “Bu sahədə mütəxəssis olmaq ABŞ-ın bir dövlət kimi digər sahələrdə prioritetlərinin sıradan çıxarılması və ya göz ardına alınması demək deyil. Hesab edirəm ki, digər məsələlərdə də ABŞ dəyər və prioritetlərinin üzərində dayanacaq. Enerji resursları ilə bağlı olan mütəxəssisin səfir kimi Azərbaycana gəlişini əslində pozitiv hesab edirəm. Bu təyinat o deməkdir ki, Azərbaycan regionda əhəmiyyətini bir daha saxlayır və Amerika üçün də enerji sahəsi üzrə üstünlüklərini qoruyur”.

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə publika.az-a açıqlamasında deyib ki, Vaşinqtondan Bakıya gələn səfirlər enerji məsələlərini mütləq bilməlidir:** “Mən yeni namizədin bioqrafiyası ilə tanış oldum. Böyük təcrübəsi var. Bir çox ölkələrdə səfir olub, eyni zamanda Dövlət Departamentində enerji məsələləri üzrə mütəxəssisdir. Onun enerji mütəxəssisi olması Bakıya səfir göndərilməsində əsas rol oynayır. Çünki Azərbaycanın əsas məhsulu neft və qazdır. Azərbaycan dünya bazarında bu bizneslə məşğuldur. Üstəlik, bu, daxili və xarici siyasətimizə böyük təsir edir. Ona görə də bu seçimi tamamilə uyğun hesab edirəm”.

❑ Etibar SEYİDAĞA

# Azərbaycanın siyasi səhnəsində qorxulu marginallaşma

## Siyasi müxalifətin yerini radikal dini cərəyanlar doldurmağa başlayıb; deputatlar ölkəni gözləyən təhlükəli perspektivdən danışdılar...

**Azərbaycanda siyasi müxalifətin yerini radikal dini cərəyanlar, sektalar, təriqətlər tutmağa başlayıb. Dinc mübarizənin tərəfkeşi olan müxalif partiyalar zəiflədikcə, boşluğu ekstremist qüvvələr doldurmaqdadır.**

Artıq Suriyada, İraqda silahlı birləşmələrdə iştirak edən azərbaycanlılar bir təşkilat şəklini alıb. Onların ölkəyə qayıtması və yaxud Azərbaycanda yaşayan radikal dini təriqət üzvlərinin meydana çıxması təhlükəsi hiss olunur.

Son olaraq Sabirabaddakı olay buna nümunə ola bilər.

Ölkədə məzhəblərarası qarşıdurmanın tumurcuqlanmasına, radikal marginal qrupların fəallaşmasına əsas yaradan proseslərin getdiyi müşahidə olunur.



Fazil Mustafa



Fərəc Quliyev

Lakin **deputat Fazil Mustafa** bu vəziyyəti müxalifətin zəifləməsi ilə əlaqələndirmir. Onun fikrincə, belə bir arqument əvvəllər daha populyar olub. F.Mustafa güman etmir ki, müxalifət dini sferanı özünə cəlb və nüfuz etmək gücünə malikdir: “Radikal cərəyanların yaranması yanlış dini siyasətin və sosial problemlərin bəlasıdır. Dini maarifçilik işinin aparılmaması, hazırlıqsız şəxslərə bu sahənin tapşırılması belə şərait yaradıb. Bu boşluq özfəaliyyət kimi güclənməyə başlayıb. Müxalifətin fəallaşması isə beynəlxalq konyuktura ilə bağlıdır”.

**F.Mustafa hesab edir ki, Azərbaycan kimi qapalı ölkələrdə müxalifətin geniş miqyasda iş görməsi çətindir:** “Müxalifətin güclənməsi beynəlxalq diqqətdən asılıdır. Əvvəl SOROS-dan dəstək alırdılar. Bu gün Avropa Birliyi hakimiyyətdən bir istədiyini qoparmaq lazım gələndə insan haqları, siyasi məhbus faktorunu qabardır.

Enerji layihələri ilə bağlı əməkdaşlıq ediləndə artıq demokratiya arxada qalır. Bu baxımdan müxalifətin zəifləməsi prosesi gedir. Müxalifət dini sferanı özünə cəlb edəcək gücdə deyil. Əksinə, müxalifət bu radikal təbəqəyə təhlükə kimi baxır, onunla məsafə saxlayır”.

**Dini radikal qrupların Azərbaycanda geniş miqyasda fəallaşması perspektivini görməyən F.Mustafanın sözlərinə görə, ölkəni qarışdırmaq üçün epizodik təxribat cəhdləri ola bilər:** “Azərbaycanda radikal dini cərəyanlar məktəb formasında təmərküzləşməyib. Hətta İrandan gələn mürtəce cərəyanlar belə lokal qruplar çərçivəsində qaldı. Azərbaycanlılar imana çox ciddi yanaşmır. Ərəblər kimi məzhəblərin sərt şəkildə yaşaması anlayışı yoxdur. Azərbaycanı qarışdırmaq üçün epizodlar ola bilər. Amma əhalini özü arxasında apara biləcək radikal cərəyan yoxdur”.

**Deputat Fərəc Quliyev inanmır ki, imanlı insanlar vətənin taleyi ilə bağlı xoşagəlməz fəaliyyətlərdə iştirak etsinlər. Onun sözlərinə görə, 70 il sovet hökuməti dövründə belə azərbaycanlılar imanını qoruyublar. Deputat deyir ki, radikal dini cərəyanlara qoşularaq Azərbaycan əleyhinə xidmət edənlər xarici qüvvələrin təxribatçı maraqlarına qulluq edirlər:** “Peyğəmərin (ə) sözü var ki, "Vətəni sevmək imandandır". Amma radikal cərəyanlara qoşulanların bir qismi xarici qüvvələrin ambisiyalarını həyata keçirmək istəyənlərdirsə, digər qanadı aldanmışlardır. Onlar bizim kisəmizdən gedir. Bu baxımdan radikal qruplara qoşulanlarla bağlı inzibati tədbirlər, profilaktik addımlar atılmalıdır. Onlar bizim övladlarımızdır, bu insanlara sahib çıxmalıyıq”.

**F.Quliyev təklif edir ki, efirdə bayağı verilişləri dini maarifçilik əvəzləsin, orta və ali məktəblərdə dinin tədrisi təşkil olunsun. Deputat müxalifətin zəifləməsi fonunda yaranmış boşluğu radikal cərəyanların tutması fikrini də istisna etmir. F.Quliyev bu mənada iqtidar-müxalifət dialoqunu vacib sayır:** “Ən müxtəlif səbəblər saymaq olar ki, ortaya nə üçün belə radikal qruplar çıxmağa başlayıb. Amma siyasi mübarizə meydanlardan parlamentə getməlidir. Siyasi müxalifətin zəifləməsi heç kəsə haqq vermir ki, xarici strukturların xoşagəlməz maraqlarına xidmət etsin. Düşünürəm ki, ölkə rəhbərliyi, cəmiyyət dini radikalizmi aradan qaldırmaq üçün birgə fəaliyyət göstərməlidir. Bu günə kimi hakimiyyətdə dialoq istəyənlərin bəyanatları da olub. Əgər işğalçı ölkənin nümayəndələri ilə bir masada oturub problemin həllini müzakirə ediriksə, öz vətəndaşlarımızla da olmalıdır”.

❑ E.SALAMOĞLU

# Azərbaycan böyük güclərin “nifaq alması”na çevrilir

**Qərblə Rusiya arasında Ukrayna olayları fonunda həm də psixoloji müharibə gedir. Bu müharibənin əsas meydanı şübhə yox ki, postsovet məkanı, öncəliklə də GUAM coğrafiyasıdır. Kreml bu məkanda özünün imperiya maraqlarını heç cür güzəştə getmək istəmir, baxmayaraq ki, perspektiv anlamda o, böyük geosiyasi rəqabəti artıq uduzub.**




# Bakı geosiyasi yol ayrıcında - təhlil

## Fransa prezidentinin İlham Əliyevlə Serj Sərkisyanı Parisdə görüşdürmək təklifi təkcə Qarabağla bağlı deyil; Amerikanın yeni səfiri konkret mesajlarla gələcək...

GUAM ölkələrindən üçü - Ukrayna, Gürcüstan və Moldova ötən ay Avropa İttifaqı ilə assosiasiya sazişi imzaladıqdan sonra Rusiyadan əhəmiyyətli şəkildə üzülüşmüş sayıla bilərlər. Bunu Kremldə də yaxşı anlayırlar. Qalır GUAM-ın “A”sı - Azərbaycan. Hazırda Qərb-Rusiya rəqabətində cəbhə xətti bölgənin açar ölkəsi olan Azərbaycandan keçir yazsaq, yəqin ki, yanılmarıq.

Təbii, üzdə bu rəqabətin elementlərini görmək asan deyil. Ancaq bir şey dəqiqdir ki, Dağlıq Qarabağ məsələsində Rusiyanın daha çox zahiri, Qərbin isə faktiki fəallaşması Qarabağdan çox, region uğrunda, onun açar ölkəsi olan Azərbaycan və bir də Ermənistan uğrunda başlamış yeni geosiyasi savaşın tərkib hissəsidir.

Rusiyanın əsas hədəfi bəllidir: Moskva bu iki ölkəni, Qərbə, perspektivdə isə NATO-ya yaxınlaşmaq həvəsini birdəfəlik öldürmək, Gürcüstanı təkləmək niyyətindədir. Ermənistanın Avrasiya Birliyinə üzvlüyünün ləngiməsinin bir səbəbi də bu hədəfə bağlı görülür. Bir sıra erməni və rusiyalı ekspertlər də o qənaətdədirlər ki, Moskva üçün işğalçı Ermənistanın Avrasiya Birliyinə üzvlüyündən qat-qat çox onun Avropa İttifaqına yaxınlaşmasını önləmək əhəmiyyət kəsb edir ki, ona da Kreml nail olub. Bundan sonra Ermənistan Gömrük İttifaqına, Avrasiya Birliyinə qoşulmasa da olar. Əsas odur ki, uzağa getməsin, Rusiyanın həndəvərində qalsın.

Eyni strategiya Azərbaycana münasibətdə izlənməkdədir. Yəni Rusiyadan ötrü Azərbaycanın Avropa İttifaqına, NATO-ya can atmaması, GUAM çərçivəsində xüsusi fəallıq göstərməməsi daha vacibdir, nəinki onun Putinin “Yeni SSRİ” projesinə qoşulması. Kremlin Bakıdan istəyi həmçinin sonuncunun Avropanın Rusiyadan enerji asılılığının azaldılmasında iştirakdan çəkinməsidir. Təbii ki, bura Rusiyadan yan ötməklə Avropaya yeni transmilli qaz kəmərlərinin çəkilməsi, Avropa neft-qaz bazarında Rusiyaya alternativ olmaqdan imtina daxildir.

Qərb isə əksinə, Azərbaycana ən əvvəl Moskvanın postsovet məkanında, Ukraynada yeni dominant statusu qazanmasını əngəlləmək və Rusiyanın Avropaya qarşı qaz şantajını kəsərsiz eləmək üçün vazkeçilməz ölkələrdən biri kimi baxır. Buna görə demokratiya paytaxtları Azərbaycanda təməl haqlarının pozulmasına hələ bir müddət də dözməyə, göz yummağa hazır görünür.

Qarabağ məsələsində Qərbin *(ABŞ və Fransa)* əlahiddə fəallaşmasının əsas motivi, Ceyms Uorlikin Ukrayna böhranı başlayandan dərhal sonra irəli sürdüyü 6 bəndlik təklifi, prezident Fransua Ollandın Azərbaycan və Ermənistan prezidentlərini israrla Parisdə görüşdürmək təklifi də Qarabağ nizamlanmasından çox, iki Güney Qafqaz ölkəsini Qərbin yanına almağa, onları Rusiyaya ifrat yaxınlaşdırmaqdan çəkindirməyə hesablanmış fəaliyyət təəssüratı yaradır.

Qonşu Gürcüstan Avropa İttifaqı ilə assosiasiya sazişi imzaladıqdan sonra habelə NATO-nun sentyabrda gözlənilən növbəti genişlənmə sammiti ərəfəsində *(sammitdə Gürcüstana xüsusi statusun tanınacağı istisna deyil)* bu imperativ xeyli güclənib və regionun “tənha dövləti” Azərbaycan uğrunda rəqabətə xüsusi aktuallıq qazandırıb. Hər şeydən göründüyü kimi, Qərb öz sərhədlərinin Azərbaycana dirənməsini, Gürcüstanın təklənməsini istəmir.

ABŞ və Avropa ən azından, Bakının geridönməz şəkildə yeni rus boyunduruğuna girməsini, köhnə-yeni enerji layihələrinin sual altına düşməsini əngəlləməyə çalışır. Bakı ilə Vaşinqton arasında son siyasi-diplomatik gərginliklərə baxmayaraq ABŞ-ın Azərbaycana səfir təyinatını gecikdirməməsi demək olar ki, yeni səfir Bakıya hətta konkret mesajlarla gələcək.

Belə bir ehtimalı gücləndirən incə detallardan biri də Amerikanın Rusiyaya qatı rusofob diplomat kimi tanınan Con Tefti yeni səfir olaraq göndərməyə hazırlaşmasıdır. Bütün bunlar rəqabətdə favoritliyi saxlamağa yönəlik aşkar elementlər sayıla bilər.

***

Beləcə, Azərbaycan tədricən böyük güclər arasında “nifaq alması”na çevrilməkdədir. Biz istəsək də, istəməsək də. Qarabağ problemi daxil, böyük bir oyunun içindəyik. Durumu də durumun həssaslığından və Azərbaycan uğrunda Rusiyanın əlinə əlavə “kozır” verməmək istəyindən qaynaqlana bilərdi. Bu mənada ehtimal elə-

Bakının geosiyasi yol ayrıcında olması kimi də xarakterizə etmək olar. Seçim anı uzaqda deyil...

❑ **Siyasət şöbəsi**





# Rəsul Quliyev Fətullah Gülənlə işbirliyi xəbərindən danışdı

**Son günlər eks-spiker Rəsul Quliyevin ABŞ-da Hizmət Hərəkatının lideri Fətullah Gülənlə əlaqəsinin olduğu haqda informasiyalar yayılır. Qeyd edilir ki, Rəsul Quliyev mütəmadi olaraq Fətullah Gülənlə görüşür. Sonuncu dəfə bu barədə xəbəri piblika.az saytı yayıb. Saytın R.Quliyevin adının açıqlanmasını istəməyən keçmiş silahdaşına istinadən yaydığı məlumata görə, sabiq spiker Pensilvaniya ştatında səfərlərdə olur və zaman-zaman Gülənlə görüşlər keçirir. F. Gülənin onun Amerika həyatına da köməkliyi dəydiyi deyilir.**

Qeyd edək ki, R. Quliyevin bir müddət öncə Azərbaycan mediasında F.Güləni müsəlman dünyasının 5 şəxsiyyətindən biri adlandırması, onun siyasi rəqibinə çevrilmiş Ərdoğanı isə sərt tənqid etməsi bu informasiya fonunda diqqəti çəkir.

“Fətullah Gülən Türkiyəni işığa, Ərdoğan isə qaranlığa sürükləmək istəyir”-deyə eks-spiker camaat liderini belə təqdim edir.

Dünən Rəsul Quliyevlə əlaqə yaradaraq Fətullah Gülənlə tez-tez görüşdüyü haqda yayılan xəbərlərin doğru olub-olmadığını soruşduq. Rəsul Quliyev bildirdi ki, barəsində yayılan informasiyalar səhvdir: “Fətullah Gülənlə heç vaxt görüşməmişəm və hətta rastlaşmamışam da. Çox təəssüf Azərbaycanda heç bir həqiqi mənbəyə söykənmədən məlumatların, daha doğrusu şayiələrin mediada yayılması artıq adətə çevrilib. Qəzetlərin ciddi informasiya vasitəsinə çevrilməsinin yeganə şərti müvəqqəti uğura uymayıb yalan məlumatlar yazmamasındadır”.

❑ **Etibar SEYİDAĞA**

# İslam dünyasının bəlaları Qərbdən gəlir?



**Kənan RÖVŞƏNOĞLU**

## Müsəlman aləmində geniş yayılmış xarici düşmən obrazı haqda qeydlər

**Bir zamanlar Şərqin böyük ideoloqu Camaləddin Əfqani müsəlman aləminin geriliyi və problemlərini iki amillə izah edirdi: xarici müstəmləkəçilər, daxili müstəbid rejimlər. Camaləddin Əfqaninin ölümündən 100 ildən artıq vaxt keçib, ancaq mövzu hələ də aktualdır.**

Müsəlman dünyasının geri qalmasının, iqtisadi tənəzzül, müharibələr, səfalətin səbəbləri haqda son 100 ildə də çoxlu sayda fikirlər söylənilib, əsərlər yazılıb, təkliflər irəli sürülüb. Ancaq bütün bunlar nəticəyə, daha doğrusu, mövcud vəziyyətə təsir etməyib. Və ən mühümü bütün bunları yaradan səbəblər mübahisəlidir. Ancaq bununla belə, ötən 100 ildə, əslində isə daha çox müddətdir müsəlmanların bəlalarının əsas səbəbləri sırasında xarici faktorlar, xüsusən də Qərb imperializmi, konkret olaraq Fransa, Britaniya, ABŞ kimi ölkələr göstərilir. Müsəlman dünyasının müxtəlif ölkələrində siyasi, dini qruplardan, hətta terror təşkilatlarından istifadə olunması, hakimiyyətlərin dəyişdirilməsi ilə bağlı ciddi, təkzibolunmaz dəlillər gətirilir. Hazırda müsəlman dünyasındakı proseslər, Suriyada, İraqda davam edən dəhşətli olaylar, İŞİD qruplaşması ilə bağlı iddiaların içərisində bu qruplaşmanın Qərbdən idarə olunduğu ilə bağlı iddialar var.

Lakin doğrudanmı belədir? Müsəlman dünyasının hazırkı vəziyyətində xarici güclər faktoru, Qərb imperializmi amili bu qədər ağırlıq təşkil edir? Bir qayda olaraq bu mövzu müsəlman ziyalılarını hər zaman bölüb. Bütün bəlaların səbəblərinin xarici olduğunu iddia edənlərlə xarici qüvvələri “günah keçisi” tutmaqda ittiham edənlər arasında fikir ayrılığı hələ də var. Azərbaycanda da bu mübahisələrin davam etdiyini nəzərə alaraq bir sıra məqamları qeyd etməyə dəyər.

17-18-ci əsrdə müsəlman dünyası zəifləyərək geri qalmağa başladı. Osmanlı və Səfəvi dövlətləri artıq Qərbdə gedən sənaye inqilabından və sürətli inkişafdan geri qalmışdılar. Buna paralel olaraq Qərb imperializmi üçün pərakəndə, geri qalmış müsəlman dünyası böyük bir müstəmləkə məkanı idi. Təxminən 100 il ərzində Qərb imperializmi müsəlman Şərqini müxtəlif vasitələrlə - güc yolu, maliyyə asılılığı, dini təfriqələr və sair vasitələrdən istifadə etməklə təsir altına ala bildi. 1922-ci ildə Millət Məclisi adı altında Yaxın Şərqi demək olar ki, Qərb müstəmləkəçiləri tərəfindən yenidən bölüşdürüldü. Bu xətt müəyyən dəyişikliklərlə də bu gün də davam edir. 21-ci əsrin əvvəllərində ortaya çıxmış Böyük Orta Şərq layihəsi isə iddialara görə Yaxın Şərqin yenidən şəkilləndirilməsini nəzərdə tutur. Doğrudur, bu layihənin gerçək olub olmadığı ilə bağlı rəylər toqquşur. Ancaq bir fakt var ki, hazırda Yaxın Şərqdə baş verənlər məhz bölgənin xəritəsini dəyişməyi nəzərdə tutan BOP layihəsinin detallarından ibarətdir. Təbii ki, bu məsələlərdə bir şişirtmə də var. Bir qayda olaraq problemləri kənarda axtarmaq elementləri açıq şəkildə hiss olunur. Amma bu faktları tamamilə inkar etmək də mümkün deyil.

Müsəlman dünyasının indiki vəziyyətə düşməsində əsas günahkar xarici amildən çox daxili faktorlardır. Daha dəqiq deyilsə, müsəlmanların dinə yanaşması ilə bağlı məqamlar sonradan böyük bəlalara səbəb oldu. İraq və Suriya hadisələri göstərdi ki, müsəlman dünyasının ən zəif nöqtəsi məhz İslam dini və müxtəlif cərəyanlara ayrılmış inanclardır. Müsəlmanlar üzərində İslamın böyük rolu danılmazdır. Maraqlı qüvvələr hər zaman İslam dünyasını məhz zəif nöqtəsindən vurmağa çalışıb və bəlli səbəblərdən buna nail olub. Çünki bu məsələdə bir çox hallarda İslamın yanlış yozumu, dini mətnlərin siyasi iddialara qurban verilməsi elementləri hər zaman qabarıq hiss olunub. Bu isə son nəticədə İslam üzərindən, müsəlmanların dini hissiyyatları üzərindən çirkin oyunlara səbəb olub. Nəticə isə çox ağır olub. Yaxın Şərqin ən böyük, inkişaf potensiallı ölkələri əsas gücünü və enerjisini dini bölücülüyə həsr etməli olub. Bu mənada müsəlman dünyasının əsas bəlalarının məhz “içərindən” qaynaqlandığını, xarici amillərin ikinci dərəcəli olduğunu demək olar.

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014



# Bakıda maşın qiymətinə velosiped satılır

## Velosiped son vaxtlar nəqliyyat növü kimi populyarlıq qazanıb; əməkdaşımız maşın qiymətinə satılan velosipedin hansı üstünlüyə malik olmasını araşdırıb

**Bir çox ölkələrdə velosipedlərdən ən əlverişli nəqliyyat vasitəsi kimi istifadə edilir. İnsanların rahatlığı üçün getdikcə cürbəcür velosipedlər icad olunur. Elə kiçik velosipedlər var ki, onlar minik maşınının yük yerinə yerləşir. Açılıb bükülən velosipedlər də var. Onları cəmi bir neçə dəqiqə ərzində iki hissəyə ayırmaq və yenidən birləşdirmək mümkündür. Belə velosipedlər şəhər əhalisi üçün çox əlverişlidir.**

Bəzi ölkələrdə isə velosiped operativ şəhər nəqliyyatı sayılır. Son illər Azərbaycanda da populyar olan bu nəqliyyat vasitəsindən əsasən gənclər istifadə edir. Üstəlik, ölkəmizdə keçirilən "Velotur"lar bu nəqliyyat vasitəsini tez bir zamanda populyarlaşdıraraq, istifadəçi auditoriyasını genişləndirdi. Bakıda velosipedlərə tələbat olduqca böyükdür. Paytaxtın nəqliyyat sisteminin bərbad olması insanların saatlarla tıxacda qalmasına, bu da öz növbəsində onların əsəb və stress keçirməsinə səbəb olur. Halbuki imkanı olanlar bu çevik və operativ nəqliyyat növündən istifadə etsələr, həm ciblərinə, həm də sağlamlıqlarına xeyir vermiş olarlar.

***

Azərbaycanda velosiped satılan mağazalar azdır. Həmin mağazalarda ucuz və sərfəli nəqliyyat növü kimi baxdığımız velosipedlər az qala maşın qiymətinə satılır. Elə buna görə də çoxları velosiped almaq üçün internet mağazalardan sifariş verməklə məcburiyyətinə qalırlar. Bakıdakı mağazalarda satılan velosiped qiymətləri və onların funksiyalarından danışmamışdan qabaq, bir az da sərfəli idman növünün tarixi barədə məlumat verək.

### İlk velosiped "samokat" adlanıb

Velosiped pedalla hərəkətə gətirilən ikitəkərli və ya üçtəkərli maşındır. İlk ikitəkərli və sükanlı velosipedi Rusiyada təhkimli usta U.M.Artamonov 1801-ci ildə düzəldib. Ona "samokat", yəni "öz-özünə hərəkət edən" deyiblər. Bu, doğrudan da belə olub, yəni oturmuş sürücü böyük qapaq təkərə birləşdirilmiş pedalları fırladanda velosiped hərəkətə gəlirmiş. Lakin Artamovun velosipedinin taleyi uğurlu olmayıb. O, çarın nadir şeylər kolleksiyasına daxil edilib və tezliklə yaddan çıxıb. Daha sonralar 1801-ci ildə Parisdə sükansız və pedalsız velosipedlər meydana çıxıb. Bu velosipedi sürücü ayaqları ilə yerə təkan verməklə hərəkətə gətirirmiş. 1815-ci ildə alman K.Drez sükanlı velosiped, 19-cu əsri ortalarında isə onun həmvətəni F.Fişer qabaq təkərində pedalı olan velosiped düzəldib. Beləliklə, Artamonovun sxemi yenidən həyata qayıdıb. O vaxt velosipedin təkərləri metaldan düzəldilirmiş. Qabaq təkəri bir adam boyunda olurmuş. Təkərdəki millərin sayı çox olduğundan, o, hörümçək toruna oxşayırmış. Buna görə ona "hörümçək" deyirmişlər. Bu "hörümçək" iyirmi ilə yaxın ömür sürəndən sonra onu öz quruluşu və görkəminə görə indiki velosipedlərə oxşayan yeni maşın əvəz etdi. Velosiped" latın dilində "itiayaq" deməkdir. Qeyd etmək lazımdır ki, bu ad özünü ilk vaxtdan doğrultdub. Hələ 1869-cu ildə Fransada 120 km məsafəyə keçirilmiş ilk yarışlarda velosiped o dövr üçün misli görünməmiş sürətə-saatda 11 km-ə nail olub. O vaxtdan müxtəlif idman yarışlarının iştirakçıları indiki ikitəkərli velosipedləri ilə şossedə, dərə-təpə yollarda, xüsusi velosiped stadionlarında sürətlə şütüyüblər. Onlar həm təkadamlı velosipedlərdə, həm də ikidamlıq velosipedlərdə-tandemlərdə məşq ediblər.








1893-cü ildən velosiped idmanı üzrə dünya, Avropa və digər yarışlar keçirilib. Velosiped yarışları ilk Olimpiya Oyunları proqramına daxil olub. İlk olimpiyadalarda bu idman növü tez-tez dəyişilirdi. Ancaq son vaxtlar velosipedçilərin proqramı dəyişilməz qalıb. Bura -1 km-ə git sprint yürüşü, 4 km məsafəyə fərdi və komanda yürüşü, şossedə 100 km məsafəyə komanda yürüşü və fərdi dairəvi yürüş daxildir.

### 6500 manata velosiped olar?

Bayaq dediyimiz kimi, Bakıda velosipedlər az qala maşın qiymətinə satıldığından bu nəqliyyat vasitəsini almaq istəyənlərin çoxu internet mağazalara üz tutur. Xarici ölkələrdən internet vasitəsilə sifariş verilən velosipedlər Bakıdakının yarı qiymətinə gəlib çıxır. "Bakıda velosipedlər nəyə görə bahadır" sualına isə paytaxtdakı idman mağazalarının birində cavab axtardıq.

**Şəhərin mərkəzindəki "United sport" idman mağazasında olarkən 6300 və 6500 manata velosiped satıldığının şahidi olduq. Qiymətin niyə belə baha olmasının səbəbini isə satıcıdan öyrəndik. Velosipedi bizə təqdim edən satıcı bildirdi ki, "Scott Genius 900 SL" modeli lüks velosiped sinfinə daxildir:** "Bir velosipeddə nə lazımdırsa, həmin komfort və funksiyalar məşhur "Scott"un bu modelində alıcılara təqdim olunur. 20 pilləli transmisiya ilə təchiz olunub. Əyləc tipi "HYR Disckbrake"dir. Çəkisi 11,4 kiloqramdır. Amortzasiya tipi hava-yağlıdır. Bu modelə 5 il zəmanət veririk. Sıradan çıxan hissələri zəmanət müddətində mağazamız tərəfindən pulsuz dəyişdiririk".

**Satıcı bildirdi ki, "Scott"un hər cibə uyğun velosipedi var:** "Bu markanın ən ucuz velosipedi 400 manatdan başlayır. Mağazamızda kredit və nağd ödəniş həyata keçirilir. İndiyə kimi bizdən velosiped alan hər bir müştəri məmnun qalıb".

**Satıcı xüsusi olaraq vurğuladı ki, havaların isti keçdiyi bu aylarda velosipedə olan tələbat artıb:** "Sifarişlərin ardı-arası kəsilmir. Bu da yay mövsümü ilə əlaqədardır. Yeni modellərimiz də gələcək. Velosipedə olan marağı hər kəs şəhərə çıxanda açıq-aydın öz gözü ilə görə bilər. Xüsusilə gənclərin sevimli nəqliyyat növü olan velosiped insan sağlamlığı üçün də xeyirlidir".

### "Velotrek" təmir olunur

Qeyd edək ki, velosiped idmanı üçün Bakıda iki böyük məkan var. Onlardan biri Yasamal rayonundakı "Velotrek"dir, digəri isə Səbayeldəki velosiped parkıdır. Hazırda "Velotrek" təmir olunur. Respublika "Velotrek"i bir vaxtlar nəinki Azərbaycanda, hətta keçmiş SSRİ məkanında ən yaxşı idman qurğularından biri olub. 1980-ci il Moskva Olimpiadası öncəsi, o vaxtlar Azərbaycana rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə inşa edilən arena 20 hektar ərazini əhatə edir. Keşmiş SSRİ-də bu tipli cəmi 2 idman qurgusu olub ki, bunlardan biri Latviyada, digəri isə Bakıda tikilib.

Baxımsızlıq ucbatından uzun illər istifadəsiz qalmış idman qurgusu hazırda Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən əsaslı təmir edilir. Burada yeni tribuna, federasiyanın ofisi və idmançıların qalması üçün hotel inşa edilib. Eyni zamanda hovuz, trenajor zalı və digər yardımçı obyektlərin də tikintisi davam etdirilir.

**Respublika Velotrekində təmir işlərinin bu ilin sonunadək başa çatması planlaşdırılır.**

**❑ Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

---

# AXDG silinən gəmilərlə bağlı açıqlama verdi

## 25 gəminin istismar müddətinin bitdiyi bildirilir; 1 il əvvəl Rusiyada saxlanan "Naftalan" tankeri isə hələ də buraxılmayıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin (AXDG) sabiq rəhbəri Aydın Bəşirovun qurumdan şəxsi əmlakı kimi istifadəsi haqda daha bir xəbər yayılıb. "Azadlıq" qəzeti "Aydın Bəşirov gəmiləri də yararsız vəziyyətə salıbmış" sərlövhəli yazı dərc edib. Həmin yazıda AXDG-nin 25 gəmini hesabdan sildiyi qeyd edilir: "2013-cü ilin oktyabrında iki dövlət müəssisəsinin bazasında QSC-nin yaradılmasından sonra 10 tanker, 9 quru yük gəmisi, 6 texniki gəmi hesabdan silinib.**

Bu məlumatdan aydın olur ki, Aydın Bəşirovun dövründə quruma məxsus gəmilər də yararsız vəziyyətdə olub. Bundan əvvəl tanınmış iqtisadçı Qubad İbadoğlu facebook səhifəsində Aydın Bəşirovu bitirəcək fakt açıqlamışdı. Tabeliyindəki Dəniz Nəqliyyat Donanması, Xəzər Dəniz Neft Donanması, "Biheybət" Gəmi Təmiri Zavodu, "Zığ" Gəmi Təmiri Zavodu, İstehsalat Xidmətləri İdarəsi və Sosial İnkişaf İdarəsi, eləcə də Türkiyə, Rusiya, Qazaxıstan, İran, Türkmənistan və Ukraynadakı nümayəndəliklərə və 383 milyon 420 min 621 manat nizamnamə kapitalına malik olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ötən il dövlət büdcəsinə cəmisi 100 min manat vergi ödəyib. Bu, o deməkdir ki, şirkət hər ay dövlət büdcəsinə orta hesabla 8333 manat, təxminən 3-4 kiçik müəssisənin ödədiyi qədər vergi ödəyib, baxmayaraq ki, bu cəmiyyətin adı hələ də iri vergi ödəyicilərinin siyahısında gedir.

**"Yeni Müsavat" əməkdaşı mövzu ilə bağlı AXDG-nin mətbuat xidmətinə müraciət edib. Xidmətin rəhbəri Vüqar Sadıqov deyib ki, 45-50 yaşı olan gəmilərin balansdan silinməsi labüddür:** "Burada Aydın Bəşirovluq bir iş yoxdur. Həmin gəmilərin təmiri rentabelli deyil. 45 yaşlı gəminin əsaslı təmirinə xərclənən vəsaiti həmin gəmi istismarı zamanı geri qaytara bilmir. 10 il ömrü olan "Jiquli"ni 30 il sürəndən sonra onun üstünə nə qədər xərc qoysanız da, artıq əvvəlki keyfiyyət olmayacaq. Bunun əvəzinə 10-12 min manata daha çox komfortu, üstünlükləri, qənaətciliyi olan yeni model maşın almaq olar. Yəni həmin gəmilərin də istifadə müddəti illər əvvəl ötüb".



Hazırda AXDG-nin 61 gəmisi, o cümlədən 33 tanker, 13 bərə, 2 sərnişin gəmisi, 184 ixtisaslaşmış gəmisi var. Bu il AXDG "Bakı Gəmiqayırma Zavodu"na 3 sərnişin gəmisi sifariş verib.

**V.Sadıqov ötən il avqustun 4-də Rusiya Federal Təhlükəsizlik Xidmətinin Xəzərin Rusiya ərazisindəki sularda saxladığı AXDG-yə məxsus "Naftalan" tankeri ilə bağlı sualımızı da cavablandırdı. O, 1 il əvvəl saxlanan gəminin hələ də həbsdə olduğunu təsdiq etdi:** "Yaxın zamanlarda bu məsələ haqda məlumat olacaq. Bu haqda mətbuata məlumat veriləcək. Bizdə olan məlumata görə, istintaq artıq yekunlaşmaq üzrədir. Gəmi, kapitanı və köməkçisi həbsdədir".

Qeyd edək ki, Rusiya FTX-nin yaydığı rəsmi məlumatda tankerdə oğurluq neft olduğu bildirilirdi. Tankerin kapitanı Asif İsmayıl oğlu Məhərrəmov və köməkçisi Ülvi Nobel oğlu Sultanzadə hazırda Mahaçqalada həbsdədir.

**❑ E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014

**ABŞ-ın Azərbaycandakı səfiri Riçard Morninqstar bəyan edib ki, hazırda işğal altında olan Dağlıq Qarabağ ətrafı 7 rayon Azərbaycana qaytarılmalıdır. Səfir publika.az-a açıqlamasında bildirib ki, ölkəsi Dağlıq Qarabağın sülh yolu ilə həlli ilə bağlı çox açıq mövqe bildirib: "Mövqeyimiz də ondan ibarətdir ki, Dağlıq Qarabağ istisna olmaqla, hazırda işğal altında olan 7 Azərbaycan rayonu geri qaytarılmalıdır. Bütün bunlar isə bilavasitə Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin tərkib hissəsi olmalıdır. Ümumiyyətlə, artıq Dağlıq Qarabağ münaqişəsinin yekun həlli yolu tapılmalıdır. Biz artıq bu barədə bəyanatlarımızı da vermişik".**



# "Qarabağ probleminin həlli ilə bağlı geriyədönməz proseslər başlayıb"

## ABŞ səfirlərinin "7 rayon qaytarılmalıdır" bəyanatları təsadüfən verilməyib

Morninqstardan bir gün əvvəl isə ABŞ-ın Ermənistandakı səfiri Con Heffern bəyan edib ki, Dağlıq Qarabağın Azərbaycana qaytarılması məsələnin yekun həlli zamanı müəyyənləşəcək.

O, hazırda əsas müzakirə mövzusunun tərəflər arasında hansı sülhməramlı qüvvələrin yerləşdirilməsinin müəyyənləşdirilməsi ilə bağlı olduğunu deyib: "Altı razılaşdırılmış elementə əsasən, Dağlıq Qarabağın son statusu azad iradə əsasında bəlli olacaq. Bundan sonra isə Dağlıq Qarabağ ətrafındakı rayonlar, Laçın istisna olmaqla, geri qaytarılacaq. Məsələ burasındadır ki, hansı ölkə və təşkilatın güclərinin burada sülhməramlı qüvvə kimi yerləşdirilməsi hələlik tərəflər arasında müzakirə mövzusudur".

ABŞ səfirlərinin 7 rayonun Azərbaycana qaytarılması məsələsini dilə gətirmələrinə rəsmi Bakı dərhal münasibət bildirib. **YAP icra katibi, baş nazirin müavini Əli Əhmədov** bildirib ki, Azərbaycanın mövqeyi Ermənistan ordusunun bütövlükdə işğal olunmuş ərazilərdən çıxarılmasından ibarətdir. O, ölkə başçısının fikrini xatırladaraq qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti ola bilməz: "Təbii ki, məsələyə yanaşma da yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində mümkün ola bilər. Ərazi bütövlüyünün bərpası müxtəlif konseptual yanaşmalar nəticəsində mümkündür. Kimlərsə bunun mərhələli həllini təklif edir, kimlərsə paket şəklində təqdim edir. Azərbaycan bu məsələdə mövqeyini dəfələrlə bəyan edib. Sırf 7 rayonun qaytarılması məsələsinə gəlincə isə məsələyə bu cür yanaşırıq: bunu bütövlükdə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinin bir mərhələsi kimi qəbul edə bilərik".

**Xarici işlər nazirinin müavini Araz Əzimov da prezident İlham Əliyevin bəyan etdiyi mövqeyə istinadla məsələyə münasibət bildirib:** "Cənab prezident İlham Əliyev iyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində çıxışı zamanı bildirib ki, 7 rayondan başqa Dağlıq Qarabağ ərazisi də işğal altındadır. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, işğal altında olan Dağlıq Qarabağ və ona bitişik 7 rayon boşaldılmalıdır. Azərbaycan tərəfi həmişə bu məsələni belə qoyub. Bizim dövlət başçımız həmin nitqində bunu bir daha təsdiq edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret aydın məsələlər ortadadır. Bunların həll edilməsi üçün prinsiplər aydındır. Azərbaycan dəfələrlə bildirib ki, problemin həllini hazırda durduğu nöqtədən irəliyə aparmaq üçün müzakirələrə hazırdır. Bu müzakirələrdə Azərbaycanın təklif etdiyi məsələlər aydındır. Öncə konkret tədbirlərin - işğal olunmuş ərazilərin boşaldılmasının gündəliyi, xronoloji sırası və ona paralel olaraq digər tədbirlərin görülməsi, qoşunların işğal olunmuş ərazilərdən geri çəkilməsi ilə torpaqların Azərbaycanın nəzarətinə alınması, yerli hakimiyyət orqanlarının bərpa edilməsi, təmizləmə işlərinin aparılması vacibdir. Ondan sonra orada normal həyat sürmək üçün şəraitin yaradılması məsələləri ilə bağlı olan addımların bir növ sülh planına daxil edilməsini mümkün hesab edərdik".

**Məsələyə politoloq Qabil Hüseynli də münasibət bildirib. Q.Hüseynli "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, səfirlərin bu bəyanatları təsadüfi deyil. Həmin bəyanatlar onu göstərir ki, Dağlıq Qarabağ probleminin həlli artıq ciddi bir nöqtəyə yaxınlaşıb və status-kvonun dəyişdirilməsinə dair Minsk Qrupuna üzv ölkələrin hamısı yekdildirlər:** "Ceyms Uorlikin təxminən iki ay əvvəl verdiyi açıqlamalar istisna edilərsə, Amerika səfirlərinin indiki bəyanatları daha ciddidir. Çox birmənalı qaydada Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş 7 rayonun Laçın dəhlizi istisna olunmaqla, geriyə qaytarılması haqqında vurğu edilir. Bu, onu göstərir ki, proseslərin indiki mərhələsində artıq illeqal danışıqlar prosesi gedir, Rusiya ilə müəyyən sövdələşmələr meydandadır. Fransa bu sövdələşmələrin içərisində var. Amma ABŞ sanki proseslərdən kənarlaşdırılmışdı. Uorlikin məlum bəyanatından sonra ABŞ-ın susması da belə bir təəssürat yaradırdı ki, Amerika proseslərin sadəcə hansı istiqamətə getdiyini izləyir və proseslərə qatışmağa meyli yoxdur. Amma son bir neçə gündə baş verən geosiyasi dəyişikliklər, məsələn, Ukrayna prosesləri, Rusiyada dərin iqtisadi böhranın yaranması ilə bağlı ortaya çıxan analitik araşdırmalar, Rusiya maliyyə nazirinin özünün bəyanatı onu göstərdi ki, Rusiya ciddi uğursuzluqlar zolağına düşüb. Belə vəziyyətdə Rusiyanın artıq iki ay bundan əvvəlki kimi fövqəl siyasət yürütməyə gücü yoxdur. Üstəlik də NATO özünün yeni strategiyasının hazırlandığını və bu strategiyanın Uelsdə keçiriləcək NATO zirvəsində təsdiq olunacağını açıq bəyan etdi. Söhbət Rusiyaya qarşı yönəlmiş, hətta Rusiyanın çökdürülməsi də adlandırıla biləcək bir layihənin işə salınacağından gedir. Yaranmış vəziyyətdə ABŞ imkan vermək istəmir ki, Cənubi Qafqazda problemlərin həlli onsuz baş versin. Çünki ABŞ bilir ki, Rusiyanın iştirakı altında həll geostrateji cəhətdən nələrin hesabına baş verə bilər. Amerika Rusiyaya ikinci nəfəs verilməsini istəmir. Bu ikinci nəfəsin də Dağlıq Qarabağ problemi ətrafındakı sövdələşmələr nəticəsində meydana gələ biləcəyindən ehtiyatlanır. Ona görə də ABŞ səfirləri birdən-birə çox açıq formada yeddi rayonun Azərbaycana qaytarılması haqqında ard-arda bəyanatlar verdilər".

**Politoloqun fikrincə, ABŞ Cənubi Qafqazda da təşəbbüsü ələ götürmək niyyətindədir:** "Bəlkə də bir çox şeylər Cənubi Qafqazdakı proseslərdən başlaya bilər fikrini də söyləmək mümkündür. Bu mənada Amerika 7 rayonun qaytarılması məsələsini populyarlaşdırır. Səfirlərin dalbadal səsləndirdikləri həmin bəyanatlar o deməkdir ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı geriyədönməz proseslər başlayıb. Gedən proseslər, hər halda, Azərbaycanın xeyrinədir. Yaranan Rusiya-ABŞ rəqabəti bu yayın sonuna qədər ortaya ciddi nəticələr qoya bilər".

**Politoloq Ərəstun Oruclu isə səfirin çıxışını regionda baş verən hadisələrlə əlaqələndirir:** "Eyni fikri daha öncə Ceyms Uorlik səsləndirib. Bu, Ermənistanın artıq seçimini etməsindən irəli gəlir. Yəni Ermənistan hakimiyyəti Rusiyanın layihələrinə qoşulmağa razılaşıb. ABŞ isə bu məqamda Azərbaycanı itirmək istəmir. Təbii ki, bu, eyni zamanda Azərbaycanın mövqeyini açıqlayacağı təqdirdə ərazi bütövlüyünün dəstəklənəcəyi ilə bağlı verilən mesajdır. Səfir vasitəsilə ABŞ bildirmək istəyir ki, regionda münaqişələrin qalması bütün dövlətlər üçün zərərlidir. Artıq münaqişənin həlli yaxınlaşır. Bu kimi fikirlər ABŞ tərəfindən Azərbaycana olan dəstəyin ifadəsidir".

Politoloqun sözlərinə görə, Rusiyadan fərqli olaraq, ABŞ rəsmiləri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz fikirlərini açıq şəkildə bildirirlər: "Rusiya rəsmiləri açıq şəkildə bəyanat verməsələr də, onların adından mediada xəbərlər yazılır. Gah Rusiyanın üç, gah da altı rayonu qaytaracağı ilə bağlı fikirlər səsləndirilir. Təbii ki, bu xəbərlər ölkə mətbuatına Rusiya vasitəsilə buraxılır. Ola bilər ki, ABŞ rəsmilərinin açıq fikirlərindən sonra Rusiya tərəfi də bu cür bəyanatlar versinlər. Hələ ki hər iki ölkə Azərbaycanı öz tərəfinə çəkmək üçün bu cür fikirlər səsləndirirlər. Rusiya Azərbaycana daha böyük vədlər verərsə, Ermənistandakı mövqeyini itirəcək. Burada çox ziddiyyətli məqamlar var. Yeddi rayonun gəlincə, bu məsələ çox ciddi müzakirə edilməlidir. Yeddi rayonun hansı şərtlər əsasında Azərbaycana qaytarılması çox mühüm məqamdır".

**VİP sədri Əli Əliyev Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması barədə deyilənlərə maraqlı şərh verib:** "Maraqlıdır, son dövrdə böyük dövlətlər yaman səxavətli olublar. Bir qədər əvvəl Rusiya siyasi isteblişmenti müxtəlif isimlərdə bizə 5 və ya 3 işğal altında olan rayonumuzu "peşkəş" etmək istədiklərinə eyham vururdu. Sanki "Sotheby's" auksionudur.

Azərbaycan tərəfi olaraq sual etməliyik- kim daha çox təklif edir? Sanki auksion qurmuş meqa oyunçuların satışa çıxardıqları lotların-torpaqlarımızın bizə aidiyyəti yoxdur. Öz aralarında rəqabət apararaq, kimin daha güclü olduğunu auksion rəqiblərinə nümayiş etdirirlər.

Rusiyanın təklifi aydındır. Artıq 1 ildən artıqdır ki, qlobal siyasətdə tərəf olmağı arzulayan şimallılar, bizi yeni imperiyalarının rekvizitinə çevirmək istəyini açıq şəkildə ifadə edirlər. Bir neçə rayonun qaytarılması bahasına dövlət müstəqilliyimizi əlimizdən almaq məqsədini güdürlər. Fikrimcə, Azərbaycansız Qarabağ bizə lazım deyil. Biz anlamalıyıq ki, Rusiya əzəli müttəfiqi Ermənistanı kənara qoyub, heç vaxt bizim haqlarımızı müdafiə etməyəcək.

Qərbin təklifini dənəməyə çalışaq. ABŞ-ın həm Ermənistanda, həm Azərbaycanda, həm də Minsk Qrupundakı səfirlərinin eyni fikirləri qısa müddətdə səsləndirməsi ciddi mövqedən xəbər verir. Belə görünür ki, Rusiyanın bu sahədəki fəallığından rahatsızlanan qərblilər ABŞ-ın timsalında öz təklifləri ilə çıxış etmək qərarına gəliblər. Onlar artıq 3-5 deyil, "Laçın dəhlizi" kənar, 7 rayonu qaytarmaq fikrində olduqlarını dilə gətirirlər".

**Ə. Əliyev şərhində qeyd edir ki, ətraf rayonların sayı ilə manipulyasiya edən həm Rusiya, həm Qərb tərəfi Dağlıq Qarabağ haqda susur, məsələni diplomatik şəkildə gözardı edirlər:** "Onların susması başa düşüləndir. Onlar konflikti həll etmək istədiklərindən cəmiyyətlərdə qıcıq yaradacaq məsələlərə toxunmurlar. Bizə rayonların qaytarılmasını təklif edən onlar, qarşı tərəfə də beynəlxalq təminat altında Dağlıq Qarabağın onlarda saxlanılması öhdəliyini götürürlər.

Belə vəziyyət bizə sərf edirmi? Təbii ki, yox. Bu öhdəliyi Azərbaycana sırıyan istənilən şəxs və ya hakimiyyət tarixi cinayət etmiş olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Etibar SEYİDAĞA

## “Nar Mobile” eşitmə qüsurlu insanları əhatə edən sosial fəaliyyətini davam etdirir

### Mobil operator “Nitq və eşitmə qüsurlular üçün məktəb” layihəsinə start verdi




**“Nar Mobile” mobil operatoru yeni “Nitq və eşitmə qüsurlular üçün məktəb” layihəsini reallaşdırmağa başlayıb. Belə ki, 2014-cü ilin iyul, avqust və sentyabr aylarında eşitmə qüsurlu insanların bacarıqlarının artırılması üçün mobil operator tərəfindən xüsusi kurslar təşkil olunacaq. Layihə çərçivəsində təşkil olunacaq kurslara yaşları 15 ilə 28 arasında olan nitq və eşitmə qüsurlu 25 gənc qatılacaq. Məşğələlər florist-dizayner, bərbər, kompüter texnologiyaları və dekorativ əl işlərindən ibarət olmaqla dörd istiqamət üzrə aparılacaq. Mobil operator kurslarda fərqlənən gənclərin işlə təmin edilmələri üçün də lazım olan dəstəyi əsirgəməyəcək.**

Fiziki imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya edilməsi missiyasına böyük töhfə verən “Nar Mobile” mobil operatoru artıq bir neçə ildir ki, bu təşəbbüslə çıxış edir. Mobil operator özünün “Eşitməmək - düşünməmək deyil” layihəsi çərçivəsində nitq və eşitmə qabiliyyəti məhdud olan insanları işlə təmin etmiş nadir şirkətlərdən biridir. Belə ki, şirkətdə hazırda 15 nəfər eşitmə qabiliyyəti məhdud olan əməkdaş çalışır. Bununla yanaşı, mobil operator eşitmə qüsurlu insanların kompüter biliklərinə yiyələnmələri üçün xüsusi olaraq kompüterdən istifadə video-kursları hazırlamışdır. “Microsoft Word”, “Microsoft Excel”, “Microsoft PowerPoint” və digər əsas kompüter proqramlarını tədris edən videokurslar eşitmə və nitq qabiliyyəti məhdud olan şəxslər üçün ilkin hazırlıq xarakteri daşımaqla bərabər, onların ofis mühitinə tamamilə rahatlıqla adaptasiya olmaları üçün geniş imkanlar yaratmışdır.

Fiziki imkanları məhdud olan insanlara karyera fürsəti verən “Nar Mobile” öz təcrübəsindən çıxış edərək digər şirkətləri də nitq və eşitmə qüsurlu insanları işlə təmin etməyə çağırır.

Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile”, 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır.

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

# Səhiyyə Nazirliyi Bakı Sağlamlıq Mərkəzini ictimaiyyətə tanıtdı

## Tərlan Bəbirov: “Xəstəxanamız dövlət xəstəxanası olduğu üçün bütün müayinələr pulsuzdur”

**İyulun 10-da Səhiyyə Nazirliyi yeni fəaliyyətə başlamış çoxprofilli müasir klinika olan Bakı Sağlamlıq Mərkəzində tədbir keçirdi. Tədbirdə məqsəd yeni fəaliyyətə başlayan Bakı Sağlamlıq Mərkəzini ictimaiyyətə daha yaxından tanıtmaq idi. Tədbirdə KİV nümayəndələri iştirak edirdi. Tədbiri açan Bakı Sağlamlıq Mərkəzinin direktoru Tərlan Bəbirov mərkəz haqda geniş məlumat verərək buradakı bütün xidmətlərin pulsuz olduğunu dedi:**

“Bakı Sağlamlıq Mərkəzinin təməli 2011-ci ildə qoyulub. 2014-cü il yanvarın 7-də isə açılışı olub. Xəstəxanamız martın 17-dən fəaliyyətə başlayıb. Bakı Sağlamlıq Mərkəzi 550 çarpayılıqdır. İki korpusdan ibarət olan bu mərkəzin bir binası 5 mərtəbəli, yanında yerləşən digər bina isə 6 mərtəbəlidir. 6 mərtəbədən ibarət olan binada əsasən cərrahiyyə əməliyyatları həyata keçirilir. 9 ümumi şöbə, 7 yardımçı şöbə var. Xəstələrə 3, endokoloji xəstələrə isə gündə 4 dəfə yemək verilir. Biz kənardan gətirilən yeməkləri qəbul etmir, pəncərələri açmağa qoymuruq. Xəstəxanamız kondisioner sistemi ilə işləyir. Palataların əksəriyyəti 2 nəfər üçün nəzərdə tutulub. Xəstəxanamız dövlət xəstəxanası olduğu üçün bütün müayinələr pulsuzdur”.












T.Bəbirov xəstəxanadakı avadanlıqların müasir tipli olduğunu və burada çalışan həkimlərin də mərkəzləşdirilmiş qaydada keçirilmiş test imtahanı ilə işə qəbul edildiyini bildirdi.

**Daha sonra jurnalistləri xəstəxana ilə tanış edən Bakı Sağlamlıq Mərkəzinin direktor müavini Cəmilə Ağazadə öncə bizi doğum şöbəsi ilə tanış edərək geniş məlumat verdi:** “Doğum şöbəsində müasir avadanlıqların demək olar ki, hamısı var. Bura 220 çarpayılıq doğum şöbəsidir. Mərkəzin ümumilikdə 137 işçisi var”.

**Daha sonra şöbənin müdiri Rəşad Sultan** da doğum şöbəsinin funksiyası haqda danışaraq xəstələrin rahatlığı üçün əllərindən gələni etdiklərini bildirdi. Elə biz bu şöbədə olarkən bir xəstənin də müayinəsi həyata keçirilirdi. Həkim bildirdi ki, xəstəxanaya doğum üçün müraciət edən şəxsin bütün analizləri həyata keçirilir.

Qeyd edək ki, doğum şöbəsində palatalar olduqca səliqəli, geniş və işıqlı idi. Avadanlıqlar isə demək olar ki, bütün tələblərə cavab verirdi.

Doğum şöbəsindən sonra Şüa diaqnostika şöbəsi ilə də tanış olduq. **Şüa diaqnostika şöbəsinin müdiri Ramin İbrahimov da buradakı aparatların funksiyaları haqda geniş məlumat verdi:** “Xəstəxanamız 5 aydır ki, fəaliyyət göstərir. Bizim şöbəmizdə son model kompyüter tomoqrafisi, maqnit rezonans tomaqrafiya və diktanrenqiniqrafiya cihazları var. Xəstəxana çox profilli olduğu üçün kompyuter tomoqrafisinin olması çox vacib məqamdır. Kompyuter tomoqrafisi aparatımız müasir ”Toşiba" markalı 128 kəsidlidir. Qiyməti isə 1 milyon manatdır. Bundan başqa, son model ultra səs aparatlarımız da mövcuddur. Emerte aparatı ilə isə yumşaq toxumalara, vətərlərə, oynaqlara baxılır. Kompyuter tomaqrafisi beyin qanamaları üçün ideal bir aparatdır. Qarın boşluğu və ciyərləri isə katedə müayinə edirik. Emerte aparatı rentgen şüa əsasında, kompyuter tomoqrafisi isə maqnit rezonans əsasında işləyir. Müasir dövrdə kompyuter tomaqrafisiz keçinmək mümkün deyil. Əvvəllər bunu rentgen əvəz edirdi. Bizim şöbədə hazırda 10 nəfər, şüa diaqnostikada isə 9 həkim var. İki nəfər həkim isə sırf rentgenlə məşğuldur. Digər 5 həkimdən 3-ü ginekoloji uzi ilə, 2 həkim isə ümumi uziyə baxır".

**Sonda xəstəxanadakı xidmətin nə dərəcədə yüksək səviyyədə olub olmadığını orada müalicə alan xəstənin dilindən eşitmək istədik. Abbas adlı yaşlı xəstə Lənkərandan gəldiyini və xidmətin yaxşı olduğunu dedi:** “İki nəfərlik palatada tək qalıram. Hər şey qaydasındadır. Yemək də vaxtı-vaxtında verilir. İki gündür ki, bu xəstəxanada qalıram. Bir qəpik də verməmişəm”.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**






YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014



# Sənədsiz evlərlə bağlı daha bir vəd

## Rəsmilər sökülləcək evlərə görə qaneedici kompensasiya veriləcəyini deyir

**Paytaxt sakinlərini illərlə narahat edən problem - sənədsiz evlərlə bağlı məsələ yenə də gündəmdədir. Bəzi ekspertlər bildirir ki, Bakı sakinlərinin bir qismini narahat edən əsas problemlərdən biri öz həllini tapma ərəfəsindədir. Bakıda 500 minə yaxın sənədsiz ev və tikilinin olduğu bildirilir.**

Qeyd edək ki, Bakı və ətraf qəsəbələrdə qeyri-qanuni xeyli tikililər mövcuddur. Bu da bir çox hallarda vətəndaşlarla dövlət qurumları arasında ciddi problemə səbəb olur. Həmin tikililərin dövlət qeydiyyatına alınması isə ciddi əngəllərlə qarşı-qarşıyadır. Problemin həlli üçün üç il əvvəl təşəbbüs qaldırılsa da, məsələ dalana dirənib. İndi isə bildirilir ki, qanunsuz tikililərin sənədləşdirilməsi ilə bağlı dövlət başçısının sərəncamına nəzər yetirilməyə başlanıb. Belə ki, Bakı Şəhər İcra Hakimiyyəti belə tikililərin siyahıya alınması prosesini başa çatdırıb. Bir neçə kateqoriya üzrə siyahı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib. Evlərin sənədləşdirilməsinə bu ilin sentyabrından başlanacağı da bildirilir.

Həmçinin bildirilir ki, sökülləcək evlərə normal şəkildə kompensasiya veriləcək. Bu, hətta sökülləcək sənədsiz evlərə də aid edilir. Bir neçə gün əvvəl baş nazirin müavini Abid Şərifov da mətbuata açıqlamasında bildirib ki, sökülləcək evlərə görə qaneedici kompensasiya ödəniləcək və bu, dövlət başçısının tapşırığı, göstərişidir.

Qeyd edək ki, söküntü işləri ilə əlaqədar həmin evlərin sökülməsi və əvəzində kompensasiyanın verilməməsi problem yaradır. Bakıda "Sovetski", "Kubinka", "Basin" kimi məhəllələrdə aparılan söküntü işləri bu səbəbdən narazılıqla qarşılanıb. Plana düşən evlərə görə normal şəkildə, bazar qiymətinə uyğun kompensasiyanın verilməməsi vətəndaşların evsizlik problemi ilə qarşılaşması təhlükəsi yaradıb. Evin qanunsuz tikilməsinə göz yumması müqabilində rüşvət almış səlahiyyət sahibləri isə həmişə məsuliyyətdən kənarda qalıb. Bəzi ərazilər üçün verilən kompensasiyanın məbləği məqbul olsa da, kiçik sahəyə malik evlər üçün sərfəli deyil. Ekspertlər isə bildirirlər ki, qeydiyyat sənədi olmayan evlərin sökülməsi müqabilində onlara kompensasiyaların verilməsi müsbət haldır.

**Ekspert Samir Əliyev də "Yeni Müsavat"a açıqlamasında bildirib ki, SSRİ dağıldıqdan sonra regionlardan paytaxta güclü axın olub. Bakı və Bakı ətrafında çoxlu sayda sənədli və sənədsiz evlər tikilib. İndi söküntü işləri ilə əlaqədar həmin evlərin sökülməsi və əvəzində kompensasiyanın verilməməsi ciddi narahatçılıq yaradır:** "Evin qanunsuz tikilməsinə göz yumması müqabilində rüşvət almış səlahiyyət sahibləri həmişə məsuliyyətdən kənarda qalır. Zərbə ya evini itirən vətəndaşa, ya da həmin evə görə, kompensasiya ödəyən dövlət büdcəsinə dəyir. Nəyə görə, hansısa məmurun səlahiyyət həddini aşmasının zərərini vətəndaş və onun vergisi hesabına formalaşan dövlət büdcəsi ödəməlidir? Bu gün əsas narazılıq verilən kompensasiyaların məbləği ilə bağlıdır. Bəzi ərazilər üçün verilən kompensasiyanın məbləği məqbul olsa da, kiçik sahəyə malik evlər üçün sərfəli deyil. Evin qeydiyyatsız olması isə vətəndaşın kompensasiya tələb etmək hüququnu daha da məhdudlaşdırır. Belə vəziyyətdə vətəndaşın qiymət diqtəsi etmək imkanı da olmur. Bu vəziyyətdə ona təklif edilən kompensasiya məbləği ilə razılaşmalıdır, əks halda, ümumiyyətlə, kompensasiya ala bilməyəcək. Yaxşı olardı ki, həm Bakıda, həm də ölkənin digər ərazilərində tikilmiş qanunsuz evlər təcili sənədləşdirilməlidir. Evin sənədsiz olması vətəndaşa təkcə kompensasiya üçün lazım deyil. Həmçinin evin girov qismində qoyulması evə qeydiyyat hüququnu itirir. Hazırda bələdiyyələrin əmlak vergisi yığa bilməməsinin əsas səbəbi də evlərin qeydiyyatsız olmasıdır. Qanunsuz evlərin sökülməsinə görə kompensasiya verilməsi yaxşı haldır, ancaq daha vacibi ədalət prinsipinin qorunmasıdır. Çünki qanunsuz evlərə görə verilən kompensasiya məbləği bir sıra hallarda bazar dəyərindən çox aşağı olur. Bu da haqlı narazılıq yaradır. Ona görə də kompensasiya verildikdə bu məsələyə xüsusi diqqət yetirilməlidir. Hökumət yeni qanunsuz tikililərə imkan verməməlidir".

**Yayılan son məlumatlara görə isə ya sənədsiz evlərdə yaşayanlar, ya da onların məskunlaşdığı ərazilərdəki kommunikasiya xətləri köçürüləcək. Baş nazirin müavini Abid Şərifov jurnalistlərə açıqlamasında qanunsuz evlərin sənədləşdirilməsi ilə bağlı yaxın bir-iki ay ərzində müvafiq addımların atılacağını vəd edib. Onun sözlərinə görə, bir neçə ay ərzində istər Bakıda, istərsə də respublikanın ayrı-ayrı bölgələrində evlərin və digər qanunsuz obyektlərin tikintisinə qarşı daha ciddi tədbirlər görmək gündəmdədir:** "Elə yerlər var ki, vətəndaş oranın sürüşmə zonası olub-olmadığını bilmir. Lakin ona orada torpaq verilir və adamlar başlayır həmin yerdə nəsə tikməyə. Bir müddət sonra isə orada hansısa səbəbdən sürüşmə baş verir və nəticədə həmin adamın xərci də batır. Bununla da biz vətəndaşlarımıza bilərəkdən və yaxud bilməyərəkdən problemlər yaradırıq. Kürün və digər çayların hövzəsində, selə qarşı tədbirlər görülən yerlərdə, kommunikasiyaların üzərində, yüksək gərginlikli elektrik xətlərinin altında, qaz borularının üzərində evlərin tikilməsi üçün rəsmi və qeyri-rəsmi icazələrin verilməsi hallarına rast gəlmək olar. Yəqin ki, yaxın aylarda bu insanların təhlükəsizliyinin qorunması məqsədilə tədbirlərin görülməsi məsələsinə baxılacaq".

Qeyd edək ki, 2011-ci ilin martında dövlət başçısı İlham Əliyevin Bakı Şəhər İcra Hakimiyyətinə göstərişindən sonra sənədsiz evlərin sənədləşdirilməsi sanki bir neçə ayın məsələsi sayılırdı. İ.Əliyev Bakı şəhərindəki sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı aidiyyəti qurumlara, o cümlədən Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıq verəndən bir il sonra ayrıca bir sərəncam imzalamışdı. 2012-ci ilin iyununda verilən həmin sərəncama görə, magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, neft və qaz yataqlarının olduğu torpaq sahələrindəki ev və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədilə komissiya yaradılmalı idi. Komissiya da həmin sahələrdə inşa edilmiş yaşayış evlərinə və digər tikililərə aid məsələləri araşdırıb təkliflərini üç ay müddətində prezidentə təqdim etməli idi. Ancaq ortalıqda hələ ki hər hansı siyahı yoxdur.

❑ **Röya RƏFİYEVA**

# Diplomatiyamızın Qarabağ üslubu



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Deyirlər, bir yalanı yüz dəfə təkrarlayanda yalançının özü də inanır. Bir o qədər də o yalanı eşidənlər usanırlar. Artıq bir nəsil "bu il bayrağımız Xankəndində, Şuşada dalğalanacaq", "bizim təkcə orduya ayırdığımız pul Ermənistanın büdcəsi qədərdir", "Azərbaycan yeddi dəfə düşmən ölkədən üstündür"..., bunun üstünə ölkədəki rifah, əmək haqlarının, təqaüdlərin artımı, yeni iş yerləri açılması ilə bağlı mifləri də əlavə etsək, görərik ki, biz tərif burulğanına düşmüşük...**

Sizə elə gəlməsin ki, bu sözlər təkcə daxili auditoriyaya ünvanlanır. Yanılırsınız. Bu cür üsluba bizim dostlarımız da, düşmənlərimiz öyrəncəli olublar... Ona görə də hər dəfə, hər fürsətdə tribunalarda barmaq silkələməyimizə əhəmiyyət verən yoxdur... Sayı-hesabı bilinməyən danışıqlar, görüşlər - amma bircə qarış da torpaq azad edilmir...

Bütün hallarda yanlışa da güzgü tutmaq olur, gec də olsa onu aradan qaldırmaq mümkündür. Diqqət yetirdinizmi, Rusiya heyrət doğuran bir tələsikliklə Ukraynanı bölməyə cəhd etdi, onun iki vilayətində referendum keçirdi, bu ölkənin içində ondan xəbərsiz müstəqil qurumlar yaratdı. Səslərin sayı da heyrət doğururdu - belə təsəvvür yaranırdı ki, təkcə ruslar yox, etnik ukraynalılar da bu bölücülüyü dəstəkləyirlər. Sonra rus diplomatiyası bütün gücü ilə münaqişəni "sülh yolu ilə həll etmək" adı ilə dondurmağa cəhd etdi. Ancaq Ukrayna Rusiyanın qurduğu tələyə düşmədi, ləngimədən öz torpaqlarındakı separatizmi elə öz yuvasındaca boğdu.

Gəlin açıq etiraf edək, Azərbaycan məhz 1994-cü ildə Rusiyanın qurduğu bu tora düşdü. Sonra da ona qarşı qurulan məkrli siyasətdən qurtulmaq üçün ciddi addımlar atılmadı... Əslində danışıqlar yolu ilə işğal edilmiş torpaqları bizə qaytaracağına ümid etməyin də bu dünyada analoqu yoxdur. Bizim həm daxili, həm də xarici siyasətimizdəki "uğurlarımız" isə müasir komediya üçün əla bir mövzu olardı.

Biz nədənsə bu prosesdə "toy generalları" kimi Azərbaycana gəlib-gedənlərin dediklərini də, bizim torpaqlarımızı azad etmək istəyimizə qarşı hansısa dövlətlərin müqavimət göstərdiyini də həddən artıq şişirdirik. Aydın məsələdir ki, iki dövlət arasında gedən savaşda kimsə kimisə müdafiə edir, amma bu, sözdən o yana keçmir... Məhz buna görə də biz Rusiya amilini də, fransızların ermənilərə tərəfkeşliyini də həddən hiperbolik həddə çatdırırıq. Özü də bütün bunlar Azərbaycanın öz tarixi torpaqlarını azad etmək üçün ciddi addım atmadığı bir vaxtda baş verir.

Bəyəm bunu anlamaq çoxmu çətindir ki, artıq 25 ildən çox ömrü olan bu konfliktdə kənar təsirlə razılaşma əldə edilsə belə Azərbaycanın xeyrinə olmayacaq. Bax ondan sonra bizim güc yolu ilə ərazilərimizi işğaldan azad etməyimiz beynəlxalq müqavimətlə qarşılana bilər. İndiki halda nisbi də olsa, şərtlər bizim tərəfimizdədir.

Tribunadan usanmadan, yorulmadan bu illər ərzində Qarabağın azad edilməsindən danışanlar heç fərqində də deyillər ki, bu qədər boş vədləri insanlar çox laqeydliklə, hətta ironiya ilə qarşılayırlar. Bir nəsil belə vədlər axarında böyüyüb, o yerlərin həsrəti ilə yaşayanların sırası isə getdikcə seyrəlir.

Gəlin açıq etiraf edək, indi 20 il əvvəlki kimi vətənpərvər deyilik... Sayı-hesabı bilinməyən vədlər işimizdəki odu-ocağı söndürüb... Tüstüsü isə gözümüzü acışdırır...

Hətta bu günümüzlə bağlı qəti addım atmaq məqamı gələndə də bizim dövlətin adından danışanlar artıq ənənəyə dönən üsluba sadiq qalırlar. Susmaq, "bəlkə bela bizdən yan keçdi" təsəllisi ilə yaşamaq yolu seçilir. Hələ də bizi öz strateji maraq dairəsinə aid edən, istədiyi kimi rəftarı məqbul sayan şimal qonşumuz isə belə susmağımızı məmnunluqla izləyir... Bizim Putinin yaratmaq istədiyi birlikdə olmayacağımızı bildirməyimiz əslində siyasi gündəmdə ciddi dönüş ola bilərdi. Həm də bizə yönələn aqressiv münasibətə qarşı Qərbin dəstəyini qazandırardı... Rusiyanın dünya siyasi səhnəsində təklənməsi də bir tarixi fürsətdir.

Qərbin Rusiyaya yönələn siyasi və iqtisadi sanksiyaları izsiz ötüşmür, Rusiyada Putinin qəzəbin bumeranq kimi qayıdıb özünü hədəfə aldığını da yaxşı dərk edirlər. Belə bir vaxtda ikinci cəbhə açılması heç cür ona sərf etmir. Elə onun cənub bölgələrində də vəziyyət yaxşı deyil. Bizi hədəfə almaq fikrinə düşsə özü iki od arasında qala - Çeçənistanda, İnquşetiyada və Dağıstanda arxadan zərbə ala bilər...

Biz isə bu dəfə də fürsəti əldən veririk.

YENİ MÜSAVAT
N 176 (5885) 11 iyul 2014




# Qədr gecəsi - qarşıdakı ildə taleyin müəyyən olunduğu gecədir

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bir neçə günə Qədr gecəsinin birinci əhyasına qədəm qoyacağıq. Əslində, çox önəmli bir gecəyə yaxınlaşırıq. Çox təəssüf ki, insanlar arasında hələ də Qədr gecələri ilə bağlı lazımi maarifləndirmə işləri getməyib. Bunun səbəblərindən biri də öz yanaşmamızdır. İnsan özü üçün hər bir şeyi adiləşdirə bilən bir varlıqdır. Bəzən avtomatik olaraq, o qədər Qədr gecələri kimi nemətlərin içində oluruq ki, tam sürətdə bu gecələrin, saatların, dəqiqələrin dəyərini dərk etmirik. Gözümüzü açandan bu nemətlərin içində olduğumuz üçün, bizim üçün adiləşdiyi üçün tam surətdə bu gecələrin, bu günlərin, bu saatların nə olmasını unuduruq. İlk dəfə eşitdiyimiz zaman, ilk dəfə yaşadığımız zaman qəlbimizdə olan o həyəcan indi olmur. İllər keçdikcə həm Ramazan ayının, həm də Qədr gecələrinin formaca zənginləşməsinə baxmayaraq, məzmunca bir azalma, daralma baş verir. Biz bu gecələrə xüsusi önəm versək də, onu keçirsək də, gecə əhya saxlasaq da, onun tam mahiyyətini, dəyərini verə bilmirik. Toplumda da Qədr gecəsinin mahiyyəti, dəyəri ilə bağlı bilgi zəifdir.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Qədr gecəsi ilə bağlı ən mühüm sözü Allah özü deyir

Varlıq aləmində müxtəlif hadisələrin, müxtəlif baş verənlərin ayrı-ayrılıqda çəkisi və dəyəri var. Qədr gecələri ilə bağlı vəziyyət o qədər ciddidir ki, bu gecədə baş verənlər o qədər önəmlidir ki, bu gecədə olacaqlar Allah qatında o qədər fövqəladədir ki, Allah Təala Özü bu barədə insana xəbər verir. Bəzən bu sözləri, mövzuları o qədər eşitmişik, o qədər oxumuşuq ki, bizim üçün adiləşib, öyrəşmişik, məna, mövzu özü bir qıraqda qalıb, mətn özü kənarda qalıb, amma biz onun təfərrüatlarında dolaşırıq. Onun əhəmiyyətinə diqqət etmirik. Qədr gecəsi ilə bağlı ən mühüm sözü Rəbbimiz özü deyir: **"Həqiqətən Biz onu (Quranı) Qədr gecəsində nazil etdik (Quran bütünlüklə, bir dəfəyə, feyz mənbəyindən birinci səmaya, yaxud Peyğəmbərin (s) mübarək qəlbinə Qədr gecəsində nazil oldu. Sonra isə tədriclə birinci Peyğəmbərin mübarək qəlbinə və Peyğəmbərin (s) mübarək qəlbindən də ümmətə çatdırıldı). Sən nə bilirsən ki, Qədr gecəsi nədir?"** Göründüyü kimi, Rəbbimiz insan hidayəti üçün bənzəri olmayan, alternativi olmayan bir hidayət kitabı haqqında məlumat verir. Qurani-Kərimə etiqadı olan biri üçün bu, çox önəmlidir ki, Allah Təala Qurani-Kərimi məhz bu gecə nazil etdiyini bildirir.

## "Sən nə bilirsən ki, Qədr gecəsi nədir?"

Surənin davamında Allah Təala gecənin əhəmiyyətini, mahiyyət və əzəmətini çatdırmaq üçün sual edir: **"Sən nə bilirsən ki, Qədr gecəsi nədir?"** Allah Təala bu sualla insanın diqqətini cəlb etmək istəyir. Ayədən aydın olur ki, insanın özü-özünə Qədr gecəsi ilə bağlı bilgisi yoxdur. Qədr gecəsinin nə olması, özündə nələri ehtiva etməsi hansısa elmləri öyrənməklə əldə olunmur. Bu, hansısa vasitələrlə əldə edilən və ya təlim keçməklə formalaşan bilgi deyil. Əgər Allah Təala Qədr gecəsi barəsində məlumat verməsə, insan üçün bununla bağlı hansısa maarifləndirici bir iş görməsə, insan Qədr gecəsi ilə bağlı bir yerə çata bilməz. Qədr gecəsinin dəyərini müəyyən etmək üçün bircə bu kifayətdir ki, Allah Təala Qurani-Kərimi, yəni Qiyamət gününə qədər hər birimizin mövcudiyyətini həll edə bilən bir kitabı, insanlığın hidayət çırağı olan bir kitabı məhz bu gecə nazil etdiyini bizə çatdırır. Ardınca Rəbbimiz bizim tutumlarımıza uyğun olaraq, bizə bu mövzu ilə bağlı anlaya biləcəyimiz bir məlumat verir: **"Qədr gecəsi min aydan daha xeyirlidir".** Bu gecədəki xeyir və bərəkət, faydalanma Rəbbin qatında min ayın içində ola bilən xeyir və bərəkətlərin hamısından daha xeyirlidir. Çünki Qədr gecəsi nəinki min gecədən, min aydan daha üstün bir dəyərə sahibdir. Biz bu ayələrə diqqət etsək, görəcəyik ki, Qədr gecələri ilə bağlı artıq üçüncü bilgi verilərdə Allah Təala bizimlə başərin öyrəşdiyi, anladığı, bəşərin dərk etdiyi, vərdiş etdiyimiz məntiqdən fərqli bir məntiqlə danışır. Allah Təala bizim baxışlarımızı dünyada din adına təqdim olunandan kənara çıxardır və bizi ayrı məntiqlə tanış edir. Bir gecənin min aydan üstün ola biləcəyini bizim diqqətimizə çatdırır. İnanan, diqqət edən, səmimi qəlblə hiss edən, bunu yaşadan insan üçün Qədr gecəsi adi insandan tamam ayrı mənaları kəsb edir və ya etməlidir. Bəzən toplumda insanlar öz sözünü əsaslandırmaq üçün deyirlər ki, bu, Quranda da yazılıb. Bəli, bu, həmin Quranda yazılan məsələlərdəndir, amma insanlar o qədər xəbərsizdirlər, o qədər maarifçilik işləri getməyib ki, bilmirlər, ildə bir neçə gecə var ki, onların bütün il boyu müqəddəratı, vəziyyətləri, durumları tənzimlənir, müəyyən olunur. Yalnız namazlarının, oruclarının necə olacağı tənzimlənmir, həm də maddi və mənəvi ruzilərin hamısı, tutum və qabiliyyətlərin, istedadların, həyatının bütün çalarlarının taleyi burada həll olunur. İnsanlar bundan ona görə qəflətdədirlər ki, dünyada hər şey insanın Allahla bağlı bu bağlantısını yığışdırmağa hesablanıb. Müxtəlif məşğuliyyətlərlə, əyləncələrlə, maddi illüziyalarla 365 gün çalışılır ki, insanın Allahla rabitəsi kəsilsin, insan Rəbbin dərgahında olmasını unutsun. Amma ildə bir gün var, Allahın bir inayəti var və əgər insan bu günə, bu inayətə diqqət etsə, ruhi, fiziki, əxlaqi, psixoloji hər nəyi varsa, Rəbbi ilə təmasa girər və Allah bəndəsi olar.

## 124000 peyğəmbər (ə) insanı ayıltmaq üçün gəlib

İnsan gərək bu gecənin qədrini bilsin. Bu gecə varlıq aləmində bizim öyrəşmədiyimiz hadisələrin baş verdiyi gecədir. Məsumlardan (ə) buyurulur: **"Mələklər Qədr gecəsi Yerə enirlər və Yer üzünə yayılırlar; möminlərin məclislərinə baş çəkirlər, onları salamlayırlar və onların duaları üçün "Amin!" deyirlər. Və bu vəziyyət dan yeri sökülənədək davam edir".** Şeytan lənətliyin ən böyük uğuru budur ki, bütün günü, həftəni, ili, bütün ömrü boyu insanı məşğul edir. Sanki insan üçün bir yaşayış rəsmi cızır, bir norma müəyyənləşdirir ki, hər kəs həyatını buna uyğunlaşdırsın. Müasir dönəmin də bütün məsələləri məhz buna hesablanıb. Peyğəmbərlər (ə) də məhz buna qarşı söz demək üçün, insanı ayıltmaq üçün gəliblər. Allahın yüz iyirmi dörd min peyğəmbəri (ə) bunun müqabilində gəlib. O tərəfdən insanı qəflətə aparıblar, peyğəmbərlər (ə) gələrək deyiblər ki, Allah "Mən səni buna görə yaratmamışam", - deyir. Sanki insan bir zombi həyatı yaşayır. İnsan hər kəsə, hər şeyə xidmət edir, özündən başqa. Axı insan 16-17 saat yeməyib, içməyib, yaşaya biləcək bir varlıqdır. Ramazan ayı bizə bunu xatırladır. Ramazan ayı insanın təkcə yemək-içmək üçün dünyaya gəlmədiyini xatırladan aydır. Bugünkü dünya buna hesablanıb ki, insan qəflətdə olsun, özündən başqa, varlığından başqa hər bir şeyin xidmətində dursun, amma özü ilə məşğul olmasın. Buna vaxtı çatmasın. İnsan qəflətdədir. Quran ona başqa cür yaşamasını bildirir, amma o, fərqli cür yaşayır. Nə bağçasında, nə məktəbində, nə universitetində, nə televizorda, nə toplumda, nə ictimai rəydə Allahın insanla bağlı nə dediyi çatdırılmır.

## Niyə bu gecə Qədr adlanır?

Ayənin davamında Allah Təala bunun bir qədər detallarını, təfərrüatlarını açır: **"O gecə mələklər və Ruh (Cəbrayıl, ya mələklərdən olmayan başqa bir şərəfli varlıq) Rəbbinin izni ilə (həmin gecədən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işdən (hər bir işin təqdir, tənzim və sabit edilməsindən) ötrü yerə enər. O gecə dan yeri sökülənə qədər hamı salamatlıqda və (Allahın) rəhmət(in)də olar. Və (o gecə mələklərin yer üzündəki məsumu və saleh bəndələri) salamlama gecəsidir".** Deməli, Qədr gecəsinin dəyərini anlamaq baxımından, ayələrdə də keçdiyi kimi, Quranın bu gecədə nazil olması, bu gecənin ibadətinin və əhyasının min aydan üstün olması, bəndələr üçün İlahi xeyir və bərəkətlərin bu gecədə nazil olması, mələklər və Ruhun bu gecədə yerə enməsi, Allahın xüsusi rəhmətinin bəndələrinin halına şamil olması çox mühümdür. Bütün bunlarla yanaşı, Allah Təala bu bilgini bizdən əsirgəməyib, bizim başa düşə biləcəyimiz dildə bunu bizim diqqətimizə çatdırıb. Bircə bizim bundan feyz apararaq, faydalanmağımız qalır. Bu gecənin də Qədr adlandırılmasının səbəbi budur ki, mələklər təqdir və talelərin müəyyən edilməsi üçün, xeyir və bərəkətin gətirilməsi üçün bu gecədə nazil olur.

## "Bu, mənim təqdiratımın müəyyən olduğu gecədir" qənaətinə gəlmək

Bəli, ümumilikdə götürəndə bütün toplumda bu gecənin əhəmiyyəti hələ də oturuşmayıb. Toplumun böyük bir hissəsi var ki, bu gecənin nə olduğunu bilmir, anlamır, o maarifçilik dalğası gedib onlara çatmayıb. Nə üçün çatmayıb? Bizlər Qədr gecəsinə "bu, mənim təqdiratımın müəyyən olduğu gecədir" kimi baxmırıq. Bizlər, "bu, o gecədir ki, Allah Təala bu gecədə Quranı nazil edib və mənə xəbər verib ki, sən nə bilirsən bu gecə nədir?!", - deyə düşünmürük. "Sən nə bilirsən, Qədr gecəsi nədir?!" ayəsindən anlaşılan budur ki, əslində Allah Təala burada bizlər üçün maraq qıcığı yaradır. Ağlı olan normal bir insanın intellektual qıcığı olmalıdır ki, Allah Təala ona: "Sən nə bilirsən ki, Qədr gecəsi nədir?" kimi sual verir. Bundan sonra damcı-damcı, mərhələ-mərhələ məlumat verir ki, bu gecə min aydan üstündür, bütün ruzilər, bərəkətlər, xeyirlər bu gecədə həll olunur. Allah Təala xəbər verir ki, mələklərin və Ruhun bu gecə Rəbbin izni ilə missiyaları, məmuriyyətləri var ki, gələn ilin Qədr gecəsinə qədər hər bir işin təqdir, tənzim və sabit edilməsi üçün yerə ensinlər. Bütün il boyu bizim təqdiratımızın nə olacağı bu gecə müəyyənləşdirilir və Allah Təala buna müdaxilə edə bilməyin yolunu bizə göstərib ki, o da tövbə və bağışlanmadan keçir. Allah Təala bizlərə həqiqi tövbə nəsib etsin, inşallah.

## Yatmaq ayıbdır, çünki mələklər sənə görə yerə enib

Ayədə keçən bir mühüm nöqtə də bundan ibarətdir ki, Allah Təala o gecə dan yeri sökülənə qədər hər kəsin salamatlıqda, Allahın rəhmətində olacağını və o gecə mələklərin yer üzündəki Məsumu (ə) və saleh bəndələri salamlama gecəsi olduğunu bizim diqqətimizə çatdırır. Əhya saxlamağın da bir çaları buradan başa düşülür. Belə ki, mələklər bizə görə yerə enib, ayıbdır ki, yataq.

Bu gecə - bağışlanma və tövbə gecəsidir. Bu gecədə bağışlanmasaq, deməli, bizlər acizlik göstərmişik. Bu gecədə bağışlanmasaq, deməli, bizdən fərasətsiz adam yoxdur. Bu gecə hər bir şey hazırdı ki, bizlər tövbə edək və bağışlanaq. Göylər açıq, gecələr uyğun, ruhiyyə uyğun, vəziyyət uyğun. Bu gecələrdə hər bir şey həll olunur. Xüsusən aqibətlərimizin həll olunmasına diqqət etməliyik. Qüruru, mənəm-mənəmliyi kənara qoyub, həqiqi tövbə etməliyik. "Allahım, mən çox pis vəziyyətdəyəm, Sən inayət etsən, bəlkə düzəldim", - deyən insan, xilas olmaq, qurtulmaq baxımından əməli ilə öyünən insandan daha şanslıdır. Tarix göstərib ki, "hər şey qaydasındadır, namazımı qılıram, orucumu tuturam və s", - deyən, əməlinə arxayın olan insan bir də ayılır ki, ilkin imtahanlarda ayağı büdrəyib və bədbəxt olub. Amma durumundan narahat olan, öz vəziyyətindən narazı qalan, bu mənada bir gərginliyi olan adam daha diqqətli olar, həyatın mahiyyətinin fərqində olar, gözləmədiyi yerdə, dərk etmədiyi yerdə, hazır olmadığı yerdə imtahanların gəlib insanı haqlamasının fərqində olar.

İnsanın həmin o imtahanlardan çıxa bilməsi bu gecə həll olunur. Tutumumuzun vəziyyəti bu gecə həll olur. O imtahanlarda səbəblərin, faktorların, müqəddimələrin vəziyyəti bu gecə həll olunur. Allah Təala Özünə aid nə varsa - edib, rəhmətini inayət edib. Gecə - ən mübarək gecədir və bütün şərait də var ki, bizlər gəlib, tövbə edək və bağışlanaq. Allaha bağlı nə varsa, O, təmin edib. Ay - ən mübarək aydır, gecə - ən mübarək gecədir. Əhya saxlayanlara xüsusən inayət edib ki, bu gecə əhya saxlasınlar.

## İslamda özünə arxayınlıq dindarlığı yoxdur

Bəzən insanlar bu müvəqqəti dünyada uğursuzluqlara o qədər peşman olur ki, adam dəhşətə gəlir. Dünyada başına gələn uğursuzluğu o qədər böyüdür ki, o qədər faciəyə çevirir ki, adam məəttəl qalır. Amma özünün gerçək aqibətinin müəyyənləşdiyi bir gecə barəsində heç düşünmür. Düşünmür ki, bəlkə də mənim üçün bir daha Qədr gecəsi olmayacaq. Hər birimiz adicə telefonlarımızın yaddaşına baxsaq, hər il zəng vura bilməyəcəyimiz adamların çoxaldığını görərik. Sən o adama bir il əvvəl desəydin ki, bu gecə Qədr gecəsidir, gəl ibadətə və s., o, deyərdi ki, hələ qabaqda bir ömür var, imkanlar var. Amma həmin adam artıq həyatda yoxdur. Bu, hər kəsə aiddir. Heç kəs arxayın olmamalıdır. İslamda özündən, əməllərindən razı olan, özünə arxayın olan dindarlıq yoxdur. Düzdür ki, bizlər Allahın rəhmətinə ümidliyik, amma öz əməllərindən arxayın olmaq - gerçək qəflətdir və bunun Allahın rəhmətinə ümid bağlamağa heç bir aidiyyəti yoxdur.

**Allahım, bizləri Qədr gecələrinin fəzilətindən fayda aparanlardan qərar ver.**

**Allahım, təqdiratımızı Öz xeyrinlə bəzə.**

**Allahım, bizə bu gecələrdə tövbə və bağışlanma nəsib et.**

**Allahım, bizlərə Qədr gecələrində üzərimizə düşənləri icra etməyi nəsib et.**

**Allahım, Zəmanə Sahibinin (ə.f) zühurunu təcil et. Amin!**

# "Bandit" ləqəbli Xames Rodriqes




## Braziliya mundialının bombardiri siyahısında olan kolumbiyalı kimdir?

**İki gün sonra Braziliyada keçirilən XX dünya çempionatı başa çatır. Cənubi Amerikada keçirilən bu çempionatda da sürprizlərlə zəngin oldu. Bəzi futbolçular karyeralarına Braziliyada nöqtə qoysalar da, bəzi oyunçuları bütün dünya tanıdı, ulduzları parladı. Ulduzu parlayanların sırasında isə bir oyunçu diqqəti xüsusilə cəlb etdi.**

Bu, Kolumbiya millisinin yarımmüdafiəçisi, adını çempionatın bombardirləri siyahısında Leonar Messi, Neymar, Müller, Robin Van Persi, Aryen Robben kimi oyunçularla bir sıraya yazdıran Xames Rodriqesdir. Braziliya çempionatında beş ən yaxşı futbolçu müəyyənləşərsə -Messi, Neymar, Robben, Navasın sırasında mütləq Xames Rodriqesin də adı olmalıdır. Bu sayımızda "Braziliya çempionatının ulduzları" rubrikasında Kolumbiya millisinin və Fransanın "Monako" klubunun yarımmüdafiəçisi haqda daha ətraflı danışacağıq.

***

Xames David Rodriqes Rubio 1991-ci il iyul ayının 12-də Kolumbiyanın Kukuta şəhərində anada olub. Boyu 178 sm, çəkisi 77 kiloqramdır. İspan dilində adı Ceyms kimi ifadə edilsə də, onun özü Xames çağırılmasının daha çox bəyənir. Azarkeşlər və komanda yoldaşları arasında "Bam-Bam", "Bandit"("El Bandido") və "Ceyms Bond" ləqəbləri ilə də tanınır.

Xames Rodriqes futbolçu kimi karyerasını Kolumbiyanın "Enviqado" klubunda başlayıb və bu əyalət komandasının yetirməsi hesab olunur. Əvvəl bu klubun gənclərdən ibarət heyətində oynayan Xames ilk gündən sürətli oyunu və texnikalı ötürmələri ilə məşqçilərin diqqətini cəlb edə bilib. Cəmi iki il gənclərlə oynayan Xames 2006-cı ilin ikinci yarısından 15 yaşı olmasına baxmayaraq "Enviqado"nun əsas heyətinə çağırılıb. Həmin il onun oynadığı klub Kolumbiyanın ikinci diviziononun qalibi olur ki, bu uğurda Xamesin vurduğu qolların da ciddi köməyi olur. "Enviqado"nun heyətində yarımmüdafiəçi mövqeyində oynayan Rodriqes tezliklə Kolumbiya Futbol Assosasiyasının rəhbərliyinin də diqqətini cəlb edir və onu gənclərdən ibarət milli komandanın heyətinə məşqlərə çağırırlar. O, Kolumbiyanın gənclərdən ibarət yığma komandasında da tezliklə özünü bacarıqlı oyunçu kimi göstərir. Rodriqes Kolumbiyanın gənclərdən ibarət yığmasında keçirdiyi 11 oyunda rəqib qapılarına 8 dəfə yol tapa bilir. Onu Kolumbiyanın "yeni Valderramosu" adlandırmağa başlayırlar.

2008-ci ilin yanvarında Xames "Enviqado"dan Argentinanın "Banfild" klubuna keçir. Klubda keçirdiyi ilk oyunda da Rodriqes fərqlənməyi bacarır. Rodriqes bu qolla iki rekorda imza atır. O, Argentinanın futbol tarixində ən gənc əcnəbi oyunçu və ən gənc qol vuran əcnəbi futbolçu olur. Tezliklə Rodriqes "Banfild"in əsas heyətində də möhkəmlənir. Onun komandanın heyətində uğurlu oyunu klubu Argentina çempionatının lideri mövqeyinə yüksəldir. 2009-cu il sezonunda isə çempionluq uğrunda həlledici görüşdə o, "Hyuells Old Boyz" klubunun qapısına qol vuraraq klubuna illərdir həsrət qaldığı Argentina çempionluğunu qazandırır.

2009-cu ilin dekabrında Xames Cənubi Amerika qitəsinin ən gənc və perspektivli oyunçusu kimi məşhurlaşır. Tezliklə onunla Avropanın nüfuzlu klublarının menecerləri də maraqlanmağa başlayır. İtaliyanın "Udineza" klubu yarımmüdafiəçinin transferi üçün sərfəli müqavilə təklif edir. Amma "Udineza" ilə razılaşma ərəfəsində Portuqaliyanın "Portu" klubu Rodriqes üçün 5,1 milyon avro təklif edir. Müqaviləyə görə, "Banfild" oyunçu üzərində 30 % haqqının da saxlamalı idi. Beləliklə, 2010-cu ilin yayında Rodriqes "Portu" ilə 4 illik müqavilə imzalayır.

Xames "Portu" da ilk oyununu Hollandiyanın məşhur "Ayaks" klubuna qarşı keçirir. Yoldaşlıq görüşündə Rodriqes "Portu"nun yeganə qolunun müəllifi olur. İlk rəsmi oyununu "Maritbuma" klubuna qarşı keçirən kolumbiyalı 1 qol vurur və iki uğurlu ötürmə edir. "Portu"nun heyətində Avropada ilk qolunu isə 2010-cu ildə Bolqarıstanın MOİK klubuna qarşı oyunda vurur. Rodriqes "Portu" nun heyətində keçirdiyi ilk mövsüm klub üçün çox uğurlu olur. Belə ki, "Portu" Portuqaliya superkubokunu və ölkə çempionluğunu qazanır. 2011-ci ildə Rodriqes Portuqaliya klubu ilə müqaviləsini 2016-cı ilədək uzadır. Amma müqaviləyə belə bir bənd əlavə edilir ki, əgər bu müddətdə oyunçu transfer olunarsa, kluba 45 milyon avro ödənilməlidir.

2013-cü ilin may ayının 24-də Fransanın "Monako" klubu Rodriqesin transferi üçün "Portu" ilə razılaşır. Kolumbiyalı futbolçu ilə beş illik müqavilə imzalanır.

***

2014-cü il dünya çempionatı Rodriqesin karyerasında parlaq hesab olunmalıdır. O, mundialda keçirdiyi beş görüşün hər birində-Yunanıstan

(90+3), Fil Dişi Sahili (64-cü dəqiqə), Yaponiya (89),Uruqvay ( 28 və 50) və Braziliyanın (80-cı dəqiqədə penaltidən) qapısına top vurub. O, çempionatda keçirdiyi bütün görüşlərdə qol vuran yeganə futbolçudur.












Rodriqes 1/8 final görüşündə Uruqvayın qapısından 2 qol vuraraq qollarının ümumi sayını 5-ə çatdırıb.

**Messi də mundialda bəyəndiyin futbolçular sırasında yalnız Xames Rodriqesin adını çəkib. O futbolçunun Uruqvaya vurduğu qolu "sənət əsəri" adlandırıb. Braziliya yığmasının müdafiəçisi David Luiz isə məğlub olmalarına baxmayaraq Rodriqesin artıq dünya çempionu olduğunu bildirib:** "Çempion dedikdə təkcə kuboku başı üzərinə qaldıran futbolçu başa düşülməməlidir. Məsələn, Rodriqes mundialda əla oyun sərgilədi, qollar vurdu. O, turniri başıuca tərk edir. Məğlubiyyətə baxmayaraq, Rodriqes artıq çempiondur".

"David Luis matç bitdikdən sonra məni qucaqladı və yaxşı futbolçu olduğumu söylədi. Onun bu hərəkətindən sonra qürur hissi keçirdim. Özümüzlə fəxr etməliyik, çünki çox güclü rəqibə qarşı oynadıq" deyə, kolumbiyalı oyunçu bildirib.

Kolumbiya dünya çempionatında çıxışını dayandırdıqdan sonra Rodriqesin «Monako»nu tərk edəcəyi barədə xəbərlər yayılmışdı.

Rodriqeslə «Real Madrid» maraqlandığı, kolumbiyalını argentinalı Anxel di Marianı dəyişmək niyyətində olduğu deyilirdi. Amma sonra məlum oldu ki, Rodriqes "Monako"nu tərk etməyəcək...

❑ Orxan ƏLİYEV

YENİ MÜSAVAT

Son səhifə

N 176 (5885) 11 iyul 2014

# Matç zamanı yatdı... durub 10 milyon dollar təzminat istədi

"Nyu York Yankiz" beysbol komandasının azarkeşi kabel televiziyası olan ESPN-ə qarşı 10 milyon dollarlıq məhkəmə iddiası qaldırıb. Buna səbəb isə azarkeşin matç zamanı tribunada yatması olub. Lenta.ru "New York Post"a istinadən xəbər verir ki, Endryu Robert Rektor adlı azarkeşin qəzəblənməsinə səbəb canlı yayım zamanı onunla bağlı səsləndirilən aşağılayıcı ifadələr olub. Belə ki, matç zamanı azarkeş yatıb və bunu canlı yayım kameraları vasitəsilə görən diktorlar onu "gombul ağılsız" adlandıraraq milyonların qarşısında biabır ediblər. Növbəti gün isə həmin aşağılayıcı ifadələr Beysbol Baş Liqasının saytında da dərc edilib. Rektorun fikrincə, bu, onun insan haqlarının növbəti dəfə tapdanması olub və ona qarşı düşünülmüş şəkildə emosional basqı edilib. Azarkeş ESPN-lə yanaşı, beysbol liqası və Nyu York Yankiz komandasının da cərimələnməsini istəyib.



## Kartof salatı hazırlamaq üçün 7695 dollar yığdı




Kartof salatı hazırlamaqla böyük pullar qazanmaq mümkün imiş. CNN-in yaydığı məlumata görə, Zaku Braun adlı həvəskar öncə "Kickstarter" adlı firmanın saytında kartof salatı hazırlamaq istəyini elan edib. Amerikalı bu gülməli proyekti sayəsində cəmi 10 dollar qazana biləcəyini düşünüb. Kartof salatının şəklini sayta yerləşdirən amerikalı onun altından bunları yazıb: "Mən ümumiyyətlə kartof salatı hazırlamaq istəyirəm. Amma hələ qərar verə bilməmişəm ki, məhz hansı kartof salatından".

Ağıllı işbaz eyni zamanda risk əmsalını da unutmayıb və aşağıdakıları qeyd edib: "Salat o qədər də yaxşı alınmaya bilər, çünki mən onu ilk dəfədir ki, hazırlayıram".

Gözlənilmədən bu layihə istifadəçilər arasında ciddi populyarlıq qazanıb. Bu günə qədər kartof salatı üçün toplanan vəsaitin həcmi 7695 dollar olub. Məbləğ gündən-günə artıq. İnternet istifadəçiləri üçün də bu qeyri-adi layihə ciddi maraq mənbəyi olub. Facebookda bu elanı 60 min dəfədən çox paylaşıblar. Bu paylaşımların altında aparılan müzakirələrdə isə insanlar yığılan pulun daha çox hansı istiqamətə xərclənməsinin doğru olması ilə bağlı variantlar səsləndiriblər. Portalın qaydalarına görə, yığılan pullar 2 avqust 2014-cü ildə Zaku Brauna veriləcək. İdeya müəllifi isə hesab edir ki, pulu alan kimi böyük bir villa kirayələyib, salatın hazırlanması üçün pul verən hər kəsi ora çağırmaq və onlara parti vermək lazımdır.

## Ağlımızı qorumağın yeddi yolu

Ağır şəhər həyatı, gündəlik stresslər və qaydasında getməyən işlər. Bir insanın psixoloji vəziyyətinə mənfi təsir edəcək o qədər amillər var ki... Ancaq təqdim edəcəyimiz bu məsləhətlərə riayət etməklə hüzurlu bir həyat yaşaya bilərsiniz.

**Açıq havada qaçış.** Qaçış üçün qapalı idman salonları yerinə açıq hava seçsəniz bu, özünüzü daha yaxşı hiss etmənizə kömək edəcək.

**B 12 vitamini.** Araşdırmalar zamanı bədəndə yaşanan B 2 vitamininin əskikliyinin depressiya və stressə səbəb olduğu ortaya çıxıb. B-12 vitamin ehtiyacınızı toyuq, yumurta, süd məhsulları ilə ödəyə bilərsiniz.

**Kiçik hədəflər.** Nəyisə hədəf seçirsinizsə, hədəfin sadə və kiçik olması həmin işi bacarmanıza, uğur əldə etmənizə çox kömək edəcək. Siqareti tərgitmək istəyirsinizsə, birdən-birə "heç siqaret çəkməyəcəm" demək yerinə, "hər gün siqaretin sayını bir-bir azaldacağam" deyin.

**Lirik və sakitləşdirici musiqilər.** İş görərkən klassik, sakit musiqilər dinləmək insanı rahatladar və stressi yox edər.

**Lavanda yağı.** Yata bilmirsinizsə, yastığınıza bir neçə damcı lavanda yağı damcıladaraq, yuxu keyfiyyətinizi artıra bilərsiniz. Yatmadan əvvəl lavanda çayı içmək də eyni təsiri verir.

**Hədiyyə verin.** Hədiyyə verərək özünüzü həmin gün boyunca xoşbəxt hiss edəcəksiniz. Bunu araşdırmalar təsdiqləyib.

**Meditasiya.** Gündəlik olaraq 3-4 dəqiqənizi meditasiyaya ayırın. Bu, depressiya, yuxusuzluq, stress kimi problemlərə başa çıxmanıza kömək edəcək (ailem.az).



## Bakı Avropa paytaxtlarından bahalı şəhərdir

Dünyada ən bahalı şəhərlər siyahısına Afrikanın iki şəhəri başçılıq edir.

Anqolanın paytaxtı Luanda və Çadın paytaxtı Ncamena əslində elə də varlı sayılmasalar da, siyahının başında dururlar.

Mercer təşkilatı illik reytinqini açıqlayıb.

**Ən ucuz məkan-Pakistan**

Reytinqdə Afrikadan sonra Avropa və Asiya şəhərləri gəlir. Honq Konq 3-cü, Sinqapur 4-cü yerdədir. Sürix 3 pillə irəli çıxaraq beşinci yerdə qərarlaşıb. Cenevrə 6-cı yerdədir. Tokio dörd pillə düşərək 7-ci yeri tutub.

Pakistan əcnəbilər üçün ən ucuz məkan sayılır. Reytinqin hesablandığı 211 şəhər içində Karaçi sonuncu yerdə qərarlaşıb.

211 şəhərdə 200 məhsul və xidmətin qiyməti müqayisə olunub. Buraya ev, nəqliyyat, ərzaq, geyim, ev əşyaları və əyləncə xərcləri daxildir.

**Bakı və Praqanın fərqi**

Moskva 9, Bakı 46, İrəvan 187, Tbilisi 194-cü bahalı şəhərdir. Keçən il Bakı 57-ci yerdə idi. Bir il ərzində 11 pillə irəliləyib. Bahalığa görə Bakı bəzi Avropa şəhərlərindən öndə gedir. Belə ki, Praqa 92, Brüssel və Lüksemburq 56, Berlin 68-ci yerdədir.

"Mercer" Beynəlxalq Konsalting Şirkəti 1975-ci ildə yaranıb. Mənzil qərargahı Nyu-Yorkdadır. (azadliq.org)




**QOÇ** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**ŞİR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək arzusunda deyilsinizsə, onda bələlərindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra uzaq səfərə çıxın.

**QIZ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**TƏRƏZİ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olar ki, nahardan sonra işə ara verib bir qədər istirahətə aludə olasınız. Spirtli içkidən, duzlu qidadan uzaq olun.

**ƏQRƏB** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**OXATAN** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**OĞLAQ** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı probleminiz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**SUTÖKƏN** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İstidən qurtulmaq üçün mağazada yatırlar

Pekində havaların həddsiz istiləşməsinə görə insanlar "İkea" adlı hipermarketə axın ediblər. İri kondisionerlərlə təchiz edilmiş mebel satılan mağazaya axın edən əhali ora sərinləmək məqsədilə gedir. Çinlilər mebel mağazasının əsasən yataq mebelləri satılan hissəsinə girir, günün ən isti saatlarında ordakı yataq, divan, kreslolarda istirahət edirlər və bu, artıq dəb halını alıb. Pekinliləri istilərdən qurtulmağın qeyri-standart üsuluna yaşam şərtləri məcbur edib. Doğrudur, şəhərdə yeni, bahalı çoxlu evlər tikilsə də, bu, şəhər sakinlərinin cibinə uyğun deyil. Onlar əsasən kondisionersiz, köhnə, ventilyasiya sistemi olmayan evlərdə yaşayırlar. "İkea" rəhbərliyi isə yatan çinliləri mebel zalından qovmağı doğru saymayıb. "Yatağanlar" heç nə almasalar da, marketoloqlar hesab edir ki, insanlara qarşı bu cür xoş hərəkət nümayiş etdirən firmanın gələcəkdə satış göstəriciləri də yüksək ola bilər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565